# İBADUR RƏHMAN

*İLAHİ BƏNDƏLƏRİN SƏCİYYƏLƏRİ*

**Ustad**
**Əbülqasim Əliyannijadi**

بسم الله الرحمن الرحيم

**BİSMİLLAHİR-**

**RƏHMANİR-**

**RƏHİM**

# İBADUR RƏHMAN

***Kitabın adı: İlahi bəndələrin səciyyələri***
***Müəllif: Ustad Əbülqasim Əliyannijadi***
***Tərcümə edən: Rza Şükürlü***
***Ədəbi redaktor: Elmar Rəhimli***

*Azərbaycan Respublikası Dini Qurumlar İş Üzrə Dövlət Komitəsi DK 477/Y. saylı 26 avqust 2013-cü il tarixli məktubu ilə kitabın çap olunmasına razılıq verilmişdir.*

***Kitabın çap hüquqları qorunur***

## *GİRİŞ*

### *RAMAZAN – TƏLİM-TƏRBİYƏ AYI*

Mübarək Ramazan ayı bəndələrin Allah dərgahına qonaq çağırıldığı günlərdir. Bu bərəkətli ayın süfrəsinin bəzəyi mehriban Allahın nazil etdiyi "Qurani-Kərim"dir. Ziyafətin sahibi bu qonaqlıqda səadət və xoşbəxtlik, xeyir və bərəkət qaynağı olan həyat kitabını əziz qonağına töhfə edir. Odur ki, Ramazan ayı həqiqi həyat təlim-tərbiyəsinin təməli qoyulduğu aydır.

Oruc tutanlar bu ayın mənəviyyat və səfa-səmimiyyətlə dolu anları sayəsində iman ruhlarını möhkəmlədir, əməllərini cilalayırlar. Bu dəyərli anlarda onların hətta qeyri-iradi işləri belə ibadət sayılır. Onlar Allah-Taalanın nurlu kəlamlarını tilavət etdikcə mənəviyyat səmasında pərvaz edirlər.

Hədis və rəvayətlərdə mübarək Ramazan ayında Quran oxumaq daha çox tövsiyə edilir və buna dair hədsiz savablar nəzərdə tutulur. Məsələn, bu ayda oxunan bir ayəyə başqa aylarda oxunan bütöv Quranın savabı verilir.[1] Elə buna görə də ən fəzilətli vaxtlar Qurana ayrılan vaxtlardır.

Allahın həqiqi qonaqları mübarək Ramazan ayında Onun kitabı ilə daha çox ünsiyyət bağlayır, nurlu süfrəsində daha çox diz çökür və hər hansı sıxıntı və dərdlərinə məlhəm qoyurlar.

---

*1. "Vəsailüş-şiə", 7-ci cild, səh.288.*

### *QURANİ-KƏRİMDƏ İSLAM ƏXLAQI*

Şübhəsiz, bəşəriyyətin həyatı böhranla doludur və bu da bir ölkəyə məxsus deyil, cahanşümuldur. Sonu bəlli olmayan bu təlatümə qarşı ağıllı insanların müdrikliyi tələb olunur və onsuz dünyanın taleyi naməlum görünür. Günümüzün siyasi və iqtisadi böhranlarından da çətin və qorxulusu dünyanı bürüyən əxlaqi böhrandır. Demək olar, hər gün onunla üzləşib, əzab-əziyyət çəkməyən yoxdur və onun həlli yolu haqda düşünən də azdır. Üzərimizə düşən borcu hiss edərək "Qurani-Kərimdə İslam əxlaqı" ünvanı ilə yazdığımız kitab onun həlli istiqamətində atdığımız kiçik addım sayılır. Burada biz "Furqan" surəsinin bir sıra ayələrinin şərhilə "ilahi bəndələr"ə xas xüsusiyyətləri açıqlayacağıq. Qurani-Kərimə əsasən, həmin xüsusiyyətlərə malik cəmiyyətdə "əxlaq böhranı" adlı problem olmayacaq.

### *"FURQAN" SURƏSİNİN MƏZMUNU*

Bu surə[1] 77 ayədən ibarətdir və məzmun etibarilə onu dörd qismə bölmək olar:

---

*1. İmam Kazimdən (ə) belə nəql olunur: "Furqan" surəsini hər gecə tilavət edən (cəhənnəm əzabı ilə) əsla cəzalanmayacaq, sorğu-sual olunmayacaq və "firdovsi-əla"da (behiştin ən üstün mərtəbəsi) sakin olacaq." ("Təfsiri-nümunə", 15-ci cild, səh.5)*

*Məlumdur ki, bu qədər savab və fəzilət təkcə bu ayələri tilavət edib onun məzmunu üzərində düşünmyən və göstərişlərinə əməl etməyənlərə aid deyil. Bu oxu və tilavətlər həmin ayələrdəki göstərişlərə əməl etmək üçün başlanğıcdır. Bir sözlə, sorğu-sualsız behiştə girib onun ən üstün mərtəbəsində sakin olanlar "üsuli-din"ə etiqad bəsləyən, "fürui-din"ə əməl edən, ilahi bəndələrin on dörd xüsusiyyətinə malik kəslərdir. Rəhman Allah bu böyük məqamı bizlərə qismət etsin!*

1. Tövhid;
2. Nübüvvət;
3. Məad;
4. Allahın xüsusi bəndələrinin səciyyələri.

Həqiqətdə, bu səciyyələr İslam əxlaqının əsaslarını təşkil edir və haqq yolçularının yolu üzərində nurlu çıraqdır.

### *İLAHİ BƏNDƏLƏRİN XÜSUSİYYƏTLƏRİNƏ QISA BİR BAXIŞ*

Qeyd olunan ayələrdə ilahi bəndələrə xas on dörd xüsusiyyət gözə çarpsa da, bəzi təfsirçilər bunu on iki hesab etmişlər. Bu xüsusiyyətlər aşağıdakılardan ibarətdir:

1. Təvazökarlıq; 2. nadanlarla mülayim rəftar; 3. gecə ibadətləri, xüsusilə, gecə namazı; 4. Allahdan və əzabından qorxu; 5. ifrat və təfritlə mübarizə; 6. hər növ şirkdən uzaqlıq; 7. insanın canı və qanının möhtərəmliyi; 8. iffətsizlik və zinadan çəkinmə; 9. dinə yad məclislərdən uzaqlıq; 10. yersiz işlərdən çəkinmə; 11. təhqiq və təfəkkür; 12. övlad tərbiyəsi; 13. başqalarına örnək olma; 14. həyatın çətinliklərində səbir və dözümlülük.

Kitabın mövzusunu, demək olar, həmin səciyyələr təşkil edir. Özümüzlə bərabər hamının onları düzgün mənası ilə qavrayıb həyatda hər nə qədər olsa da, layiqincə əməl etməyinə ümidvarıq![1]

---

*1. İlahi əxlaqa sahib olmaqda məqsəd rəhman Allahın bizə təlim verdiyi xüsusiyyətlərə yiyələnməkdir. Əgər Allah mehribanlıq və güzəşti bəyənəndirsə, biz də öz həddimizdə insanlarla mehriban davranıb, onları bağışlamağı bacarmalıyıq, əgər O, elm və bəsirətə əhəmiyyət verirsə, biz də gücümüz daxilində onu kəsb etməliyik. Bunlar bəndəliyə doğru addım və "təkamül" yoluna girişdir. İlahi sifətlərə yiyələndikcə, bizimlə Onun arasındakı rabitə bir o qədər sıxlaşır və məqamımız Onun dərgahında*

*ALLAHIN BƏNDƏLƏRİ KİMLƏRDİR?*

"Allahın bəndələri dedikdə, nə nəzərdə tutulur? Kimlər Allahın bəndələri adlanır?" Bu sualda bir neçə nöqtə diqqəti cəlb edir:

1. "Allahın bəndələri" (ibadur-Rəhman) ifadəsi Qurani-Kərimdə iki dəfə işlənib: biri araşdıracağımız həmin "Furqan" surəsində; digəri isə "Zuxruf" surəsinin 19-cu ayəsində. Orada belə buyurulur:

وَجَعَلُوا الْمَلَائِكَةَ الَّذِينَ هُمْ عِبَادُ الرَّحْمَنِ إِنَاثًا

***"Rəhman Allahın (xüsusi) bəndələri olan mələkləri qızlar sandılar..."***

Rəhman Allah bu ayədə mələkləri Allahın bəndələri adlandırmışdır.

Hər iki ayəni yanaşı qoyarkən ilahi bəndələrin mələklərə tay olduğu məlum olur. Demək, bu xüsusiyyətləri əldə edərək rəhman Allahın mələklərin cərgəsinə qatılmaq böyük səadətdir!

2. Allaha bəndəliyi başa düşmək üçün öncə übudiyyətin həqiqi mənasını bilmək lazımdır. Bunu Allaha həqiqi bəndə olub, bəndəliyi tam vücudu ilə hiss edənlər yaxşı şərh edə bilər! Odur ki, məsum imamlara üz tutur və həmin ifadənin şərhini onlardan öyrənirik. Rəhman Allahın həqiqi bəndəsi imam Sadiq (ə) diqqəti cəlb edən bir hədisdə qeyd edilmiş sualı belə cavablandırır:

*"(Bəndəliyin ilk əlaməti odur ki,) fərd özünü Allahın ona əta etdiklərinə malik bilməsin (bunu heç vaxt yaddaşından silməsin və qəlbən inansın ki, həqiqi malik Allahdır və bizə verdikləri neçə günlük əmanətdir). Çünki (ilahi) bəndələr heç*

---

*yüksəlir.*

*nəyi öz mülkiyyəti hesab etmirlər, mal-dövləti Allahın töhfəsi sanaraq onları Onun bəyəndiyi yerdə sərf edirlər.*

(Bəndəliyin ikinci əlaməti odur ki,) fərd işlərində özünü tədbir sahibi bilməsin (qadir Allahı bütün işlərə hakim sansın və hər şeyin Onun qüdrətli əlində olduğuna inansın).

(Bəndəliyin üçüncü əlaməti odur ki,) fərd ömrü boyu Rəbbinin ona əmr və qadağa etdiklərinə itaət etsin (və Onun razılığından başqa bir şey haqda düşünməsin)."

İmam Sadiq (ə) bu üç əlaməti bəyan etdikdən sonra buyurur: "Bunlar təqvalıların ilk dərəcəsidir."[1]

Bəndəliyin daha yüksək dərəcələri də vardır ki, onlara ibadət və raz-niyazla çatmaq mümkündür.

3. Qurani-Kərimdə həqiqi übudiyyət və bəndəliyə dair bir sıra əlamət və xüsusiyyətlər açıqlanır ki, burada onların üçünü qeyd etməklə kifayətlənirik:

"Hicr" surəsinin 42-ci ayəsində belə buyurulur:

إِنَّ عِبَادِي لَيْسَ لَكَ عَلَيْهِمْ سُلْطَانٌ

***"Şübhəsiz, sənin (şeytan) Mənim bəndələrim üzərində heç bir hökmranlığın yoxdur..."***

Bu ayəyə əsasən, şeytanın təsiri altına düşməmək bəndəliyin nişanələrindən sayılır. Bəzən bir sıra ayələrdə şeytanın Allahın xüsusi bəndələrinə vəsvəsəsi nəticəsində cüzi büdrəyişləri qeyd olunur ki, bu heç də şeytanın onlara hakimliyi deyil.

Yaxşı iş, ibadət və raz-niyazdan uzaq olanlar həqiqətdə şeytanın hakimiyyəti altındadırlar. Onlar Allahın bəndələri deyillər! Şeytanın çəngindən qurtulub Allahın lütf və mərhəmət vadisinə daxil olmaq üçün

*1. "Mizanul-hikmət", 7-ci cild, səh.12, fəsil: 2451, hədis: 11761.*

çalışmaq lazımdır. Allah elə bəndələrini bu məqsəd üçün yaratmışdır.

"Fəcr" surəsinin son ayələrində belə buyurulur:

يَا أَيَّتُهَا النَّفْسُ الْمُطْمَئِنَّةُ. ارْجِعِي إِلَى رَبِّكِ رَاضِيَةً مَّرْضِيَّةً. فَادْخُلِي فِي عِبَادِي. وَادْخُلِي جَنَّتِي

***"Ey (təqvanın sayəsində kamala yetən) arxayın nəfs, dön Rəbbinə tərəf! Həm sən Ondan razı, həm də O səndən! Mənim bəndələrimin zümrəsinə, cənnətimə daxil ol!"***

Bu ayələrə əsasən, insan nəfsin "əmmarə" (əmr edən) və "ləvvamə" (qınayan) mərhələsini müvəffəqiyyətlə arxada qoyaraq bəndəlik məqamını, "mütməinnə" (arxayın) dərəcəsini əldə edir, ruhu asayiş tapır və şeytanın cilovunu birdəfəlik qırır.

"İsra" surəsinin 53-cü ayəsində belə məlumat verilir:

وَقُل لِّعِبَادِي يَقُولُواْ الَّتِي هِيَ أَحْسَنُ إِنَّ الشَّيْطَانَ يَنزَغُ بَيْنَهُمْ إِنَّ الشَّيْطَانَ كَانَ لِلإِنْسَانِ عَدُوًّا مُّبِينًا

***"Mənim bəndələrimə de ki, sözün ən gözəlini söyləsinlər (hər məqam üçün sözün ən münasib və gözəlini seçsinlər). Həqiqətdə şeytan (fəsad yaradan sözlər vasitəsi ilə) onların arasını vurur. Çünki şeytan insana açıq-aşkar düşməndir."***

Həqiqi bəndəliyin nişanələrindən biri də dili qorumaqdır. Sözü harada deyib, harada susmağı bacarmayanlar rəhman Allahın bəndələri zümrəsindən kənardır.

4. Qeyd olunan ayələrdə Allahın "rəhman" adı çəkilir ki, bu da təfsirçilərin rəy müxtəlifliyinə səbəb olmuşdur. Məsələ orasındadır ki, "rəhman" sifəti əqidəsindən asılı olmayaraq bütün insanları əhatə edən, "rəhim" isə xas

insanlara aid olan xüsusi sifəti sayılır. Məsələn, dünyada bütün insanların yağışdan, günəşin nurundan, təmiz havadan və sair nemətlərdən azad istifadəsi "Rəhman" Allahın mərhəməti sayəsindədir, istər mömin olsun, istər kafir, istər günahkar olsun, istər itaətkar, istər İslam dininə qulluq etsin, istər başqa dinə!

Allahın "rəhim" sifəti isə yalnız möminləri əhatə edir. Bu sifət dünyada möminlərə aiddir, axirətdə də belədir və axirət aləmi, demək olar, Onun – qiyamət gününün sahibinin xüsusi rəhmət meydanıdır.

İmam Sadiq (ə) bir hədisdə bunu belə işıqlandırır. "Rəhman bir ad kimi ümumi sifətdir (rəhməti hamıya aiddir). Rəhim isə xüsusi sifətdir (bu mərhəmətə yalnız möminlər nail olurlar)."[1]

Bir sözlə, Allahın bütün kainatı əhatə edən rəhməti kənarında yalnız möminləri əhatə edən xüsusi mərhəməti də vardır.

Burada "Allahın lütf və rəhməti"ndən söz düşdüyü üçün, din düşmənlərinin İslamı sərtlik və qəddarlıqda ittihamlamalarını cavablandırmağı münasib görürük. Quran ayələri, məsum rəhbərlərin kəlam və həyat tərzinə istinad etməklə İslamın belə ittihamlardan uzaq, rəhmət, ülfət və məhəbbət dini olduğunu aydınlaşdıracağıq.

### *İSLAM – QƏDDARLIQ, YAXUD MƏRHƏMƏT*

İslamın inadkar düşmənləri heç vaxt ona qarşı kinlərini gizlətməmiş və daim ona zərbə vurmağa cəhd etmişlər. Bu elə İslamın ilk çağlarından başlamış və indinin özünə qədər də davam edir və müasir dövrdə dünya imperializmi tərəfindən daha çox təhdidə

*1. "Məcməül-bəyan", 1-ci cild, səh.21, "Təfsiri-nümunə"dən nəqlən, 1-ci cild, səh.23.*

məruz qalır. Artıq onlar İslamı daha böyük miqyasda – ümumdünyəvi sülh ideyaları və insan haqları ilə qarşı-qarşıya qoyaraq onu qəddarlıqda suçlamağa çalışırlar. Təəssüflər olsun ki, onlara öz çirkin məqsədlərinə çatmaqda geridə qalan bir sıra müsəlman ölkələrində nümunələr hazırlamaq çətin deyildir. Onlar Allahdan xəbərsiz kiçik bir qrupun əlilə törətdikləri cinayətlərlə İslamı dünya ictimaiyyətinin gözündən salmağa can atır, bunu istənilən informasiya vasitələrilə baş xəbərlərin sırasına keçirməkdə əllərindən gələni əsirgəmirlər. Xoşbəxtlikdən, əksər müsəlman xalqları bu hadisələri İslama yad hesab edir və onun mütərəqqiliyini təhdid edən addımlar sanırlar.

Demək, bu gün İslamın qəddar, yoxsa ülfət və mehribanlığı sevən, isti münasibətləri dəstəkləyən bir din olduğu anlamının aydınlaşdırılması zəruri nəzərə çarpır.

### *QURANİ-KƏRİMDƏ RƏHMƏT VƏ ŞƏFQƏT*

İslam əsaslarının təməli olan müqəddəs Qurani-Kərim onun rəhmət, şəfqət və məhəbbət dini olduğunu elan edir:

1. Qurani-Kərimin 114 surəsindən 113-ü İslamın rəhmət və məhəbbət dini olduğunu göstərən "Bismillahir-rəhmanir-rəhim!" (Bağışlayan və mehriban Allahın adı ilə!) ifadəsi ilə başlayır. Təkcə "Bəraət" surə "Bismillah"sızdır ki, onun da aydın dəlilləri var. Onun "Bismillah"sız başlamasının səbəbi hidayət və islaha ümid yeri qalmayan müşriklərə və İslamın inadkar düşmənlərinə elan edilən son qəti müraciətlə əlaqədardır. "Bismillah" mərhəmətin varlığı, "bəraət" isə amanın götürülməsi deməkdir. Aydındır ki, döyüş

zamanı inadkar düşmənlə rəhmət və məhəbbətdə söz gedə bilməz. Başqa sözlə, Qurani-Kərimdə "qəzəb"lə "rəhmət"in nisbəti 114-ə 1-dir, yəni İslamda "qəzəb" rəhmət və məhəbbətin keşiyində durur. Bundan da ideal bir ideya varmı?!

2. Allah-Taala "Ər-rəhman" surəsinin 60-cı ayəsində belə buyurulur:

هَلْ جَزَاء الْإِحْسَانِ إِلَّا الْإِحْسَانُ

***"Məgər yaxşılığın əvəzi yaxşılıq deyilmi?"***

Rəhmət, məhəbbət, dostluq və yaxşılıqdan danışan bu şərif ayə müsəlmanların ən mühüm şüarıdır. Quranda, hətta müsəlmanlara pislikləri yaxşı rəftar və ədəblə qarşılamaları tövsiyə olunur! Buna "Muminun" surəsinin 96-cı ayəsini misal göstərmək olar:

ادْفَعْ بِالَّتِي هِيَ أَحْسَنُ السَّيِّئَةَ نَحْنُ أَعْلَمُ بِمَا يَصِفُونَ

***"Onların pislik və hörmətsizliklərini ən gözəl üsulla dəf et. Biz onların dediklərini (Allaha şərik qoşmalarını, sənin dininə və kitabına istehza etmələrini) daha yaxşı bilirik."***

Bəzən ən azğın düşmənlərinin pislik və hörmətsizliklərini ülfət və güzəştlə qarşılamağı öz peyğəmbərinə tövsiyə edən bir din, doğrudan da, məhəbbət, şəfqət, rəhmət və səfa-səmimiyyətlə doludur!

**3.** "Casiyə" surəsinin 14-cü ayəsində belə buyurulur:

قُل لِّلَّذِينَ آمَنُوا يَغْفِرُوا لِلَّذِينَ لا يَرْجُون أَيَّامَ اللَّهِ لِيَجْزِيَ قَوْمًا بِما كَانُوا يَكْسِبُونَ

***"(Ey Peyğəmbər!) İman gətirənlərə de ki, Allahın (məğlubiyyət və ölüm, bərzəx və qiyamət kimi) günlərinə***

***iman və ümidi olmayanları bağışlasınlar (və ilahi hakimiyyət gerçəkləşənə kimi onlara toxunmasınlar) ki, (Allah mübarizə aparan) dəstəni əməllərinə görə (Özü) cəzalandırsın.”***

Bu ayəyə əsasən, şəfqət və mərhəmət yalnız müsəlman və möminlərə xas deyil və qeyri-müsəlmanlara qarşı da rəva görülür. Görən, belə bir dini qəddar adlandırmaq olarmı?

O zaman Lut qövmünün əməlləri ilə bağlı yerə enən əzab məmurları naməlum surətdə həzrət İbrahimin yanına gəldilər. Həzrət İbrahim qonaqlarına yemək hazırlayıb süfrə açsa da, onlardan heç biri süfrəyə əl uzatmadı! Adət üzrə bu iş pis məna daşıyırdı və qonağın süfrəyə əl uzatmaması ev sahibinin təhlükədə olduğunu bildirirdi. Həzrət İbrahim (ə) özünü təhlükədə gördükdə, onlar dedilər: “Narahat olma, biz Rəbbinin məmurlarıyıq və iki vəzifəni icra etmək üçün gəlmişik:

Birincisi, sənə müjdəmiz var: bu qoca vaxtında Allah sənə İshaq adlı bir oğul verəcək və onun nəslindən peyğəmbərlər doğulacaq.

İbrahim (ə) ilə zövcəsi gözlənilməz bu xəbərdən çox sevindilər.

İkincisi odur ki, biz günahkar Lut qövmünə son qoyacağıq.

Bu xəbər həzrət İbrahimi (ə) matəmə qərq etdi və Rəbbin məmurları ilə əzabının yüngülləşməsi barədə müzakirə və mübahisəyə başladı. Mələklər ona belə cavab verdilər:

يَا إِبْرَاهِيمُ أَعْرِضْ عَنْ هَذَا إِنَّهُ قَدْ جَاء أَمْرُ رَبِّكَ وَإِنَّهُمْ آتِيهِمْ عَذَابٌ غَيْرُ مَرْدُودٍ

***“Ey İbrahim, bundan (bu vasitəçilikdən) əl çək ki, artıq***

***Rəbbinin (onların əzabı barədəki) əmri verilib və onları qarşısıalınmaz əzab gözləyir."*[1]**

Lutun qövmünün keçmiş qövmlərə nisbət ən çirkin əməllərə əl uzatmasına baxmayaraq, İbrahim peyğəmbərin ülfət və mehribanlığına mane ola bilmədi. Rəbbin dərgahından əzabının yüngülləşməsini istədi.

Burada söz yalnız İbrahim peyğəmbərin ülfət və mehribanlığından getmir, Quranın rəhmət və məhəbbətə yer verməyindən danışılır. Görən, rəhmət, ülfət və məhəbbətlə dolu bir dinə deyilən adları yaxmaq rəvadırmı?!

4. İslam Peyğəmbərinin (s) qeyri-adiliklərindən biri də insanların qəlblərinə təsiri idi. "Ali-İmran" surəsinin 159-cu ayəsində belə buyurulur:

فَبِمَا رَحْمَةٍ مِّنَ اللّهِ لِنتَ لَهُمْ وَلَوْ كُنتَ فَظًّا غَلِيظَ الْقَلْبِ لاَنفَضُّواْ مِنْ حَوْلِكَ...

***"Allah tərəfindən olan rəhmətin sayəsində onlarla (camaatla) mülayim oldun və əgər qaba və daşürəkli olsaydın, hökmən sənin ətrafından dağılışardılar..."***

Bu ayəyə əsasən, Peyğəmbərin şəfqət və mehribanlığı ilahi lütf və mərhəmətdən qaynaqlanır. Odur ki, "Ənfal" surəsinin 63-cü ayəsində belə buyurulur:

لَوْ أَنفَقْتَ مَا فِي الأَرْضِ جَمِيعاً مَّا أَلَّفَتْ بَيْنَ قُلُوبِهِمْ وَلَـكِنَّ اللّهَ أَلَّفَ بَيْنَهُمْ إِنَّهُ عَزِيزٌ حَكِيمٌ

***"(Ey Peyğəmbər!) Əgər sən yer üzündəkilərin hamısını xərcləsəydin də, onların qəlbləri arasında ülfət yarada bilməzdin. Lakin Allah onların aralarında ülfət yaratdı.***

---

1. *"Hud" surəsi, ayə 76.*

***Həqiqətən, O, yenilməz qüdrət və hikmət sahibidir.”***

O zaman geridə qalmış bədəvi tayfaları, ayrıseçkiliklə dolu qrupları birləşdirib qüdrətli bir xalqa çevirərək hakimiyyət qurmaq möcüzə idi.

Deməli, mürtəce insanların arasında ülfət, məhəbbət və səfa-səmimiyyət yaratmağı İslam Peyğəmbərinin (s) möcüzəsi bilsək, sözsüz, yanılmarıq! Görəsən, qəlblər arasında ülfət və mehribanlığı dirçəldən bir dini qəzəb və qəddarlıqda ittiham etmək olarmı?

5. Allah-Taala “Bəqərə” surəsinin 208-ci ayəsində buyurur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ ادْخُلُواْ فِي السِّلْمِ كَآفَّةً وَلاَ تَتَّبِعُواْ خُطُوَاتِ الشَّيْطَانِ
إِنَّهُ لَكُمْ عَدُوٌّ مُّبِينٌ

***“Ey iman gətirənlər, hamılıqla (Allaha) təslim və itaətə daxil olun və şeytanın addımlarına tabe olmayın ki, həqiqətən, o, sizin aşkar düşməninizdir.”***

Bu ayəyə əsasən, sülh və barışıq İslamın əsas prinsiplərindən biridir. Odur ki, sülh və barışıqdan yayınıb təfriqə salanlar, qalmaqal törədənlər şeytanın ardıcılları kimi tanıtdırılır! Yəni sülh və barışıq ilahi duyğu, qalmaqal və mərəkə yaratmaq isə şeytani bir işdir.

6. Qurani-Kərimdə bəzən Allah-Taalanın əzəmətinə dair nişanələrindən söz açılır. Məsələn, “Rum” surəsinin 21-ci ayəsində belə buyurulur:

وَمِنْ آيَاتِهِ أَنْ خَلَقَ لَكُم مِّنْ أَنفُسِكُمْ أَزْوَاجًا لِّتَسْكُنُوا إِلَيْهَا وَجَعَلَ بَيْنَكُم
مَّوَدَّةً وَرَحْمَةً إِنَّ فِي ذَلِكَ لَآيَاتٍ لِّقَوْمٍ يَتَفَكَّرُونَ

***“Aramlıq tapmağınız üçün sizə (mələklər, cinlər və***

***ya başqa məxluqlardan deyil,) öz cinsinizdən zövcələr yaratmağı və sizin aranızda (ər-arvadın, yaxud insanların arasında) dostluq əlaqəsi, mehr-məhəbbət yaratması onun nişanələrindəndir. Həqiqətən, bunda düşünən qövm üçün (Allahın tövhidi, qüdrəti və hikmətinə dair) nişanələr vardır."***

Ayədə qeyd olunan "bəynəkum" (sizin aranızda) ifadəsi insanlar arasındakı mehr-məhəbbət, dostluq rabitələrindən söz açır. Bunun rəhman Allahın nişanələri arasında qeyd olunması vurğulanan mövzunun əhəmiyyətini göstərir.

Deməк, insanlar arasındakı isti münasibətlər ilahi mənşəyə malik mədəni-ictimai həyatın təməlini təşkil edir.

*HƏDİSLƏRDƏ RƏHMƏT VƏ ŞƏFQƏT*

1. İmam Sadiq (ə) buyurmuşdur: "Məgər din məhəbbətdən başqa bir şeydirmi?! Allah-Taala buyurub: "Əgər Allahı sevirsinizsə, Peyğəmbərin (s) göstərişlərinə itaət edin ki, Allah da sizi sevsin."[1] Yəni ilahi göstərişlərə təmənnasız əməl Allaha eşq və məhəbbəti göstərir.

2. İmam Baqir (ə) buyurmuşdur: "Din məhəbbətdir, məhəbbət də din!"[2]

Bu və bu kimi hədislərə görə, insanın dini-mənəvi həyatını kor-koranə itaət yox, eşq-məhəbbət təşkil edir. Mömin şəxsi də Allaha itaət və bu yolda çətinliklərə razı edən yalnız budur! Təbiidir ki, hər hansı işdə eşq-məhəbbət onu asanlaşdırır. Bəs, ardıcıllarının əməl və rəftarında eşq-məhəbbət yaradan dini qəddar adlandırmaq olarmı?

3. İslamın rəhmət və şəfqəti hətta döyüş

1. *"Mizanul-hikmət", 2-ci cild, fəsil: 666, hədis: 3257.*

2. *"Nurus-səqəleyn", 5-ci cild, səh.285, hədis: 49.*

meydanlarında belə özünü nümayiş etdirir. Yəni İslam tamamilə sərt rəftarların baş verdiyi meydanlarda da ardıcıllarını qəddarlıqdan çəkindirir. Məsələn, imam Sadiq (ə) buyurur: "Peyğəmbəri-Əkrəm (s) İslam əsgərlərini döyüş meydanına göndərdiyi zaman onları bir yerə toplayıb, aşağıdakı sözləri yadlarına salardı (və ona əməl etməyəni danlayardı):

سِيرُوا بِسْمِ اللّهِ وَ فِى سَبِيلِ اللّهِ وَ عَلى مِلَّةِ رَسولِ اللّهِ

***Döyüş meydanına yalnız Allahın adı, yadı, razılığı və Peyğəmbərinin dini uğrunda yola düşün!***

a) **لا تَغُلوا** – Döyüşdə əsla xəyanət etməyin!

b) **وَ لا تُمَثلوا** – Düşmənin ruhsuz bədənini tikə-tikə doğramayın!

Peyğəmbəri-Əkrəmdən (s) nəql olunan bir hədisdə deyilir ki, sizə hücum edən quduz bir iti öldürdükdən sonra bədənin tikə-tikə doğramaq olmaz.[1]

c) **وَ لا تَغْدروا** – Hiylə və kələklə əhd-peymanları pozmayın!

Düşmənlə sülh və atəşkəs zamanı əhdinizə sadiq qalın və onu pozmayın. Müsəlmanlar düşmənləri ilə bağladığı əhd-peymana vəfalı olmalıdırlar. Məsələn, imam Əli (ə) Malik Əştərə belə buyurmuşdur: "Düşmənlə əhd-peyman bağlayıb ona pənah verdiyin surətdə əhdinə sadiq qal, razılaşdığın söz və haqlara arxa çevirmə və canını əhdinə bağla! İnsanların ixtilaflarına baxmayaraq, ilahi vaciblər içərisində əhdə vəfa qılmağı hamı möhtərəm sanır."[2]

ç) **وَ لا تَقتُلوا شَيْخ و لا صَبِيّ و لا امْرَأة** – (Müharibədə rolu

1. *"Biharul-ənvar", 42-ci cild, səh.246 və 257.*

2. *"Nəhcül-bəlağə", məktub : 53.*

olmayan zəif və gücsüzləri,) əldən düşmüş qoca kişiləri, uşaq və qadınları qətlə yetirməyin!

d) وَ لا تَقطَعوا شَجَر إلّا أنْ تَضطَروا إليها – Naçar qalmayınca, ağacları kəsməyin!

O vaxt yalnız qan tökməyi anlayan cahil insanların arasında belə mütərəqqi qanunları həyata keçirə bilən İslamı yalnız humanizmin banisi adlandırmalı, heç nəyə rəhm olunmayan meydanlarda ətraf mühiti belə nəzərə alan göstərişləri isə insanpərvərliyin ən yüksək nümunəsi sanmalıyıq.

Peyğəmbəri-Əkrəmin (s) mərdliyə dair göstərişləri, doğrudan da, heyrətləndiricidir:

*"Müsəlman əsgərlərdən – istər yüksək rütbəli olsun, istərsə də, sıravi – sığınacaq alan düşmən əmin-amanlıqdadır; onu arxa cəbhəyə yollayıb, (şirin dillə, səbir və hövsələ ilə) Allahın kəlamını, İslam maarifini, əhkam və göstərişlərini anlatmaq lazımdır. İslamı qəbul edənlər müsəlmanların sırasına qoşularaq din qardaşınız sayılır və hüquqları sizinlə bərabərdir. Qəbul etməyənləri, yaxud düşünmək üçün möhlət istəyənləri sağ-salamat vətəninə qaytarmalı, onlara əzab-əziyyət verilməməlidir."*

Qeyd edək ki, bu göstərişlərə riayət etmək elə də asan deyil və güclü iman, geniş sinə tələb edir. Elə bu səbəbdən də İslam Peyğəmbəri (s) söhbətinin sonunda əsgərlərinə buyurur ki, İslamın rəhmət və şəfqətlə yanaşı olan göstərişlərinə əməl etmək üçün böyük və qadir Allahdan yardım diləsinlər.

Görəsən, insan hüquqlarından dəm vuran, bu sayaq şüarlarla dünya xalqlarının qulaqlarını kar edənlər döyüş meydanında qeyd edilənlərin hansı birinə əməl edirlər?! Cavab mənfidir! İsrail-Fələstin müharibəsində nəinki rəhmsiz və qəddar sionistlər xəstəxanaları belə

orada yatan fələstinli xəstə və yaralıların başına tökür, onların əkin sahələrinə od vurur, ağaclarını kəsir, böyük-kiçik, uşaq-qadın, qoca-cavan, bir sözlə, heç kimə rəhm etmirlər. Bununla belə, dünya ictimaiyyətinə müharibə və hücuma məruz qalanlar kimi təqdim edilir, müsəlmanlar isə qəddarlıqla suçlanırlar!

4. İslamda rəhmət və şəfqət insanlarla yanaşı, heyvanlara və digər varlıqlara da aid edilir! İslam təlimləri sırasında heyvanların hüquqları ilə bağlı rəvayətlərə də rast gəlinir.[1] Məsələn, İslam Peyğəmbəri (s) dördayaqlı heyvanlar üçün altı haqq bəyan edir:[2]

a) يَبدَءُ بِعَلَفِها إذا نَزَلَ – (Ev sahibi) evə qayıtdıqda, əvvəl mal-qaranın suyu və yeminə baxmalı, sonra öz yeməyin haqda düşünməlidir.

b) وَ يَعرِضُ عَلَيها الماءَ إذا مَرَ بِهِ – Yol əsnasında bulaq başına çatdıqda, suvarmalıdır.

c) وَ لا يَضرِبُ وَجهَها فَإنها تُسَبحُ بِحَمدِ رَبها – Heyvanın surətinə vurmayın ki, o da Allaha təsbih və zikr deyir.[3]

ç) وَ لا يَقِفُ عَلى ظَهرِها إلّا في سَبيلِ الله – Yol yerimədikdə dayanan heyvanın belində əyləşməyin Allah yolu müstəsnadır. (Məsələn, döyüş meydanlarında əsgərin daim süvari olması zəruri sayılır. Çünki düşmən tərəfindən qəfil hücuma məruz qala bilər.)

d) وَ لا يَحمِلُها فَوقَ طاقَتِها – Heyvanlara taqətindən çox yük vurulmasın.

---

*1. Bu haqda nəql olunan hədislərin sayı az deyil və təkcə "Vəsailüş-şiə" kitabının 8-ci cildində "Heyvanların hökmləri" fəslində 50-dən çox bölmə ayrılıb.*

*2. "Vəsailüş-şiə", 8-ci cild, səh.35.*

*3. "Quran ayələrinə əsasən, bütün varlıqlar aləmlərin Rəbbinə təsbih və zikr deyir.*

ə) وَ لا يُكَلِّفُها مِنَ الْمَشْيِ إِلّا ما تُطيقُ – Yolu nəzərə alıb taqəti qədər sürülməlidir.

Bunları biz müasir dövrdə də müşahidə etmirik və hətta çoxları onu dərk və təhlil etməyə qadir deyil! Amma rəhməti geniş olan İslam dini bu incəlikləri nəzərə almışdır. Belə isə, onu qəddar adlandırmaq olarmı?

5. Mübarək Ramazan ayında oxunan, qoxusu dünyanın bütün məscidləri və ibadət mərkəzlərini bürüyən dualar da İslamın rəhmət və şəfqətinin bir nümunəsi sayılır. Bu ayda müsəlmanlar (yalnız müsəlmanların deyil,) bütün insanların çətinliklərinin həlli üçün əllərini böyük Allahın dərgahına qaldıraraq belə dua edirlər:

اَللّـهُمَّ اَدْخِلْ عَلى اَهْلِ الْقُبُورِ السُّرُورَ

İlahi, qəbiristan əhlinə şadlıq bəxş et!

اَللّـهُمَّ اَغْنِ كُلَّ فَقير

İlahi, bütün yoxsulları ehtiyacsız et!

اَللّـهُمَّ اَشْبِعْ كُلَّ جائِع

İlahi, bütün acları doyuzdur!

اَللّـهُمَّ اكْسُ كُلَّ عُرْيان

İlahi, libası olmayan bütün çılpaqları geyindir!

اَللّـهُمَّ اقْضِ دَيْنَ كُلِّ مَدين

İlahi, bütün borcluların borclarını ödə!

اَللّـهُمَّ فَرِّجْ عَنْ كُلِّ مَكْرُوب

İlahi, bütün çətinlikdə yaşayanları qəm-qüssədən xilas et!

اَللّـهُمَّ رُدَّ كُلَّ غَريب

İlahi, bütün qəribləri (öz vətənlərinə) qaytar!

اَللّـهُمَّ فُكَّ كُلَّ اَسير

İlahi, bütün əsirləri əsirlikdən qurtar!

اَللّـهُمَّ اَصْلِحْ كُلَّ فاسِد مِنْ اُمُورِ الْمُسْلِمينَ

İlahi, müsəlmanların işlərindən bütün fəsadı iqaldır!

اَللّـهُمَّ اشْفِ كُلَّ مَريض

İlahi, bütün xəstələrə şəfa ver!

Doğrudan da, insan İslamın bu kimi rəhmət və şəfqətindən ləzzət alır və müsəlmanların hisslərinə afərin deyir. Onlar əksər dualarının bütün ehtiyaclı insanlara aid olduğundan, zövq alırlar.

Görəsən, belə təəssüratlar İslamın rəhmət və şəfqət nümunəsi deyilmi?

Hansı qərəzsiz və insaflı şəxsin onu qəddarlıqda ittiham etməyə cürəti çatar?!

### *MƏSUM RƏHBƏRLƏRİN HƏYATINDA İSLAMIN RƏHMƏT VƏ ŞƏFQƏTİ*

Məsum rəhbərlərinin, demək olar, bütün həyatı rəhmət, məhəbbət və şəfqətlə keçmişdir. Biz burada bir neçə nümunəni qeyd etməklə kifayətlənirik:

1. İslam Peyğəmbərinin (s) Məkkənin fəthindən sonra düşmənlərlə rəftarı uyğun mövzuya aşkar dəlildir. Hələ Mədinəyə hicrətindən on üç il qabaq müqəddəs Məkkə

şəhərində hədsiz əzab-əziyyətlərə məruz qalan, olmazın müsibətlər, ağrı-acılar və çətinliklər görən o həzrət Məkkənin fəthi zamanı ən qəddar düşmənlərini gözəl bir cümlə ilə, İslamın rəhmət və əfvi ilə qarşılayaraq onlara belə buyurur: "Azadsınız və hara istəyirsinizsə, gedin!"[1] Hətta Peyğəmbərə (s) "Əsgərlərdən biri əlinə bayraq götürüb intiqam şüarı qaldırır!" – deyə xəbər verildikdə, narahatlıqla onun əlindən bayrağı alıb intiqam əvəzinə "sülh" və "dostluq" şüarı verərək deyir: "Bu gün məhəbbət və mərhəmət günüdür!"[2]

İkinci dünya müharibəsində isə müttəfiq ölkələrin əsgərləri Almaniyanın paytaxtı Berlinə daxil olduqda, böyük qəddarlıqla kütləvi qırğınlara əl atır, faciəli cinayətlər törədir və hətta qundaqdakı südəmər körpələri belə göyə tullayaraq atəşə tuturdular! Elə indinin özündə də ülfət və mehribanlıqdan uzaq olan həmin canilərin nəsilləri müsəlman ölkələrində hər gün dilə gəlməyən elə cinayətlər törədirlər ki, qələm onları yazmağa acizdir və insanın onları eşidib-görməyə taqəti yoxdur!

Görəsən, qəzəb əhli bizik, yoxsa insan hüquqlarından dəm vuranlar!

2. İmam Əlinin (ə) öz qatili Əbdürrəhman ibn Mülcəm Muradi ilə rəftarının misli hələ görünməyib. O həzrət onun canına sui-qəsd edən düşmənini rəhmət və şəfqətdən məhrum etmir və zindana atıldığı zamandan edamına qədər onunla bir insan kimi rəftar olunmağını əmr edir: *"Övladlarım! Mənim qatilim yalnız bir nəfər, o da İbn Mülcəmdir. Məbada məndən sonra bir qrup fürsət qulları qılınclarını qınından çıxarıb, günahsız insanların canına*

1. *"Biharul-ənvar", 21-ci cild, səh.106.*
2. *"Təfsiri-nümunə", 20-ci cild, səh.282.*

*axışsın, kimisə Əlinin qatili ilə həmkarlığı üstə qətlə yetirsin və bu müqəddəs şüar donunda şəxsi qərəzlərinin əvəzini çıxsınlar!*

*Əzizlərim! Mənə hazırladığınız yeməkdən ona da verin!*

*Mənim gözümün işıqları! Əgər diri qalsam, onunla nə edəcəyimi özüm bilərəm və əgər Allahın görüşünə getsəm, onunla qəddarlıq etməyə haqqınız yoxdur! O, mənə bir qılınc zərbəsi vurub, siz də ona yalnız bir qılınc zərbəsi vurun!*

*Ey Rəsulullahın övladları! Onu öləndən sonra da tikə-tikə doğramayın!"*

Bunlar imam Əlinin (ə) şəhadət yatağında ikən qatili barədə ailəsinə sifarişlərdir. Rəhbəri bu qədər mehriban və qayğıkeş olan İslamı qəddar adlandırmaq olarmı?!

### *İRADLAR*

Bəşəriyyətin arzuladığı müqəddəs İslamdakı məhəbbət və mərhəmətə rəğmən, düşmənlər tərəfindən daim dəstəklənən bir sıra şübhə və qaranlıq görünən məsələlərin araşdırılması zəruri nəzərə çarpır:

### A) QİSAS QANUNU, YOXSA QƏDDARLIQ

"Nə üçün hələ də İslamda qisas qanunu saxlanılır? Qisasın qəddarlıqla nə fərqi var? Bir insan günahkar olsa, hökmən öldürülməlimi?" – kimi sualların cavabında bir neçə məsələyə diqqət yetirmək lazımdır:

**Birincisi,** Allah-Taala "Bəqərə" surəsinin 178-ci ayədə "qisas" qanununu belə bəyan edir:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُتِبَ عَلَيْكُمُ الْقِصَاصُ فِي الْقَتْلَى الْحُرُّ بِالْحُرِّ وَالْعَبْدُ بِالْعَبْدِ وَالأُنثَى بِالأُنثَى فَمَنْ عُفِيَ لَهُ مِنْ أَخِيهِ شَيْءٌ فَاتِّبَاعٌ بِالْمَعْرُوفِ وَأَدَاء إِلَيْهِ بِإِحْسَانٍ ذَلِكَ تَخْفِيفٌ مِّن رَّبِّكُمْ وَرَحْمَةٌ...

***"Ey iman gətirənlər, sizə (qəsdən) öldürülənlər barədə qisasa icazə verildi: azad azadın, qul qulun və qadın qadının müqabilində. Beləliklə, kim (hər hansı qatil) öz (din) qardaşı (öldürülənin qəyyumu) tərəfindən müəyyən əfvə şamil olsa (məsələn, qəyyum bütün qisas haqqından, yaxud bir hissəsindən keçsə və ya onu qanbahası ilə əvəz etsə), onda (qalan hissələr barədə, ya da diyənin alınmasında) orta mövqe seçməlidir və (qatil də) diyəni ona xoşluqla və gözəl surətdə ödəməlidir. (Yerinə yetirilməsi ixtiyari olan) bu (qisas hökmü), sizin Rəbbiniz tərəfindən bir güzəşt və rəhmətdir..."***

Ayəyə əsasən, qisas nə vacibdir, nə də müstəhəb. Bu, yalnız öldürülən şəxsin adamlarına verilən bir haqdır.

**İkincisi,** həmin surənin 179-cu ayəsində deyilir ki, "qisas"ın mahiyyəti düşmənçilik və kin-küdurəti artırmaq yox, həyatın davamı və insanların canının müdafiəsi üçündür. Belə bir hökm olmadan camaatın canı, malı və namusu deyilən şeyi anlamayan caninin qarşısı necə alınmalıdır? Cəmiyyətdə qarşısı qisasdan başqa yolla alına bilməyən qaçaq-quldur, azğın canilərlə belə rəftar qəddarlıqdırmı?! Əslində bu, cəmiyyətin təhlükəsizliyinin təmini üçün eynilə rəhmət və şəfqətdir.[1]

---

*1. Maraqlısı odur ki, bu hökm Allah-Taala tərəfindən "əql sahibləri"nə buyurulur. Yəni qisas məsələsi sadəcə bir hiss (intiqam hissi) deyil, əksinə ağıl və məntiqə söykənir. Sağlam əql sahibləri anlayırlar ki, asayiş və təhlükəsizlik üçün qisas hökmü bir zərurətdir. Bu ayənin sonunda qeyd edilən "ləəlləkum təttəqun" (ola bilsin, nahaq qanlar axıtmaqdan çəkinəsiniz) – ifadəsi ona daha da aydınlıq gətirir. Demək, "qisas" ayəsinin hər bir bəndində diqqəti cəlb edən nöqtələr, sülh, dostluq və həyat mesajları var və açıq-aşkar sərtliklə mübarizə deməkdir. Bir də Qurani-Kərimdə "qisas" sözü cəmi dörd dəfə, "rəhmət" isə yetmiş doqquz dəfə, "rəhman" sözü yüz altmış dəfə və "rəhim" sözü yüz doxsan səkkiz dəfə işlənib! Bütün bunlar "qisas"ın istisna hal olduğunu göstərir və İslamın əsasını rəhmət, şəfqət və məhəbbət təşkil edir.*

Diqqəti cəlb edən odur ki, belə cinayətkarlar layiqli cəzalarını aldıqda, hüquq carçılarının, rəhmət və şəfqət iddiaçılarının etiraz səsləri bütün dünyanı bürüyür. Lakin dünyanın istənilən nöqtələrində, xüsusilə, İslam ölkələrində onların azğın müttəfiqlərinin törətdikləri cinayətlərə gəldikdə, etiraz səsləri kəsilir, sanki hamı kar, kor, lal olur!

Heç kim xəstənin zədələnmiş yararsız üzvünü bədənin sağlamlığını qorumaq məqsədilə kəsib atan həkimin əməlini qəddarlıq adlandırmır? Sanitarik tədbirlər sağlamlığın keşiyini çəkmək üçündür.

Qisas da bir növ dərmandır, fəsadın cəmiyyətin digər üzvlərinə keçməməsi və onların təhlükəsizliyini qorumaq üçün zəruridir.

Heç bir ağıllı insan qətl-qarətlə cəmiyyətin təhlükəsizliyini pozan rəhmsiz ünsürlərin azad dolanaraq istədiyi cinayətə əl atmasına razı olmaz! Bütün münsif insanlar qisası cəmiyyətin asayişi üçün zəruri hesab edirlər.

### B) İSLAMIN DİNİ RƏHMƏT VƏ ŞƏFQƏTLƏ UYĞUNSUZLUĞU

İslama tutulan irad və bəhanələrdən biri də ondakı "cəza tədbirləri"dir. Onlar deyirlər ki, günahkar bir şəxsin bədəninə yüz şallaq vurmaq qəddarlıq deyilmi? Bir anlıq iffət pərdəsini yırtan kişi və ya qadının daş-qalaq edilməsi rəhmət və şəfqətlə necə uzlaşır? Oğrunun əl-ayağını kəsməyi necə rəhmət və şəfqət adlandırmaq olar? Ümumiyyətlə, cəza tədbirləri, qəddarlıq deyilmi?

**Cavab:** "Cəza tədbirləri" ilk baxışda sərt görünsə də, onları da İslamın rəhmət və şəfqəti çərçivəsində görməliyik:

a) Caza tədbirlərinə dair nəql edilən hədislər bizə İslamın idarə sistemi haqda yeni təfəkkür tərzi aşılayır. Diqqətinizi iki nümunəyə cəlb edirik:

1. İslam Peyğəmbəri (s) buyurmuşdur: *"Bir cəza tədbiri qırx gecə-gündüz yağış yağmaqdan xeyirlidir."*[1]

Belə tədbirlərin ilahi rəhmət olaraq[2] yer əhlinə nazil edilən yağışa bənzədilməsi yeni bir baxışdır. İslamda cəzalar cəmiyyətin dezinfeksiyası üçündür. Misal üçün, asayiş və əmin-amanlığı pozub, camaatın canı, malı və namusuna qənim kəsilərək onları qorxuya salanı "müharib", yaxud narkotik maddələri paylayıb cavan nəsli məhv "yer üzündə fitnə-fəsad törədənlər" ünvanı ilə cəzalandırmağa qəddarlıq adı vermək olarmı?!

Bizim etiqadımıza görə, hətta cəzaya məhkum olunmayanlar da Allah-Taalanın təqdiri ilə hökmən çirkin işlərinin nəticəsini görəcəklər.

2. İmamı Musa Kazim (ə) ***"Allah yeri ölümündən sonra dirildəcəkdir!"***[3] – ayəsini belə izah edir: *"Məqsəd quru torpaqların təkcə yağışla dirilməsi deyil. Allah-Taala dünyada ədaləti bərpa edən (himmətli və ixlaslı) kişilər göndərəcək. Yer üzü ədalətin bərpası nəticəsində diriləcək və yer üzündə ədaləti bərpa edən bir cəza qırx gecə-gündüz yağış yağmaqdan faydalıdır."*[4]

Diqqət yetirmək lazımdır ki, qeyd edilən hədisdə intiqam və qəddarlıqdan əsər-əlamət yoxdur, əksinə rəhmət, məhəbbət və cəmiyyətdə ədalətin bərpasından söz açılır.

---

1. *"Vəsailüş-şiə", 18-ci cild, səh.308.*
2. *"Kəhf" surəsinin 16-cı ayəsində "yağış" ilahi rəhmət adlandırılır.*
3. *"Hədid" surəsi, ayə 17.*
4. *"Vəsailüş-şiə", 18-ci cild, səh.308, hədis: 3.*

b) Şəri cəza tədbirlərinin keyfiyyətinə diqqət yetirərkən İslamın daha artıq rəhmət və məhəbbət nümunələrinin şahidi oluruq.

Məsələn, bir çox cəza tədbirləri dörd nəfərin şahidliyi və yaxud insanın özünün dörd dəfə iqrarı ilə sübuta yetir, dörd nəfər insaflı şəxs filan kişi ilə qadının iffətə zidd əmələ qurşandıqları halda gördüyünə şəhadət verdiyi təqdirdə, onlar cəzaya məhkum olunur.

Sual budur ki, görəsən, belə bir təsadüf mümkündürmü? Biz rəvayətlər və tarix kitablarında hətta bir nümunə də olsun belə iffətsiz əməlin şahidlərin şəhadəti ilə isbat edildiyini görməmişdik. Bu da ki, günahkarların halına şamil olan İslamın geniş rəhmət və məhəbbətini göstərir.

Günahkarın günahının isbat olunmasının ikinci yolu onun öz günahını iqrar etməsidir. Onun da bir sıra şərtləri vardır ki, biri onun öz günahını dörd dəfə iqrar etməsidir; özü də hər bir iqrar ayrı-ayrı yığıncaqda olmalı və hətta bir yığıncaqda dörd dəfə iqrar bir dəfə hesab olunur![1] Yaxud günahkarın günahı isbat olunmamışdan qabaq şəriət hakiminin hüzurunda tövbə edib işindən peşman olduğu peşmançılığı da tam bilindiyi surətdə cəza hökmündə dəyişikliklər yarada bilir.[2] Buna dair nümunələr çoxdur və biz burada onlardan birini qeyd etməklə Peyğəmbərin (s) həqiqi canişini imam Əlinin (ə) zamanında öz ayağı ilə mühakimə stolu arxasında dayanan bir günahkara qarşı olunan ülfət və mehribanlığı sübut etmək istəyirik:

---

*1.. Bu rəvayəti "Vəsailüş-şiə"nin 18-ci cildinin 377-ci səhifəsində mütaliə edə bilərsiniz.*

*2.. "Vəsailüş-şiə", Şeyx Hürr Amuli, 18-ci cild, səh.327.*

İffətsiz əmələ qurşanan bir qadın imam Əlinin (ə) hüzuruna gəlib, "zina"ya görə cəzalandırılmasını və günahdan paklanmağını istəyir. İmam Əli (ə) buyurur: *"Get, uşağını dünyaya gətirdikdən sonra gələrsən."*

Qadın geri dönüb uşağını dünyaya gətirdikdən sonra, yenə öz istəyini təmənna edir. Həzrət (onu fikrindən yayındırmaq və şəkkə salmaq üçün) müxtəlif suallar verdikdən sonra buyurur: *"Get, uşağını saxla və südvermə dövrü qurtardıqdan sonra gələrsən."*

Qadın iki il keçdikdən sonra üçüncü dəfə Həzrətin hüzuruna gəlib cəzalandırılmağını istəyir. Həzrət yenə müxtəlif suallardan sonra buyurur: *"Get, övladını boya-başa çatdır ki, özünü təhlükələrdən qoruya bilsin. Ondan sonra gələrsən və cəza hökmünü icra edərik."*

Qadın ağlaya-ağlaya geri qayıdır...[1]

Göründüyü kimi, bir günahın isbatı asan deyil. Günahkar öz günahını iqrar etməyincə, onu isbat etmək çətindir. Bu isə İslamın rəhmət və məhəbbət nişanəsidir.

Əgər İslamın qayda-qanunları sərt olsaydı, bir günahın isbatı üçün bu qədər çıxış yolları qoyulmazdı!

c) Günahkarın məhkum olunduğu və şəriət hakiminin də qərar çıxardığı təqdirdə də, yenə onun icra keyfiyyətindəki bir sıra bəndlər İslamın rəhmət və məhəbbətini göstərir. Nümunə olaraq onların bir neçəsinə qısa şəkildə nəzər salaq:

1. Şallaqdan istifadə edilən cəza hökmləri günahkara daha çox əziyyət verən qış fəslinin şiddətli soyuq günlərində yox, mülayim günlərdə icra olunmalıdır.

2. Yay fəsli də eynilə belədir; şiddətli isti havalara

---

*1.. "Vəsailüş-şiə", 18-ci cild, səh.378, hədis: 1.*

nisbətən mülayim günlər nəzərə alınmalıdır.[1]

3. Cəza hökmü günahkarın yuxuda yox, oturduğu, yaxud durduğu halda icra olunur ki, zərbələr bu iki halda yavaş vurulur və günahkar az ağrı hiss edir.[2]

4. Günahkar xəstədirsə, sağalana qədər hökm təxirə salınır.[3]

5. Günahkar hamilədirsə, uşağını dünyaya gətirənə qədər gözlənilir.[4]

Bunlardan başqa, digər qayda-qanunlar da vardır ki, onlar bütünlüklə İslamın günahkara qarşı rəhmət və məhəbbətini bildirir.[5]

Bir sözlə, İslamda cəza tədbirlərini təfərrüatı ilə araşdıran insaflı insan heç vaxt İslamın rəhmət, şəfqət və məhəbbətdən əsirgədiyinin şahidi olmayacaq. Odur ki, İslamın caza tədbirləri cəmiyyət üçün qırx günlük yağışdan bərəkətli və faydalıdır!

### *MÜHARİBƏ VƏ İSLAMIN RƏHMƏT VƏ ŞƏFQƏTİ*

Özünü rəhmət və şəfqət ocağı sanan İslam dini hansı əsasla cihad kimi sərt hərəkatı vacib etmiş və hücum və qətl hallarına icazə verir? Məgər müharibə ilə qəddarlıq bərabər deyilmi?

Bu sualların cavabını Qurani-Kərimin cihadla bağlı ayələrindən öyrənmək lazımdır. “Ənfal” surəsinin 60-cı ayəsində buyurulur:

وَأَعِدُّواْ لَهُم مَّا اسْتَطَعْتُم مِّن قُوَّةٍ وَمِن رِّبَاطِ الْخَيْلِ تُرْهِبُونَ بِهِ عَدْوَّ اللّهِ

*1.. “Vəsailüş-şiə”, 18-ci cild, səh.315.*

*2.. “Vəsailüş-şiə”, 18-ci cild, səh.369, hədis: 1.*

*3.. “Vəsailüş-şiə”, 18-ci cild, səh.320.*

*4.. “Vəsailüş-şiə”, 18-ci cild, səh.378.*

*5.. Əlavə məlumat üçün fiqh kitablarına müraciət edilsin.*

وَعَدُوَّكُمْ وَآخَرِينَ مِن دُونِهِمْ لاَ تَعْلَمُونَهُمُ اللّهُ يَعْلَمُهُمْ...

***"(Ey möminlər!) Allahın düşməni, öz düşməniniz və sizin tanımadığınız və Allahın tanıdığı digər düşmənləri qorxutmaq üçün onların müqabilində bacardığınız qədər qüvvə (insan qüvvəsi, silah və döyüş xərcləri), bağlanmış və bəslənmiş atlar (münasib minik vasitələri) tədarük görün..."***

İslamda qüvvə toplamaq müharibə fikri və hücum yox, düşməni qorxudub müharibə fikrindən daşındırmaq nəzərdə tutulur. Həqiqətdə, İslam müsəlmanların hərtərəfli hazırlığı ilə müharibənin kökünü qurutmaq, təcavüzkarın cürətini aradan qaldırmaq istəyir. İslam deyir: "Güclü və qüdrətli olun ki, hətta düşmən sizinlə döyüş fikrində belə olmasın." Görəsən, belə strategiyanı qəddarlıqla ittihamlandırmaq olarmı?!

Həmin surənin 61-ci ayəsində belə buyurulur:

وَإِن جَنَحُواْ لِلسَّلْمِ فَاجْنَحْ لَهَا وَتَوَكَّلْ عَلَى اللّهِ إِنَّهُ هُوَ السَّمِيعُ الْعَلِيمُ

***"Əgər onlar sülh və barışığa meyl göstərsələr, sən də meyil et və Allaha təvəkkül et ki, şübhəsiz, O, eşidən və biləndir!"***

İslam heç vaxt müharibəni yalnız qan tökmək üçün uzatmır, düşmən tutduğu işdən peşman olub sülhə razılaşsa atəşkəsə icazə verir. İslamın müharibəsi müdafiədir və onun odunu söndürmək üçün münasib fürsət axtarır. Məlum tarixə əsasən, bütün İslam döyüşlərində ilk ox düşmən tərəfindən atılıb.

Görəsən, bunlar sərtlikdir, yoxsa rəhmət və məhəbbətin son həddi?

"Bəqərə" surəsinin 194-cü ayəsində buyurulur:

فَمَنِ اعْتَدَى عَلَيْكُمْ فَاعْتَدُواْ عَلَيْهِ بِمِثْلِ مَا اعْتَدَى عَلَيْكُمْ وَاتَّقُواْ اللّهَ وَاعْلَمُواْ أَنَّ اللّهَ مَعَ الْمُتَّقِينَ

***“Kim sizə qarşı həddi aşsa, siz də o qədər həddi aşın (cavab verin). Allahdan qorxun (əvəz çıxmaqda həddi aşmayın) və bilin ki, Allah təqvalılarladır.”***

Bu ayədə üç mühüm mətləbə işarə olunur: 1. Yalnız sizinlə döyüşənlərlə döyüşə bilərsiniz; 2. Onlarla döyüşdə həddinizi aşmayın və yalnız zülm və şərləri dəf edilənə qədər döyüşün; 3. Hətta döyüş meydanında da təqvanı unutmayın və bilin ki, Allah təqvalılarladır.

Dünyada baş verən bütün müharibələrdə bunlar ən nikbin ölçülər sayılır. Hansı ağıllı insan düşmənə xoşluqla canı, malı və namusunu verməyə razıdır?! Qurani-Kərimdə buyurulan bu göstərişləri qeyri-adi adlandırmaq insafsızlıqdır!

### *“İBTİDAİ CİHAD” – QƏDDARLIQ QƏSDİ*

Qarşı tərəfə ilk hücumu (ibtidai cihad) İslam rəhmət və şəfqətlə necə ayırd edir? Bu, daha qəddarlıq sayılmırmı?

**Cavab:** Bir sıra alim və tarixçilərinin nəzərinə əsasən, İslamda “ibtidai cihad” göstərişi yoxdur və Peyğəmbərin (s) dövründə baş verən bütün müharibələr müdafiə xarakterli olub, düşmənin hücumunu dəf etmək üçün qarşıya gəlib. Məsələn, müsəlmanlar və allahpərəstlərlə qarşı-qarşıya durub “Əhzab” döyüşünü başlayanlar müşriklər olub. Onlar Hicazın müxtəlif nöqtələrindən Mədinəyə yürüş edib, şəhəri mühasirəyə alırlar. Müsəlmanlar belə vəziyyətdə canları, malları, namusları və etiqadlarını müdafiə etməli idilər. Hansı ağıllı insan başdan-ayağa silahlanmış düşmənin İslam Peyğəmbəri (s) və müsəlmanları qətlə yetirib, qalan xalqı

əsir tutaraq Mədinənin dağılması kimi azğınlıqlarına razı olmağı humanizm sanır?! Məgər özünü qorumaq qəddarlıqdırmı?

"Hüneyn" döyüşündə Peyğəmbərə (s) xəbər verildi ki, "Həvazin" qəbiləsi ilə müşrikləri bir qrupu müsəlmanların əsas mərkəzi sayılan Mədinəyə hücuma hazırlaşır. Peyğəmbər (s) müsəlmanları özlərini və ev-eşiklərini müdafiə etmək üçün bir yerə topladı və beləcə, "Hüneyn" döyüşü baş verdi.

İslamın ilkin müharibələri arasında yalnız "Xeybər" döyüşü "ibtidai cihad" kimi təsəvvür olunur və o da tarixi araşdırmaqla aradan qalxır. Peyğəmbər (s) bu cihadla əksər hadisələrdə rolu gizli qalan qarşı tərəfə tutarlı cavab vermək istəyirdi. O zaman fitnə-fəsad ocağı sayılan Xeybər qalaları müsəlmanların önündə böyük sədd idi və belə mərkəzi dağıtmaq "ibtidai cihad" sayılmır.

"Bədr" döyüşü də bu qəbildəndir. İkinci hicri ilində "Bədr" döyüşü adlı iki hadisə baş verdi, biri "kiçik Bədr", digəri isə "böyük Bədr" adı ilə tanındı. Döyüşü İslam düşmənləri başladı. İslam Peyğəmbərinə (s) xəbər verildi ki, Məkkə müşriklərinin böyüklərindən bir neçəsi Mədinənin ətraf məntəqələrinə hücum edib, müsəlmanların dəvə, qoyun və əmlakını qarət edərək Məkkəyə qaçırlar. Peyğəmbər (s) dərhal bir dəstəni onların ardınca göndərir. Onlar düşməni "Bədr" məntəqəsinə qədər təqib etsələr də, yaxalaya bilmirlər. Bu hadisə "kiçik Bədr" adı ilə tanınır. Elə həmin il, yenə bir müddətdən sonra məkkəlilərin yürüşü nəticəsində "böyük Bədr" döyüşü baş verir.

"Məkkənin fəthi" də İslam Peyğəmbərinin (s)

mühüm addımlarından biridir. Bu addımla İslam düşmənləri və müşriklərin mərkəzi dağıdılır. Demək olar, müsəlmanların məruz qaldıqları bütün çətinliklər və döyüşlər həmin yerdən idarə olunurdu. Bir də ki, Məkkənin fəthində əsla müharibə baş verməyib. Müşriklər müsəlmanların böyük ordusu qarşısında döyüşsüz və tələfatsız təslim oldular.

Demək, bir çox tədqiqatçılar və tarixçilərin nəzərinə əsasən, İslamın əvvəllərində baş verən müharibə və cihadlar müdafiə xarakteri daşıyırdı və onlardan heç biri "ibtidai cihad" adlanmır. Bunu Quran ayələri çərçivəsində də aramaq maraqlıdır. Məsələn, "Tövbə" surəsinin 13-cü ayəsində belə buyurulur:

أَلاَ تُقَاتِلُونَ قَوْمًا نَّكَثُواْ أَيْمَانَهُمْ وَهَمُّواْ بِإِخْرَاجِ الرَّسُولِ وَهُم بَدَؤُوكُمْ أَوَّلَ مَرَّةٍ...

***"Niyə öz andlarını pozan, Allahın Peyğəmbərini (Məkkədən) çıxarmaq qərarına gələn və sizinlə əvvəl (müharibəyə) başlayan dəstə ilə vuruşmaq istəmirsiniz?..."***

Ayədə qeyd olunan ***"Sizinlə əvvəl (müharibəyə) başlayan..."*** – ifadəsi baş verən müharibələrin "ibtidai cihad" yox, müdafiə xarakterli olduğunu göstərir. "Tövbə" surəsinin 4-cü ayəsi də uyğun məsələyə başqa bir sübutdur. Allah-Taala müşriklərlə barışmaz olduğu və onlarla döyüşə icazə verildiyini elan etdikdən sonra bir qrupu istisna edərək buyurur:

إِلاَّ الَّذِينَ عَاهَدتُّم مِّنَ الْمُشْرِكِينَ ثُمَّ لَمْ يَنقُصُوكُمْ شَيْئًا وَلَمْ يُظَاهِرُواْ عَلَيْكُمْ أَحَدًا فَأَتِمُّواْ إِلَيْهِمْ عَهْدَهُمْ إِلَى مُدَّتِهِمْ إِنَّ اللّهَ يُحِبُّ الْمُتَّقِينَ

***"Müşriklərin sizinlə əhd-peyman bağlayan və sonra***

***bir şeyi pozmayıb (düşmənlərinizə) yardım etməyənləri istisnadırlar. Siz də onlarla əhd-peymanınızın sonuna qədər gözləyin. Həqiqətən, Allah təqvalıları sevir."***

Bu ayədəki ifadələr göstərir ki, müsəlmanlar əhd-peymanlarını pozmayan və onlarla birbaşa döyüşənlərlə həmkarlıq etməyən, bir sözlə, onlar tərəfindən təhlükə gözlənilməyənlərlə döyüşməsinlər. Qısası, müsəlmanlar ilkin olaraq döyüşə başlamasınlar! Bunu öncə qeyd edilən "Ənfal" surəsinin 61-ci ayəsi də təsdiqləyir. Ayə müsəlmanlara tövsiyə edir ki, onlara uzanan sülh və barışıq əlini sıxsınlar. ***"Əgər onlar sülh və barışığa meyil göstərsələr, sən də meyil et!"*** Bunun mənası odur ki, döyüşə meylli olmayan ölkə, qövm və xalqları müsəlmanlar tərəfindən hücum gözləmir.

Bununla yanaşı, Qurani-Kərimdə əql və məntiqə uyğun üç növ "ibtidai cihad"dan söz açılır ki, İslamın rəhmət və məhəbbəti ilə ziddiyyəti yoxdur:

### 1. FITNƏ ATƏŞINI SÖNDÜRƏN CIHAD

"Bəqərə" surəsinin 193-cü ayəsində belə buyurulur:

وَقَاتِلُوهُمْ حَتَّى لاَ تَكُونَ فِتْنَةٌ وَيَكُونَ الدِّينُ لِلّهِ

***"Fitnə qalmayıncaya (şirk və bütpərəstliyin kökü kəsilincəyə), din və itaət yalnız Allaha məxsus oluncaya qədər onlarla vuruşun..."***

Bu ayəyə əsasən, gözlənilən fitnələri aradan qaldırmaq üçün "ibtidai cihad"a icazə verilir. Baş verəcək hadisələri qabaqcadan proqnozlaşdırıb, onlara qarşı düzgün mövqe seçmək məntiqə uyğun məsələdir. Burada belə hallara dair bir nümunəyə nəzər salaq:

Sovet ölkələrinin müstəqilliyi ərəfələrində Bosniyanın müsəlman xalqı serblərin amansız hücumlarına məruz

qaldı. Onlar qarşılarına çıxan hər şeyi – evləri, məscidləri, əkin sahələrini, xəstəxanaları və digər mərkəzləri viran qoyurdular. Ağlagəlməz faciə və kütləvi qırğınlara göz yuma bilməyən Avropa, nəhayət, serblilərə qarşı qəti qərarlar verərək NATO qoşunlarının vasitəsilə fitnəni aradan qaldırmalı oldu.

Biz burada avropalıların məqsədləri barədə (müsəlmanlara yardım, yoxsa gələcəkdə bu fitnənin Avropanın özünə ağır zərbə vuracağı kimi) açıqlamalar vermək əzmində deyilik. Lakin onların hərbi müdaxiləsinə "ibtidai cihad"dan başqa bir ad vermək olmaz.

Hər halda, cihad hər hansı müharibəni törədən amilləri nəzərə alıb müqayisə edərkən, elə də ağlagəlməz bir əməliyyat sayılmır.

### 2. AZĞINLAR VƏ TƏCAVÜZKARLARLA MÜBARIZƏ

Qurani-Kərimin buyruğuna əsasən, döyüşə girən iki tayfa, iki dəstə, yaxud da iki İslam ölkəsinin arasındakı ixtilafı aradan qaldırmaq, sülh və barışıq yaratmaq müsəlmanların vəzifəsidir. Burada sülhlə razılaşmayıb zülm, təcavüz və işğala davam edən tərəf İslam baxımından "təcavüzkar" adlanır. Bu zaman İslam müsəlmanlara təcavüzkar tərəflə döyüş və "ibtidai cihad" icazə verir.

İslam birinin başqa birinə zülm və təcavüzünü qəti pisləyir və başqalarının da onlara tamaşa etməsini bəyənmir. Burada verilən hökm "ibtidai cihad" hesab edilsə də, ağıl və məntiqə uyğundur və onu qəddarlıqla səhv salmaq olmaz. İslamın zülmə məruz qalanların müdafiəsinə qalxması rəhmət və şəfqətin bir nümunəsidir.

### 3. İSLAMIN TƏBLIĞINDƏ AZADLIQ ÜÇÜN CIHAD

Din müsəlmanların qeyri-müsəlmanlara azad təbliğinə, haqqın bəşəriyyətə yetirilməsinə mane olanlara qarşı "ibtidai cihad"a, nadan düşmənlərlə döyüşüb normal vəziyyəti yaratmağa icazə verir. Məsələn, İslamın İrana gəlişi ilə müəyyən qarşıdurmalar üz verməyə başladı. Nəhayət, sasanilərlə müharibə qaçılmaz oldu. Müsəlmanlar qələbə çaldıqdan sonra da heç kim dinə məcbur edilmədi və indinin özünə qədər İranda İslam daxilində atəşgahlar (atəşpərəst məbədləri) fəaliyyət göstərir. Sasanilərin hakimiyyəti İranda İslamın təbliği üçün maneə idi. İslam bu maneəni aradan qaldırdıqdan sonra iranlıların dini qəbul etməsinə zəmin yarandı.

İslamın zahirdə ağır və sərt görünən bəzi göstərişləri (üzərində dərindən düşündükdə, aydın olur ki,) rəhmət və məhəbbətlə əsla ziddiyyət təşkil etmir. Bu ittihamlar yalnız İslama səthi baxanların təsəvvüründən və bir də ki, onun qatı düşmənlərinin böhtanlarından irəli gəlir.

***İLAHİ BƏLA VƏ CƏZALAR DA RƏHMƏTDİR!***

Bizim etiqadımıza görə, dünyada günahkarların yaxasından yapışan ilahi bəla və cəzalar zahirdə sərt görünsə də, rəhmətdir! Bunu Qurani-Kərimin "Əraf" surəsinin 94-cü ayəsi belə açıqlayır:

وَمَا أَرْسَلْنَا فِي قَرْيَةٍ مِّن نَّبِيٍّ إِلاَّ أَخَذْنَا أَهْلَهَا بِالْبَأْسَاء وَالضَّرَّاء لَعَلَّهُمْ يَضَّرَّعُونَ

***"Biz peyğəmbər göndərdiyimiz hər bir şəhər və kəndin əhalisini xəstəlik, çətinlik və yoxsulluğa düçar etdik ki, bəlkə (Bizim dərgahımıza) yalvarıb-yaxarsınlar."***

Naz-nemətə qərq olanın qulağı heç vaxt

peyğəmbərlərin haqq sözünü eşitmir. Çətinliklər belələrinin qürurunu sındıraraq haqq sözü eşitməyə vadar edir. Günahkarları qəflətdən ayıldıb Allah dərgahında tövbə etməsinə və yalvarıb-yaxarmasına səbəb olan ilahi əzablar qəddarlıq yox, ilahi lütf və mərhəmətin başqa bir nümunəsidir.

# İLAHİ BƏNDƏLƏRİN SƏCİYYƏLƏRİ

# 1

# TƏVAZÖKARLIQ

Allahın xas bəndələrinin səciyyələrindən biri təvazökarlıqdır. Qurani-Kərimdə onların həmin sifətə əks təkəbbür və xudbinlik kimi xasiyyətlərdən uzaq olduğu haqda belə buyurulur:

وَعِبَادُ الرَّحْمَنِ الَّذِينَ يَمْشُونَ عَلَى الْأَرْضِ هَوْنًا...

***“Rəhman (olan Allah)ın (həqiqi) bəndələri yer (üzün)də təmkin və təvazökarlıqla yol gedənlərdir...”***

**Sual:** Görəsən, təvazökarlıqla yerimək nə böyük əhəmiyyət daşıyır ki, rəhman Allahın əsl bəndələrinin xüsusiyyəti kimi qeyd edilir?

**Cavab:** Bəzən insanın daxili hissləri ixtiyarsız olaraq zahirdə özünü büruzə verir; ya danışığında, ya gedişində, ya rəftarında, ya da gülüb-ağlamasındakı kimi zahiri əməllərdə. İmam Əli (ə) buyurur: “Daxilində kini gizlətməyə çalışan elə bir şəxs yoxdur ki, dili topuq vuraraq, ya da çöhrəsi ağararaq (dəyişilərək) aşkar olmasın.”[1]

Hərdən insanın dilindən çıxanlar batinindəki həqiqətləri aşkar edir. Psixoloqların fikirlərinə əsasən, bir sıra zarafatlar, nalayiq sözlər və hətta əsəbi halda deyilənlər insanın daxilini üzə çıxarır. Buna əsasən, təkəbbür və xudbinliyin də əlamətləri vardır ki, daha çox yol gedərkən məlum olur.

---

*1.. “Nəhcül-bəlağə”, qısa kəlamlar 26.*

Əlbəttə, bu mətləblər ayədəki "məşy" sözünün sadəcə "yol getmək" kimi zahiri mənası nəzərə alındığı təqdirdədir. Amma onu daha geniş məna kəsb edən rəftar və şəxsiyyət meyarı da sanmaq olar. O vaxt ayənin mənası belə olacaq: Rəhman Allahın həqiqi bəndələri həyatda təmkinli və təvazökar olub təkəbbür və xudbinlikdən uzaqdırlar.

Qurani-Kərimin başqa iki ayəsində təvazökarlıq yol gedişi ilə əlaqələndirilir:

1. Rəhman Allah "Loğman" surəsinin 18-ci ayəsində Loğmanın öz oğluna tövsiyəsi haqda belə buyurur:

وَلَا تَمْشِ فِي الأَرْضِ مَرَحًا

***"(Oğlum!) Yer üzündə lovğa-lovğa yerimə."***

Ayədəki "mərəh" sözü fərəhin son həddi mənasını daşıyır. Loğman oğluna tövsiyə edir ki, insan qürrələnərək özündənrazı halda yol getməsin!

2. Allah-Taala "İsra" surəsinin 37-ci ayəsində belə buyurur:

وَلاَ تَمْشِ فِي الأَرْضِ مَرَحًا إِنَّكَ لَن تَخْرِقَ الأَرْضَ وَلَن تَبْلُغَ الْجِبَالَ طُولاً

***"Yer üzündə təkəbbür və lovğalıqla yerimə. Şübhəsiz, sən nə yeri yara bilər, nə də ucalıqda dağlara çata bilərsən."***

Ayə və hədislərə əsasən, təkəbbürlü insanın lovğalığı həqiqətdə daxili həqarətdən irəli gəlir. Allah-Taala ona xatırladır ki, nə qədəmlərini möhkəm atmaqla yeri yara bilər, nə də qamətini çəkməklə göylərə ucalmış dağlara çata bilər!

### *NƏ ÜÇÜN TƏVAZÖKARLIQ?*

**Sual:** Nə üçün Allah-Taala həqiqi bəndələrin

səciyyələrinə təvazökarlıqla başlayır?

**Cavab:** Dini dünyagörüşə əsasən, təkəbbür və lovğalıq bütün bədbəxtliklərin qaynağı sayılır və hətta Allahı, peyğəmbərləri, ilahi elçiləri, məadı, bütün dəyər və yaxşılıqları insana unutdura bilir! Bu müddəaya dəlillər çoxdur və biz burada onların bir neçəsini qeyd etməklə kifayətlənirik:

1. Şeytanı Allahın dərgahından qovduran təkəbbür olub. Allah-Taala Adəmi yaratdıqdan sonra mələkləri və İblisi sınaqdan keçirmək istəyir. Allah-Taala onlara ***"Adəmə səcdə və təzim edin!"*** – deyə buyurduqda, bir nəfərdən başqa, bütün mələklər Allahın əmrinə itaət edərək, sorğu-sualsız Adəmə səcdə edirlər!

إِلاَّ إِبْلِيسَ أَبَى وَاسْتَكْبَرَ وَكَانَ مِنَ الْكَافِرِينَ

***"Yalnız İblis boyun qaçıraraq təkəbbürlük göstərdi və (Allahın əmrinə baş əymədiyi üçün) kafirlərdən oldu."***[1]

İblis təkəbbürün ucbatından Rəbbin əmrindən boyun qaçırmaqla küfr etdi. Təkəbbürün nəticəsi küfr və imansızlıqdır. Təkəbbür şüur və düşüncənin qarşısını kəsən böyük manedir. Təkəbbür və lovğalıq nə qədər artarsa, ağıl və şüur bir o qədər azalır.

Şeytan nə etdiyini anlamayıb Allaha dedi: "Mən qoxulu palçıqdan yaranmış Adəmə səcdə etmərəm!" O, Adəmin yalnız maddi yönü və zahirinə nəzər sala bildi və onun xilqətindəki sirləri, mələklərin müəllimi və məxluqatın şərəflisi seçildiyini dərk edə bilmədi! Onun qürur və özündənrazılığı o yerə çatdı ki, Allaha etiraz edərək dedi: "Nə üçün bu əmri verdin! Mən Adəmlə müqayisə ediləsi deyiləm! Mən ondan daha yaxşıyam,

---

*1.. "Bəqərə" surəsi, ayə 34.*

məni oddan, onu isə gildən yaratmısan. Od gildən üstündür!"

Təkəbbür xisləti elə həddə çatır ki, hətta məxluqu Xaliqə qarşı etiraza qaldıra bilir. İblis daha sonra Allaha belə dedi:

فَأَنْظِرْنِي إِلَى يَوْمِ يُبْعَثُونَ

***"Mənə onların (Adəmin və övladlarının qəbirlərindən) qaldırılacaqları günə qədər möhlət ver."***[1] Allah da ona möhlət verdi.

**Sual:** Şeytanın Allahdan möhlət almaqda məqsədi nə idi?

**Cavab:** Adəm və övladlarından intiqam! O, elə əvvəldən Adəmi özünün düşməni sandı və onun övladlarını zəlalətə salmaq üçün Allahdan qiyamətə qədər möhlət aldı. Təkəbbür ona xətasını dərk etməyə icazə vermədi və intiqam fikrinə düşərək yolunu azdı.

Həqiqətdə, İblisin əhvalatı ibrət dərsidir. İmam Əli (ə) "Nəhcül-bəlağə"nin "Qasiə" (192-ci) xütbəsində təkəbbür və təəssübkeşliyin zərərləri və pis aqibəti haqda belə buyurur: "Allahın ilk düşməni təəssübkeşliyin təməlini qoyan, Allahla (Ona məxsus olan) əzəmət və böyüklüyündə çəkişən, (layiq olmadığı) ucalıq xələtini geyinmək fikrinə düşən və (layiq olduğu) zillət və xarlıq (təvazökarlıq) geyimini kənara atan təəssübkeşlərin başçısı və təkəbbürlülərin öndəridir."

İmam Əli (ə) şeytana verdiyi iki ləqəblə mühüm bir mesajı açıqlayır: onu təəssübkeşlər və təkəbbürlülərin başçısı və öndəri adlandırır. Təəssübkeş və təkəbbürlü insanlar da şeytanın ardınca hərəkət edir, Allahın

---

*1.. "Əraf" surəsi, ayə 14.*

dərgahından qovularaq ona boyun əyirlər. Çünki təkəbbür və təəssübkeşliyin əsasını qoyan şeytandır.

İmam Əli (ə) sözünün davamında təəssübkeşlik və təkəbbürlüyün nəticəsinə toxunaraq buyurur: *"Məgər Allahın onu təkəbbür və itaətsizliyinə görə necə kiçiltdiyini və məğrurluğuna görə necə alçaltdığını görmürsünüz? O, elə buna görə Allahın dərgahından qovulub və axirətdə də qazandığı yalnız oddur!"*

Şeytan elə bir ad qazanıb ki, yaxşı iş görmək istəyənlər onun şərindən Allaha pənah aparır, pis iş görənlər də onu bais bilərək lənətləyir! Bundan artıq süqut ola bilməz; dünyada son dərəcədə həqarət və alçaqlıq, axirətdə isə ən yandırıcı və dərdli əzab!

2. Şüeyb peyğəmbərin qövmünün əhvalatı təkəbbürlüyün aqibətinə dair başqa bir nümunədir. Təkəbbürlük, nəhayət, insanı Allaha və peyğəmbərlərə qarşı qoyur. Məsələn, Şüeyb peyğəmbərin qövmü o həzrətin hüzuruna gəlib belə dedilər:

مَا نَفْقَهُ كَثِيرًا مِّمَّا تَقُولُ وَإِنَّا لَنَرَاكَ فِينَا ضَعِيفًا وَلَوْلاَ رَهْطُكَ لَرَجَمْنَاكَ وَمَا أَنتَ عَلَيْنَا بِعَزِيزٍ

***"(Ey Şüeyb!) Sənin dediklərinin çoxu bizə aydın deyil və aramızda mövqeyin çox aşağıdır! Əgər qəbilən olmasaydı, səni daşqalaq edərdik. Sənin canın bizə əziz deyil!"*** [1]

Onlar Şüeyb peyğəmbərin nə dediyini yaxşı başa düşürdülər, amma təkəbbür və lovğalıqları düzgün nəticə çıxarmağa icazə vermirdi. Odur ki, onun Allah tərəfindən göndərildiyini də danırdılar:

قَالَ الَّذِينَ اسْتَكْبَرُواْ إِنَّا بِالَّذِيَ آمَنتُمْ بِهِ كَافِرُونَ

*1. "Hud" surəsi, ayə 91.*

“Təkəbbürlük edənlər dedilər: “Biz sizin iman gətirdiyiniz şeyi inkar edirik.”[1]

Qeyd edilənlər İslam Peyğəmbərinin (s) tarixində də gözə dəyir. Məsələn, müşriklərin təkəbbürlüləri hətta o həzrətin sözlərinə belə qulaq asmağa hazır deyildilər. Bəzi inadkarlar Allahın elçisinin sözlərini eşitməmək üçün əlləri ilə qulaqlarını tutur, libaslarını başlarına çəkirdilər![2]

Təvazökar insan başqasının sözlərinə təmkinlə qulaq asır, haqq olsa, qəbul, əks-təqdirdə rədd edir. Haqqa qarşı inadkarlıq isə təkəbbürlüyün əlamətidir. Bir sözlə, təkəbbürlük və xudbinlik Allahın və peyğəmbərlərin inkarı ilə nəticələnir.

### *TƏKƏBBÜRÜN TƏSİRLƏRİ*

Burada təkəbbürə dair nəql olunan hədislərdən seçilmiş üç nümunəni qeyd edirik:

1. İslam Peyğəmbəri (s) buyurmuşdur: “Təkəbbürdən uzaq olun ki, İblisi Adəmə səcdədən çəkindirən təkəbbür idi.”[3]

İlk günah insan xəlq olunduqdan sonra İblisin təkəbbürü üzündən oldu. Demək olar, bütün günahlar təkəbbür, qürur və xudbinlikdən irəli gəlir.

2. İmam Əli (ə) buyurmuşdur: “Təkəbbürdən uzaq ol ki, günahların ən böyüyü, eyiblərin ən çirkini və İblisin zinətidir.”[4]

3. İmam Baqir (ə) buyurmuşdur: “Qəlbinə təkəbbür

---

*1. “Əraf” surəsi, ayə 76.*

*2.. “Hud” surəsi, ayə 7.*

*3.. “Mizanul-hikmət”, bölmə: 3376, hədis: 17323.*

*4.. “Mizanul-hikmət”, bölmə: 3376, hədis: 17328.*

girən elə bir kəs yoxdur ki, (istər az, istərsə də çox) ağlından bir o qədər azalmasın."[1]

Müasir dövrümüzdə, hətta ölkə başçılarının belə təkəbbürləri ucbatından rəftarlarında müşahidə olunan gülünc hallar az deyil.

### *TƏKƏBBÜRÜN NƏTİCƏLƏRİ*

Təvazökarlıqla təkəbbür bir-birinə qarşı durduğu kimi, nəticə etibarilə də fərqlənir:

**Allahdan uzaqlıq:** Təkəbbür və qürur heç vaxt Allaha və haqqa təslim olmağa icazə vermir. Qurani-Kərim bizə Musa peyğəmbərlə Fironun əhvalatlarından gözəl nümunələr çəkir:

ثُمَّ بَعَثْنَا مِن بَعْدِهِم مُّوسَى وَهَارُونَ إِلَى فِرْعَوْنَ وَمَلَئِهِ بِآيَاتِنَا فَاسْتَكْبَرُواْ وَكَانُواْ قَوْمًا مُّجْرِمِينَ

*"Sonra biz Musa və Harunu öz ayələrimiz (və doqquz dəlilimiz) ilə Fironun və qövm başçılarının yanına göndərdik. Amma onlar təkəbbürlük etdilər (haqqı qəbul etmədilər). Onlar günahkar bir dəstə idi."*[2]

Bu ayəyə əsasən, Firon və tərəfdarlarının Musaya (ə) qarşı çıxmalarına təkəbbür bais olub. Təkəbbür və qürur isə insanı inadkarlığa vadar edir. Allah-Taala bunu "Əraf" surəsinin 132-136-cı ayələrində belə buyurur:

وَقَالُواْ مَهْمَا تَأْتِنَا بِهِ مِن آيَةٍ لِّتَسْحَرَنَا بِهَا فَمَا نَحْنُ لَكَ بِمُؤْمِنِينَ

***"Onlar (Fironun qövmü) dedilər: "(Ey Musa,) bizi sehrləmək üçün hər nə nişanə və möcüzə gətirsən də, əsla iman gətirən deyilik."***

---

1.. *"Mizanul-hikmət", bölmə: 3376, hədis: 17341.*

2. *"Yunus" surəsi, ayə 75.*

Qurani-Kərimə əsasən, həzrət Musa (ə) onları doğru yola yönəltməkdən ümidini üzmədi, ayrı-ayrı nişanə, aydın dəlil və möcüzələrdən sonra qəflət yuxusundan ayılmaları, inadkarlıqlarından əl çəkmələri üçün Allahdan bəla göndərməsini istədi. Onların başına gələn bəlalardan beşini qeyd edirik:

فَأَرْسَلْنَا عَلَيْهِمُ الطُّوفَانَ وَالْجَرَادَ وَالْقُمَّلَ وَالضَّفَادِعَ وَالدَّمَ آيَاتٍ مُّفَصَّلاَتٍ فَاسْتَكْبَرُواْ وَكَانُواْ قَوْمًا مُّجْرِمِينَ

***"Beləliklə, Biz ayrı-ayrı nişanələr şəklində onlara tufan, çəyirtkə, gənə, qurbağalar və qan göndərdik. Onlar yenə də təkəbbür və itaətsizlik göstərdilər. Onlar günahkar bir dəstə idi."***

1. فَأَرْسَلْنَا عَلَيْهِمُ الطُّوفَانَ – Bu ayədə buyurulduğu kimi, Fironun qövmünün mübtəla olduğu ilk bəla "tufan" idi. Tufan dilimizdə şiddətli küləyə, ərəb dilində isə şiddətli təlatüm və fırtınaya deyilir. Nuh peyğəmbərin əhvalatında da şiddətli külək yox, fırtına nəzərdə tutulur. Allahın əmri ilə rəhmət və bərəkət sayılan yağış bəzən fəlakətə çevrilir. Hər halda, tufan və şiddətli fırtınalar Firon qövmünə həyatı daraltdı. Onlar bunun səmavi bəla olduğunu anlatdıqdan sonra həzrət Musanın (ə) hüzuruna gəlib, onun aradan qalxmasını istəyərək Allaha iman gətirəcəklərinə söz verdilər. Həzrət Musanın (ə) duası ilə bəla aradan qalxdı və camaat adi yaşayışına qayıtdı. Firon və tərəfdarları əhd-peymanlarını pozaraq iman gətirmədilər. Nəhayət, yeni bəla nazil oldu.

2. وَالْجَرَادَ – Allahın əmri ilə o məntəqədə qeyri-adi şəkildə çəyirtkə artmağa başladı. Milyonlarla çəyirtkə böyük bir ordu kimi, tez bir zamanda əkin sahələri və yaşıllıqları məhv etdi. Onlar bütün təkəbbür və qürurları

ilə Rəbbin müti əsgərləri olan kiçik həşəratlar müqabilində aciz olduqlarını gördükdə, Allahın peyğəmbərinin hüzuruna gedib, bəlanın aradan qalxdığı təqdirdə iman gətirəcəklərini söz verdilər. İnsanların hidayətindən başqa məqsədi olmayan həzrət Musa (ə) onların haqqı qəbul etməyə meyilli olduqlarını gördükdə, dua etdi və bəla aradan qalxdı. Onlar isə yenə iman gətirmədi və təkəbbür və qürurdan əl çəkmədilər!

3. وَٱلْقُمَّلَ – Üçüncü dəfə Allah-Taala o inandkar qövmün canına "qümməl" i saldı. Məlum nəzərə əsasən, "qümməl" gənə növündəndir. Lakin bəzi lüğət kitablarında əkin məhsullarına düşən və onları məhv edən kiçik həşərata deyilir. Bu məna o zamanla daha münasibdir. Çünki onların dolanışığı daha çox əkinçiliklə təmin olunurdu. Onlar yenidən bu bəla ilə iqtisadi böhrana düşdülər. Bu dəfə də iman vədələri və həzrət Musanın (ə) duasından sonra əhd-peymanın pozulması təkrarlandı.

4. وَالضَّفَادِعَ – Firon qövmü yenidən ilahi bəlaya düçar oldu. Bu zaman adi vaxtlarda insana zərərsiz olan heyvanlar ilahi əzabın məmuru oldular. Allahın əmri ilə sürətlə qurbağalar törəməyə başladı. Xalq qurbağa sürüsünün qəfil hücumları ilə üzləşdi. Qısa müddət ərzində qurbağalar onların yaşayış mühitlərini işğal etdi; evləri, mətbəxləri, yemək və su qabları bütünlüklə qurbağaların məskəninə çevrildi. Fironun qövmü zahirdə zərərsiz və sakit görünən heyvanlar müqabilində aciz qaldıqda, yenə bəlanın aradan qalxması istəyi və iman vədəsi, həzrət Musanın (ə) duası, bəlanın aradan qalxması və onların vədələrinə xilaf çıxması təkrarlandı.

5. وَالدَّمَ – Allah-Taala onları beşinci bəlaya düçar etdi və insan həyatında ən mühüm rol oynayan qan vasitəsilə

cəzalandırdı. Təfsirçilər arasında onların qan bəlası ilə necə cəzalandırılmaları haqda fikir ayrılığı vardır. Bəzi alimlərə görə, o zaman bütün camaatın burnundan qan gəlməyə başladı. Hamı əlinə dəsmal alıb burnunun qanını təmizləməklə məşğul idi. Bəziləri də deyirlər ki, Nil çayı qana döndü; nə içməli, nə bağları və əkin sahələrini suvarmalı, nə də bir şeyi təmizləməli (yararlı) su qalmadı! Bu qəribə bəla, sözsüz, həyatı onlara dözülməz etdi və qara günə çevirdi.

Onlar beşinci dəfə də həzrət Musaya (ə) yalvarıb-yaxardılar və o həzrət yenə iman gətirəcəklərinə ümid bəsləyib dua etdi və bəla aradan qalxdı. Lakin onlar adi həyat tərzinə qayıtdıqda, yenə iman gətirmədilər və nəhayət, Nildə qərq oldular. Onların əhvalatı təkəbbür, inadkarlıq və lovğalığın acınacaqlı aqibətinə dair bir nümunədir.

**Əqli qüsur:** Sağlam bilik və təhsildə təvazökarlıq şərtdir. Təvazökar insan heç vaxt haqq sözü şəxslərə görə qiymətləndirmir. Təkəbbürlü insan isə heç vaxt özündən aşağı sandıqlarının sözünə əhəmiyyət vermir. Odur ki, onların arasında nadanlara daha çox rast gəlinir. İmam Kazim (ə) gözəl bir hədisdə bu məsələni belə açıqlayır: "Toxum daş-kəsəkdə yox, yumşaq torpaqda bitər. Elm və hikmət də təvazökar qəlblərə hopar. Allah təvazökarlıqla ağıl bəxş edir, təkəbbürlə də nadanlığa yol açır."[1]

**Nifrət hissi:** Hər yerdə təkəbbürlü kəslərə nifrət, təvazökarlara isə məhəbbət bəslənilir. İnsanlar təvazökar şəxsləri sevdikləri qədər təkəbbürlü kəslərə nifrət hissi ilə yanaşırlar. Bir sözlə, xislətində təkəbbürün lovğalıq, xudbinlik, xudpəsəndlik, qürrələnmək, özünü öymək

---

*1.. "Biharul-ənvar", 1-ci cild, səh.153.*

kimi hansı bir növünə aludə olan kəs axırda tək-tənha qalacaq. Odur ki, imam Əli (ə) buyurur: "Təkəbbürlü insanın dostu olmaz."[1]

**Günahların mənşəyi:** Bəzən günahlar da çoxşaxəli olur. Yalan,[2] dünyaya bağlılıq[3] və şərabxorluq[4] kimi, təkəbbür də onlardan istisna deyil və bir çox günahların mənşəyi sayılır.[5] Məsələn, nalayiq danışmaq, ədəbsizlik, riyakarlıq, paxıllıq, qeybət və eyib axtarmağa təkəbbürlü və lovğa adamlarda daha çox rast gəlinir. Amma təvazökar insanlar isə nalayiq sözlər deməz, riyakar olmaz, başqalarının eybini arayıb-axtarmaz, qeybətini qılmaz.

### *TƏKƏBBÜRÜN MÜALİCƏ ÜSULLARI*

1. Varlıq aləmində insanın yeri: İnsan məxluqatın bir üzvü kimi yaradılış aləminin əzəmət və böyüklüyünü, özünün isə kiçikliyini anaraq hansı mövqedə olduğunu düşünməlidir. İmam Əli (ə) insanın zəifliyi və acizliyi barədə belə buyurmuşdur: *"Yazıq və aciz Adəm övladı!*

---

*1.. "Mizanul-hikmət", bölmə: 3386, hədis: 17405.*

*2.. Bu haqda hədislər çoxdur. Məsələn, imam Həsən Əskəri (ə) buyurur: "(Bütün) günahlar bir evə yığılsa, açarı yalandır." ("Mizanul-hikmət", bölmə: 3403, hədis: 17528.)*

*3.. İmam Səccad (ə) Allaha mərifətdən sonra düyaya bağlanmamağı ən yaxşı əməl tanıtdıraraq, dəlilini belə açıqlayır: "(Çünki) dünya sevgisi müxtəlif bağlılıqlara səbəb olur: qadın, mal-dövlət, məqam və vəzifə, rahatlıq, şan-şöhrət və s. Peyğəmbərlər və alimlər bunları nəzərə alıb demişlər: "Dünya sevgisi hər bir günahın qaynağıdır." ("Mizanul-hikmət", bölmə: 1229, hədis: 6039.)*

*4.. Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur: "Şərab çirkinliklərin köküdür." ("Mizanul-hikmət", bölmə: 1133, hədis: 5362.)*

*5.. "İmam Əli (ə) buyurmuşdur: "Təkəbbür insanı günahlara çəkən bir vasitədir." ("Mizanul-hikmət", bölmə: 3368, hədis: 17406.)*

*Əcəli gizli (nə vaxt öləcəyini bilmir), xəstəlik və dərdləri naməlum (başına gələcək hadisə və xəstəliklərdən xəbərsizdir), nə etsə saxlanılır (əməl dəftərində yazılır), ağcaqanad onu incidir, su və ya bir tikə yemək boğazında qaldıqda ölür və təri bədənini iyləndirir."*[1]

Bəz, insan hansı birinə görə lovğalıq və məğrurluq edir?!

Qurani-Kərimin "Yasin" surəsinin 68-ci ayəsində belə buyurulur:

وَمَنْ نُعَمِّرْهُ نُنَكِّسْهُ فِي الْخَلْقِ أَفَلَا يَعْقِلُونَ

***"Kimə də uzun ömür versək, onu xilqətcə dəyişib tərsinə çevirərik (ömrü azaldıqca qüvvələrini də itirər). Bəs, onlar düşünmürlərmi?!"***

İnsanda güc, qüvvə, inkişaf, sevinc, sağlamlıq, səbir və hövsələ həmişəlik deyil! Orta yaşdan sonra böyük dəyişikliklər aşkar olmağa başlayır və elə bir yerə çatır ki, insan südəmər körpə kimi, hər şeydə başqalarına möhtac olur; güc, qüvvə və sağlamlığını itirir, yemək yeyə bilmir, özünü təmizləyə bilmir, hətta ağız suyunu belə saxlaya bilmir!

Görəsən, təkəbbürlü insan bu günləri haqda düşünürmü? Görəsən, beli bükülən qocanın bir neçə addım yeriməklə təngnəfəs olduğunu gördükdə, onun da bu günə düşəcəyini fikirləşirmi?

Mən idman üzrə bir qəhrəmanı xatırlayıram ki, cavanlıq çağlarında lovğalığından sanki yer ayağı altında titrəyirdi. Amma qoca vaxt onu əlil arabasında bir uşaq sürürdü!

**2. Təkəbbürün nəticəsi:** Adətən, hər hansı pis adət,

1.. *"Nəhcül-bəlağə", qısa kəlamlar 419.*

rəftar və xislətin tərki ilə bağlı tövsiyələrdə onların mənfi təsirləri diqqət mərkəzinə çəkilir. Məsələn, siqaretin zərərli təsirləri barədə mütəxəssislər belə deyirlər: "Bir ədəd siqaretin iki minə yaxın zəhəri var. Siqaret yüz iyirmi üç xəstəliyin mənşəyidir."[1]

Mənəvi xəstəliklər də eynilə belədir. Məsələn, təkəbbürün təsirləri haqda düşünən şəxs bilməlidir ki, belə xislət cəmiyyətdə nifrətlə qarşılanır, onun sahibi Allah dərgahından qovulur və nəhayət, küfrə yönəlir.

**3. Ardıcıl məşq:** Məşq idman növlərinə məxsus deyil və ruhi məşqlər də insanı ruhən gücləndirir, təravətləndirir. Xəstəliyini başa düşən və onu müalicə etmək istəyən təkəbbürlü insan təvazökarlığı qazanmaq üçün məşq etməlidir. Əvvəl təvazökarlıq halı formalaşana qədər bunu davam etdirməli, sonra onu "adət", daha sonra "səciyyə"yə çevirməlidir. Hədislərdə bu haqda maraqlı tövsiyələr vardır. İmam Əli (ə) bir hədisdə[2] təvazökarlığın bir neçə əlamətini belə qeyd edir:

1. **أَن يَبدَأَ بِالسَّلامِ مَن لَقِيَهُ** – *"İnsan qarşılaşdığı hər kəsə salam versin."* Təvazökarlığın ilk əlaməti başqalarına salam verməkdir. Nə yaxşı olar ki, insan rastlaşdığı kəslərə salam versin: dükana daxil olduqda, satıcıya, küçədən keçəndə əylənən uşaqlara, məscidə daxil olduqda namazqılanlara, idarəyə getdikdə həmkarlarına, evə gələndə həyat yoldaşı və övladlarına salam versin... Salam təvazökarlıq və böyüklük nişanəsidir. Salam insandan bir şey azaltmır, əksinə onun ədəb, şərəf və vüqarını artırır. İslam Peyğəmbəri (s) buyurur: "Ən paxıl

---

*1.. Siqaretin zərərlərinə dair kitablardan "Siqaret – tədrici intihar"ı və "Siqaret əsrimizin öldürücü fenomeni"ni misal göstərmək olar.*

*2.. "Mizanul-hikmət", bölmə: 2034, hədis: 21837.*

insan salama xəsislik edəndir (salam verməyəndir)."[1]

2. وَ يَرْضى بِالدّون مِنْ شَرَف الْمَجْلِس – *"Məclisin aşağı başında əyləşməyə razı olsun."* Təvazökarlığın ikinci əlaməti odur ki, insan məclisə daxil olduqda, hər hansı boş yeri seçsin və başda əyləşmək üçün başqalarının yerini daraldaraq, onları zəhmətə salmasın!

Şəxsiyyətində çatışmazlıq hiss edənlər başqalarının onlara salam verməyini və yaxud məclisin başında əyləşməyi istəyirlər. Alicənab insanlar belə çatışmazlığı duymadıqlarından bu sayaq zahiri işlərə əhəmiyyət vermirlər.

Aydındır ki, bu əməllər – salam vermək və məclisin girəcəyində əyləşmək – bir-iki dəfə ilə insanın səciyyəsinə çevrilmir və daimən təkrara ehtiyac vardır.

3. وَ يَكْرَه الرياءَ وَ السُمْعَة – *"Riyakarlıq və şöhrəti bəyənməsin."* Təvazökarlığın üçüncü əlaməti riyakarlıq və şöhrətdən çəkinməkdir. Onların arasındakı fərq belədir ki, riya əməl zamanı, şöhrət isə əməldən sonra baş verir. Məsələn, biri işini başqalarına göstərmək üçün yerinə yetirir, digəri isə yaxşı əməllərinin danışılmasından xoşu gəlmir.

Təvazökar insan riya və şöhrətdən uzaqdır. Təvazökarlığın hər üç əlaməti məşqsiz səciyyəyə çevrilə bilməz. Biz bunları məsum rəhbərlərin ardıcıllarına təlim verdiyi rəftarlarında tamamilə müşahidə edirik.

### *İMAM ƏLİNİN (Ə) TƏVAZÖKARLIĞINDAN BİR NÜMUNƏ*

Şiə və əhli-sünnə kitablarında[2] imam Əlinin (ə)

---

*1.. "Biharul-ənvar", 73-cü cild, səh.4 və 12; 90-cı cild, səh.291, 294 və 302.*

*2.. "Ehqaqul-həqq", 6-cı cild, səh.24-38.*

fəziləti haqda "xasifun-nəl"[1] adı ilə tanınan bir hədisi burada qısa şəkildə qeyd edirik:

"Bir gün müsəlmanlar Peyğəmbəri-Əkrəmlə (s) birlikdə Allahın evi Kəbəni ziyarət etmək məqsədilə Məkkəyə doğru hərəkət edirlər. Məkkəlilər isə "Hüdeybiyyə" məntəqəsində onların qarşısını alıb Məkkəyə daxil olmalarına mane olurlar. Peyğəmbəri-Əkrəm (s) müşriklərin nümayəndəsi ilə görüşüb müzakirə apardıqdan sonra sülh müqaviləsi bağlayır. O zaman Peyğəmbər (s) müşriklərə xəbərdarlıq edir ki, bundan sonra inadkarlıq göstərsələr, onların üzərinə amanlarını kəsən şəxsi göndərəcəkdir. Bu sözdən sonra səhabələr bir-birinə baxır və baxışları ilə onun kim olduğunu bilmək istəyirlər. Bir nəfər "Ey Allahın Rəsulu, məqsədiniz kimdir?" – deyə soruşduqda, Həzrət buyurur: "Xasifun-nəl"dir (ayaqqabı yamayan şəxsdir)." Bu sözlə onların təəccübü bir az da artsa da, çox çəkmir ki, imam Əlinin (ə) bir guşəyə çəkilib Peyğəmbəri-Əkrəmin (s) ayaqqabısını yamadığını görürlər!"[2]

Bu hədis Peyğəmbəri-Əkrəmin (s) nəzərində imam Əlinin (ə) şücaət və xüsusi mövqeyini göstərdiyi kimi, onun (Peyğəmbəri-Əkrəmin (s) ayaqqabısını tikməklə) və Peyğəmbəri-Əkrəmin (s) yamaqlı ayaqqabı geyinməklə təvazökarlığını aşılayır.

Məsum rəhbərlərin təvazökarlıqlarına dair nümunələr olduqca çoxdur. Buna onların gecə vaxtı öz çiyinlərində yoxsulların evinə azuqə daşımalarını misal göstərmək olar.

Çox vaxt imam Əli (ə) özü gecə yarısı çörək kisəsini

---

*1.. Ayaqqabı yamayan şəxs.*

*2.. "Biharul-ənvar", 20-ci cild, səh.345 və 364.*

çiyninə atıb, (hətta xidmətçisindən kömək istəmədən) onu bir-bir Kufənin yoxsullarına paylayardı.[1] İmam Səccad (ə) da belə idi və vəfatı zamanı kisələrin izi belində aşkar görünürdü. Səhabələr o həzrətin oğlu imam Baqirdən "Bu yara izləri Kərbəla faciəsindən qırx il sonra hələ də sağalmayıbmı?" – deyə soruşduqda, belə cavab verir: "Xeyr, bunlar gecə ikən yoxsul və yetimlər üçün daşıdığı kisələrin izləridir."[2]

Bu rəvayət imam Sadiqin (ə) həyatında da görünür. Səhabələri o həzrətdən bu işi onlara tapşırmağını istədikdə, buyurardı: *"Siz mənimlə gələ bilərsiniz, amma kisəni özüm götürəcəyəm..."*[3]

İmam Rza (ə) da vəliəhdliyə seçildiyi zamandan bütün xidmətçilər süfrə başında əyləşməyincə, yeməyə əl uzatmazdı.[4] Bütün bunlar onların təvazökarlıqları və xalis əməllərindən qaynaqlanır və ardıcılları üçün əbədi örnəkdir.

### *TƏKƏBBÜRÜN İCTİMAİ FORMASI*

Sonda qeyd edirik ki, təkəbbür və təvazökarlıq ictimai hal da ola bilir. Qövmlər, xalqlar və ölkələrdə baş qaldıran təkəbbür hissləri daha qorxuludur. Məsələn, həzrət Nuhun (ə) qövmü bu çirkin xislətə mübtəla olduqlarından kiçik bir qrupu Allaha iman gətirməklə qalanları tufan vasitəsilə məhv olur. Bu xəstəlik bizim zamanımızda da müşahidə olunur. Məsələn, birinci və ikinci dünya müharibəsinin amillərindən biri almanların

---

*1.. "Mülhəqati Ehqaqul-həqq", 8-ci cild, səh.580.*

*2.. "Müntəhəl-amal", 2-ci cild, səh.5, "İmam Səccadın (ə) həyatı".*

*3.. "Müntəhəl-amal", 2-ci cild, səh.85, "İmam Sadiqin (ə) həyatı".*

*4.. "Müntəhəl-amal", 2-ci cild, səh.176, "İmam Rzanın (ə) həyatı".*

qürur və təkəbbürləri imiş. Onlara təlqin edilir ki, siz bütün irq və millətlərdən üstünsünüz və mütləq dünyaya hakim olmalısınız. Bu çirkin təlqin və təkəbbür hissi bütün dünyada müharibə odunu qaladı.

İndinin özündə də bütün dünyaya hökmranlıq etmək istəyənlər son zamanlar Təhlükəsizlik Şurası və Birləşmiş Millətlər Təşkilatının qərar və qətnamələrinə qətiyyən əhəmiyyət vermir və deyirlər: "BMT hansı qərarı çıxarırsa çıxarsın, bizim mənafeyimiz təmin olunmalıdır. Yalnız bizim mövqeyimiz dünyada kimin və hansı təşkilatın terrorist olub-olmadığını ayırd edir..."

İlahi, bizi təkəbbürün şərindən uzaq et ki, biz yalnız Sənə pənah gətiririk!

# 2

## MÜLAYİM RƏFTAR

Rəhman Allahın həqiqi bəndələrinin xüsusi səciyyələrindən biri də camaatla mülayim və gözəl rəftardır. Allah-Taala "Furqan" surəsinin 63-cü ayəsində buyurur:

وَإِذَا خَاطَبَهُمُ الْجَاهِلُونَ قَالُوا سَلَامًا

***"(Rəhman Allahın həqiqi bəndələri) nadanlar (xoşagəlməz sözlərlə) onlara xitab edən zaman "salam" (xoş və yumşaq söz) deyən kəslərdir."***

İnsanlar bir baxışla dörd qrupa bölünür:

1. Haqsevənlər; daim haqqı müdafiə edib, ona riayət edənlərdir.

2. "Qasir nadanlar"; lazımı qədər zəruri sayılan moizə və nəsihətdən məhrum qalanlara deyilir.

3. "Müqəssir nadanlar", lazımı qədər zəruri sayılan moizə və nəsihət almağa imkanı olub, qulaqardına vuranlara deyilir.

4. İnadkarlar və haqqa qarşı çıxanlar.

**Sual:** Bu dörd qrup bərabərdirmi və onların hamısına eyni baxmalıyıqmı?

**Cavab:** Tarixi faktlara, ayə və rəvayətlərə əsasən, peyğəmbərlər, imamlar və ilahi övliyaların həmin qruplarla rəftarı eyni olmamışdır. Burada birinci qrupun hökmü aydın və bəhsimizdən kənardır. İkinci qrupu bir sıra düzgün, davamlı və uzunmüddətli proqramlarla

maarifləndirmək, mövcud imkanlarla nadanlıqdan çıxarıb işıqlığa doğru hidayət etmək lazımdır. Üçüncü qrupda da hərəkət, təlaş və araşdırma stimulu yaratmaq, onları dini məsələlərlə tanış etmək lazımdır. Yəni ikinci və üçüncü qrupun üzərində çalışmaq lazımdır. Hətta dördüncü qrupla da mümkün qədər yumşaq və mülayim davranmalı, haqq sözü qulaqlarına yetirənə qədər onlara möhlət verilməlidir. Amma onların islah və hidayətinə, nadanlıqdan nicat tapmağına ümid yeri qalmadıqda, növbə sərt rəftara çatır.

Demək, hər bir qrupla rəftarda ilk şərt məhəbbət, güzəşt və təmkindir. Nadan insanla ilk görüşdə əsəbiləşmək, özündən çıxıb fəryad etmək, sərt davranmaq olmaz. Çünki peyğəmbərlərin metodu belə olmayıb, onlar nadanların ədəbsizlikləri müqabilində məhəbbətlə rəftar etmişlər.

### *MÜLAYİM RƏFTARA TOXUNAN AYƏLƏR*

Öncə qeyd etdiyimiz ayədən başqa uyğun məsələ ilə bağlı iki ayə də vardır:

***1. "Əraf" surəsi, 199-cu ayə:***

خُذِ الْعَفْوَ وَأْمُرْ بِالْعُرْفِ وَأَعْرِضْ عَنِ الْجَاهِلِينَ

***"Əfv və güzəşt yolunu tut, yaxşı işlər görməyi əmr et və nadanlardan üz döndər (onlarla döyüşə başlama)."***

Burada neçə mətləb diqqəti özünə cəlb edir:

a) Bu ayədə birbaşa Peyğəmbəri-Əkrəmin (s) özünə tapşırıq verilir. Yəni əfv, güzəşt və başqalarının xətalarının bağışlamaq məsələsinə ilk növbədə rəhbərlər riayət etməlidirlər ki, cəmiyyət də onları örnək bilsin.

b) İmkan olduğu surətdə insan malının artıq qalanını Allah yolunda möhtaclara infaq etməli, hər zaman

orta həddi gözləməli (ifrat və təfritdən uzaq olmalı), başqalarının üzrünü qəbul etməyi bacarmalı və hər işdə çətinlik yaratmamalıdır!

c) Nadanların nalayiq sözləri, töhmət və ya yersiz mübahisələrinə tez reaksiya verməməli, onların kənarından alicənablıqla ötmək lazımdır. Ərəb şairi demişkən:

وَلَقَدْ مَرَرْتُ عَلى اللَّئِيمِ يَسُبُّنِى

فَمَضَيْتُ ثَمَّةَ قُلْتُ لَايَعْنِينِى

*"Nadan bir şəxslə rastlaşarkən mənə nalayiq sözlər dedikdə, kənarından alicənablıqla keçərək, öz-özümə dedim ki, məqsədi mən deyildim."*

ç) İmam Sadiqdən (ə) "Qurani-Kərimdə əxlaqa dair ən əhatəli ayə hansıdır?" – deyə soruşduqda, "Əraf" surəsinin 199-cu ayəsini göstərir. Çünki bu ayədəki iffət, hikmət və şücaət məsələləri əxlaqın üçlük üsulunu təşkil edir.

***2. "Furqan" surəsi, 72-ci ayə:***

وَإِذَا مَرُّوا بِاللَّغْوِ مَرُّوا كِرَامًا

*"(Onlar) bihudə və boş şeylərin yanından etinasız və alicənablıqla keçirlər."*

Rəhman Allahın bəndələri hər hansı bihudə söz-söhbət və işlərdən tamamilə uzaqdırlar və belə hallarla üzləşdikdə də, kənarından alicənablıqla keçirlər.

Bir sözlə, rəhman Allahın həqiqi bəndələrinin səciyyələrindən biri də nadan insanlarla hövsələ və təmkinlə davranmalarıdır. Onlar nadanların hər sözünə əsəbiləşmir və mümkün qədər qarşı tərəflə mülayim

rəftar edirlər.

### *MƏSUMLARIN KƏLAMLARINDA MÜLAYİM RƏFTAR*

1. Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur: *"İnsanların ən ağıllısı camaatla ən yaxşı rəftar edənidir."*[1]

Bu müasir dövrümüzdə belə insanlar sadə bir sözə, yaxud kiçik bir hadisəyə görə tez narahat olur, dərhal əsəbiləşir, necə deyərlər, özlərindən çıxır və başqaları ilə təmkinlə davrana bilmirlər. İslam göstəriş verir ki, ağıllı müsəlman camaatla gözəl davranmalıdır. Rəftarın yaxşısı ağılın üstünlüyünə dəlalət edir.

2. Başqa bir hədisdə buyurmuşdur: *"Biz peyğəmbərlər vacibləri yerinə yetirməyə məmur olunduğumuz kimi, insanlarla yaxşı rəftar etməyə də məmur olunmuşuq."*[2]

"Yaxşı rəftar"ın "vacib əməllər"lə yanaşı qeyd edilməsi böyük əhəmiyyət kəsb edir. Çünki peyğəmbərlər, imamlar, alimlər, tərbiyəçilər, müəllimlər, bir sözlə, təlim-tərbiyə sahəsində fəaliyyət göstərənlər yaxşı rəftarsız vəzifələrini layiqincə yerinə yetirə bilməzlər.

3. O həzrət daha başqa bir hədisdə buyurmuşdur: "Camaatla gözəl rəftar imanın yarısıdır."[3]

İman yalnız namaz, oruc, həcc, zəkat və bu kimi əməllərlə yekunlaşmır və xoşəxlaqlı olmaq və camaatla mehriban davranmaq da ondan ayrı deyil.

Təəssüflər olsun ki, bəzən vacib əməllərini vaxtlı-vaxtında yerinə yetirənlərin arasında hövsələsizlərinə, camaatla birgə keçinə bilməyənlərinə, kiçik bir hadisə ilə tez narahat olub əsəbiləşən, özlərindən çıxanlara rast

*1.. "Təfsiri-nümunə", 7-ci cild, səh.64.*

*2.. "Səfinətül-bihar", 3-cü cild, səh.30.*

*3.. "Səfinətül-bihar", 3-cü cild, səh.31.*

gəlinir. Bilməliyik ki, əksər qalmaqallar və çəkişmələr xoşəxlaqlılıq və mehriban rəftarın tərki nəticəsində baş verir. Hədislərin birində belə deyilir: "(Bəzən) müharibələrin mənşəyi bir şillədir."[1]

Bəzən, əsəbi halda biri başqasına bir şillə vurduqda, qarşı tərəf özündən çıxaraq ikisini qaytarır və beləcə, ixtilaf yaranır, qısa müddət ərzində iki tayfa arasında münaqişə baş qaldırır. Halbuki elə əvvəldən azacıq mülayimliklə, qəzəbi udmaqla və məsələnin üstündən alicənablıqla keçməklə dava-dalaşdan uzaq qalmaq olardı!

### *HƏZRƏT NUH (Ə) VƏ HƏZRƏT YUNUSUN (Ə) YAXŞI RƏFTARI*

Həzrət Nuhla (ə) həzrət Yunus (ə) bizə peyğəmbərlərin sırasında xoşəxlaqları və yaxşı rəftarları ilə tanınırlar.

Həzrət Yunus (ə)[2] qövmü arasında qırx il tövhid və allahpərəstliyi təbliğ etdikdən, dözülməz əziyyətlərə məruz qaldıqdan sonra, yalnız iki nəfər ona iman gətirir.[3] Doğrusu, o həzrət hər iyirmi ildə cəmi bir nəfəri allahpərəst edə bilir!

Həzrət Nuh (ə) da xalqı 950 il[4] tövhid və allahpərəstliyə çağırdıqdan və böyük əzab-əziyyətlərə sinə gərdikdən sonra cəmi yüzə yaxın adam ona qoşulur. Bəzi

---

*1.. "Biharul-ənvar", 93-cü cild, səh.291.*

*2.. "Yunus" və "Saffat" surələrində həzrət Yunusun (ə) əhvalatından söz açılır.*

*3.. "Təfsiri-nümunə", 19-cu cild, səh.153.*

*4.. "Allah-Taala "Ənkəbut" surəsinin 14-cü ayəsində belə buyurur:* ***"Həqiqətən, Biz Nuhu öz qövmünə (peyğəmbər) göndərdik və beləliklə, onların arasında doqquz yüz əlli il qaldı..."***

rəvayətlərdə səksən dörd nəfərin[1] ona iman gətirdiyi qeyd edilir! Yəni o həzrət hər on iki ildə bir nəfəri hidayət edə bilmir.

### *HƏMİN PEYĞƏMBƏRLƏRİN AQİBƏTİ NƏ OLDU?*

Qövmü ilə olduqca təmkinli, səbirli və mehriban davranan həzrət Nuh (ə) bir dəfə Rəbbinə üz tutaraq dedi:

رَبِّ إِنِّي دَعَوْتُ قَوْمِي لَيْلًا وَنَهَارًا. فَلَمْ يَزِدْهُمْ دُعَائِي إِلَّا فِرَارًا. وَإِنِّي
كُلَّمَا دَعَوْتُهُمْ لِتَغْفِرَ لَهُمْ جَعَلُوا أَصَابِعَهُمْ فِي آذَانِهِمْ وَاسْتَغْشَوْا ثِيَابَهُمْ وَأَصَرُّوا
وَاسْتَكْبَرُوا اسْتِكْبَارًا. ثُمَّ إِنِّي دَعَوْتُهُمْ جِهَارًا. ثُمَّ إِنِّي أَعْلَنتُ لَهُمْ وَأَسْرَرْتُ
لَهُمْ إِسْرَارًا

***"Ey Rəbbim, mən öz qövmümü gecə-gündüz (haqqa) dəvət etdim, lakin mənim dəvətim onlar üçün (haqdan) qaçmaqdan savayı bir şey artırmadı. Mən Sənin onları bağışlamağın üçün nə vaxt dəvət etdimsə, barmaqlarını qulaqlarına tıxadılar, libaslarını başlarına çəkdilər, (etiraz edərək inadkarlıqdan) əl çəkmədilər və şiddətlə təkəbbür göstərdilər. Yenə də mən onları uca səslə və aşkar şəkildə dəvət etdim. Daha sonra onlara dəvəti (gah) aşkar, (gah da) gizli bildirdim."[2]***

O həzrətdəki dözüm və təmkin doğrudan da vəsfedilməzdir. Nəhayət, 950 ildən sonra Allah-Taala ona belə buyurur:

---

*1.. "Təfsiri-nümunə", 9-cu cild, səh.99. Bəzi rəvayətlərdə peyğəmbərlərin şeyxi sayılan həzrət Nuha (ə) iman gətirənlərin sayı səksən nəfər göstərilir. ("Nurus-səqəleyn", 2-ci cild, səh.357.)*

*2.. "Nuh" surəsi, ayə 5-9.*

لَن يُؤْمِنَ مِن قَوْمِكَ إِلاَّ مَن قَدْ آمَنَ فَلاَ تَبْتَئِسْ بِمَا كَانُواْ يَفْعَلُونَ

***"Qövmündən (indiyədək) sənə iman gətirənlərdən başqa bir kəs iman gətirməyəcək. Daha onların etdiklərindən kədərlənmə."*[1]**

Həzrət Nuh (ə) qövmünün daha doğru yola yönəlməsindən ümidini üzdükdə, onlara qarğış edir. Onun qarğışı intiqam yox, iman gətirənlərə təskinlik vermək üçün idi. O, Allaha dedi:

رَّبِّ لَا تَذَرْ عَلَى الْأَرْضِ مِنَ الْكَافِرِينَ دَيَّارًا. إِنَّكَ إِن تَذَرْهُمْ يُضِلُّوا عِبَادَكَ وَلَا يَلِدُوا إِلَّا فَاجِرًا كَفَّارًا

***"Ey Rəbbim, yer üzündə bir nəfər belə kafir qoyma! Əgər onları (sağ) buraxsan, onlar Sənin bəndələrini yoldan çıxaracaq, yalnız pozğun və kafir doğub-törədəcəklər."*[2]**

Həzrət Nuha (ə) görə, kafirlər iki xüsusiyyətə malikdir: 1. möminləri haqq yoldan çıxarır; 2. nəsilləri də kafir və imansız olur. Yaxşı olar ki, hamısı məhv olsun! Belələri yaşamağa layiq deyillər.

Həzrət Nuhun (ə) duası qəbul oldu və onlara əzab göndərildi. Bir anda yer-göyü tufan, su bürüdü. Həyat suyu bu dəfə onların həyatına son qoydu və Nuh peyğəmbərlə möminlərin yeganə sığınacaq yeri gəmi oldu.

Həzrət Yunusun (ə) qırx il dəvəti və qövmündən yalnız iki nəfər iman gətirdikdən sonra onlara əzab nazil olacağı vaxt qətiləşdi. Son anlara qədər qövmü içərisində qalıb, onların nicat və hidayəti üçün zəhmət çəkməli olan həzrət Yunus (ə) azacıq tələsdi və oranı tərk edib

---

*1.. "Hud" surəsi, ayə 36.*

*2.. "Nuh" surəsi, ayə 26-27.*

dəryaya üz tutdu. Allah-Taala isə tələsdiyinə görə onu ağır bəlaya düçar etdi. O həzrətin bu işi günah olmasa da, "tərki-övla" sayılırdı.[1] Allah-Taala onun başına gələn bu əhvalatı "Saffat" surəsinin 139-144-cü ayələrində belə yad edir:

وَإِنَّ يُونُسَ لَمِنَ الْمُرْسَلِينَ

***"Əlbəttə, Yunus (da) Bizim peyğəmbərlərimizdən idi."***

إِذْ أَبَقَ إِلَى الْفُلْكِ الْمَشْحُونِ

***"(Yada sal) o zaman(ı) ki, o, (müsafir və yüklə) dolu gəmiyə tərəf qaçdı (və ona mindi)."***

Ayədə qeyd olunan "əbəq" sözü sahibinin əlindən qaçan köləyə deyilir. Yunus peyğəmbər də tələsdiyi və (zahirən) vəd edilmiş vaxtdan bir-iki saat tez məmur olduğu məntəqəni tərk etdiyi üçün Allah-Taala onu sahibindən qaçmış köləyə bənzədir və o həzrətin işindən razı qalmadığını bildirir. Əgər o həzrət azacıq tələsməyib son anlara qədər qövmü içərisində qalsaydı, daha yaxşı olardı. Nəhayət, əzabın nazil olduğu əlamətlər müşahidə edildiyi zaman aralarından müdrik bir adam ilahi əzabın aradan qaldırılması üçün onları kütləvi şəkildə Allahın dərgahında tövbəyə çağırdı. Onun təklifi ilə tövbə və raz-niyaz etməyə başladı və Allah onların tövbəsini qəbul edib əzabı aradan qaldırdı. Beləliklə, Yunus peyğəmbərin qövmünün nicat və hidayəti həmin şəxsin adına yazıldı.

Demək, hər iki peyğəmbər, həm Nuh (ə), həm Yunus

---

*1.. "Tərki-övla" – əməllər arasında ən üstününün tərkinə deyilir. Buna müsəlman qardaşının hacətini həll etmək əvəzində müstəhəb namaz qılanı misal göstərmək olar.*

(ə) gəmiyə minsələr də, biri rəhmət gəmisinə, o birisi isə bəla gəmisinə mindi. Yunus peyğəmbərin mindiyi gəmi hərəkətə başladı. Bəzi rəvayətlərə əsasən, nagahan, böyük bir balıq ağzını açaraq gəminin yolunu kəsdi. Elə bil, yemək istəyirdi. Sərnişinlər dedilər ki, bizim aramızda günahkar var və o, bu balığa yem olmalıdır. Odur ki, püşk atmaq lazımdır. Onlar püşk atdılar və püşk Yunus peyğəmbərin adına çıxdı!

فَسَاهَمَ فَكَانَ مِنْ الْمُدْحَضِينَ

***"Beləliklə, (yaranmış təhlükəyə görə) o, püşk atmada iştirak etdi və məğlublardan oldu."***

Bir rəvayətə əsasən, püşkü üç dəfə təkrar etsələr də, hər üçü Yunus peyğəmbərin adına çıxdı. Sərnişinlər məcbur olub Yunus peyğəmbəri balığa tərəf atdılar.

فَالْتَقَمَهُ الْحُوتُ وَهُوَ مُلِيمٌ

***"O özünü qınadığı halda balıq onu uddu."***

Yunus peyğəmbər balığa yem oldu. Balıq yemini udduqdan sonra gəminin yolunu açdı və onlar öz yollarına davam etdilər.

فَلَوْلَا أَنَّهُ كَانَ مِنْ الْمُسَبِّحِينَ. لَلَبِثَ فِي بَطْنِهِ إِلَى يَوْمِ يُبْعَثُونَ

***"Əgər o, (həm həyatı boyu, həm də balığın qarnında) Allahı pak sifətlərlə mədh edənlərdən olmasaydı, mütləq (insanların qəbirlərdən) qaldırılacaqları günə kimi onun qarnında qalardı."***

Yunus peyğəmbər ilahi cəzaya layiq görülsə də, həmin halda Allahın adı və yadından qafil olmadı. Bəzi rəvayətlərə əsasən, onun zikri ariflər arasında "yunusiyyə" adı ilə tanınan "Qüfeylə" namazının birinci

rükətində, "Həmd" surəsindən sonra deyilən "Ənbiya" surəsinin 87-ci ayəsindən ibarət idi. Allahın zikri və yadı ilə onun cəza müddəti azaldı. Əgər o, zikr edənlərdən olmasaydı, qiyamət gününə qədər bir məhbus kimi balığın qarnında qalacaqdı! Yunus peyğəmbər Allahı zikr etməklə əbədi zindanı müvəqqəti zindana çevirdi. Allah-Taala bir müddətdən sonra onu azad edərək, yeni vəzifəyə məmur etdi.

Göründüyü kimi, Yunus (ə) kimi ilahi bir peyğəmbər tələskənliyi və göndərildiyi məntəqəni vaxtından tez tərk etdiyi üçün ilahi əzaba düçar oldu.[1] Bu əhvalat xalqla yaxşı davranmayan və onlara qarşı öz vəzifələrini layiqincə yerinə yetirməyən rəhbərlərə ibrət dərsidir!

---

*1.. "Peyami-Quran", 7-ci cild, səh.143.*

3

# GECƏ İBADƏTLƏRİ

Rəhman Allahın həqiqi bəndələrinin üçüncü səciyyəsi gecələri ibadət və raz-niyazla keçirməkdir. Gecə namazı İslam mədəniyyətində xüsusi əhəmiyyət daşıyır və bəzi ayə və rəvayətlərdə buna dair tövsiyələr çoxdur. Allah-Taala səmavi kitabının üç ayəsində gecə namazından söz açır və burada həmin ayələrin qısa təfsir və şərhinə toxunulacaq.

***1. "Furqan" surəsi, 64-cü ayə:***

وَالَّذِينَ يَبِيتُونَ لِرَبِّهِمْ سُجَّدًا وَقِيَامًا

***"(Rəhman (olan Allah)ın (həqiqi) bəndələri) o kəslərdir ki, gecəni Rəbbinin qarşısında səcdə və qiyamla (ibadətlə) başa vurarlar."***

Ayədə qeyd olunan "beytutə" sözü yatıb-yatmamağından asılı olmayaraq gecəni sovuşdurmağa deyilir. Ayənin sonrakı sözlərindən məlum olur ki, burada məqsəd gecəni ibadətlə keçirməkdir. Deməki, ilahi bəndələr Allahın razılığını qazanmaq məqsədilə gecənin bir hissəsini yataqlarından qalxıb raz-niyaz və ibadətlə – "səcdə", "qiyam" və "gecə namazı" ilə keçirərlər. İlahi bəndələrin xüsusiyyətlərindən sayılan gecə namazı "təlim-tərbiyə" və Allaha doğru "seyr-süluk" məsələsində böyük əhəmiyyət daşıyır.

***2. "İsra" surəsi, 79-cu ayə:***

وَمِنَ اللَّيْلِ فَتَهَجَّدْ بِهِ نَافِلَةً لَّكَ عَسَى أَن يَبْعَثَكَ رَبُّكَ مَقَامًا مَّحْمُودًا

***"(Ey Peyğəmbər!) Gecənin bir vaxtı oyan və təhəccüd (gecə namazı) qıl. Bu, sənin üçün əlavə bir vəzifədir. Ola bilsin ki, Rəbbin səni tərifl ənmiş bir məqama yüksəltsin."***

"Təhəccüd" sözü "oyaq qalmaq", "nafilə" sözü isə "əlavə iş" mənasını bildirir. Ərəblər hər bir əlavə işə "nafilə" deyirlər və bunu əlavə namaz, oruc və digər əməllər barədə də işlədirlər. Biz isə onu yalnız müstəhəb namazlarla bağlı işlədirik. Bu deyilənlərə əsasən, ayənin mənası belədir: "Ey Peyğəmbər, gecədən bir qədər oyaq qal və gündəlik vacib namazlardan əlavə namaz qıl." Ayənin zahirindən belə başa düşülür ki, vacib olan gündəlik namazlardan əlavə, Peyğəmbəri-Əkrəmə (s) gecə namazı da vacib imiş.

Allah-Taala bu ayənin ikinci hissəsində gecə namazının təsirlərindən söz açaraq buyurur: ***"Ola bilsin, Rəbbin səni (gecə namazı vasitəsilə) "məhmud" məqamına yüksəltsin."***

"Məhmud məqam"ı ilə bağlı Quran təfsirçiləri arasında izahlar çoxdur. Bəzilərinin nəzərinə əsasən, bu, İslam Peyğəmbərinin (s) axirət aləmindəki böyük "şəfaət" məqamına işarədir. Bütün peyğəmbərlər, mürsəllər, imamlar və bəzi əməlisaleh möminlər şəfaət məqamına malik olsalar da, "böyük şəfaət məqamı" yalnız İslam Peyğəmbərinə (s) məxsusdur. Bu təfsirə əsasən, gecə namazı dərin əhəmiyyət kəsb edir və İslam Peyğəmbərinin (s) o böyük məqama yüksəlişində rol oynayır.

**Sual:** Şəfaət məqamı yalnız İslam Peyğəmbərinəmi (s) aiddir?

**Cavab:** Bu məqam gecə ibadətlərinin səmərəsidir.

Əgər İslam Peyğəmbəri (s) ona riayət etməklə böyük şəfaət məqamına yüksəlmişdirsə, biz də dəyərli və səmərəli gecə namazını qılmaqla kiçik şəfaət məqamına nail ola bilərik.

Başqa təfsirçilərin nəzərinə əsasən, "məhmud məqam"ı dedikdə, "qürb" (Allaha yaxınlıq) nəzərdə tutulur. Allah-Taala İslam Peyğəmbərini (s) gecə namazına rəğbətləndirir ki, onun sayəsində "qürb" məqamına nail olsun.

***3. "Səcdə" surəsi, 16-ci ayə:***

تَتَجَافَى جُنُوبُهُمْ عَنِ الْمَضَاجِعِ يَدْعُونَ رَبَّهُمْ خَوْفًا وَطَمَعًا وَمِمَّا رَزَقْنَاهُمْ يُنفِقُونَ

***"(Rəhman Allahın həqiqi bəndələri o kəslərdir ki, gecənin qaranlığında) yataqlarından qalxar, Rəbbini qorxu və ümidlə çağırar və onlara ruzi verdiklərimizdən (elm, məqam və mal-dövlətdən ehtiyacı olanlara) bəxş edərlər."***

Bu ayədə gecə namazından söz açılmasa da, sözsüz, gecə raz-niyazının ən bariz nümunəsi gecə namazıdır. Bir çox rəvayətlərdə[1] bu ayənin gecə namazına aid olduğu bildirilir. Sonrakı ayədə yalnız gecə namazı qılanlara veriləcək misilsiz mükafatlardan söz açılır:

فَلَا تَعْلَمُ نَفْسٌ مَّا أُخْفِيَ لَهُم مِّن قُرَّةِ أَعْيُنٍ جَزَاء بِمَا كَانُوا يَعْمَلُونَ

***"Etdikləri işlərin mükafatı olaraq onlar üçün gözlərə işıq gətirən nələrin gizlədildiyini heç kəs bilməz!"***

Bəzi rəvayətlərdə behişt nemətləri belə vəsf edilir: "Behiştdə elə nemətlər vardır ki, nə göz görüb, nə

---

*1.. "Nurus-səqəleyn" 4-cü cild, səh.226-dan sonra.*

qulaq eşidib, nə də bir insanın fikrinə gəlib."[1] Bu ayənin təfsirində imam Sadiqdən (ə) belə nəql olunur: "Allah-Taala Qurani-Kərimdə gecə namazından başqa hər bir əməlin savab və mükafatını açıqlamışdır. (Onun savabını isə ümumi şəkildə bəyan etmişdir.)"[2]

Bir sözlə, qeyd edilən ayələrə əsasən, gecə namazının digər ibadətlər arasında yeri müstəsnadır.

***GECƏ NAMAZI RƏVAYƏTLƏRDƏ***

Gecə namazı ilə bağlı İslam Peyğəmbəri (s) və məsum imamlardan (ə) çoxlu sayda rəvayətlər nəql olunmuşdur ki, biz burada onlardan bir neçəsini qeyd etməklə kifayətlənirik:

1. İslam Peyğəmbərinin (s) xüsusi səhabəsi Məaz ibn Cəbəl deyir: "Təbuk döyüşünə getdiyimiz zaman hava çox isti idi. Döyüşdən qabaq hər kəs bir guşəyə çəkilib günəşin yandırıcı şüasından qorunurdu. Birdən Peyğəmbəri (s) öz kənarımda tək görüb dedim: "Ey Allahın Rəsulu, mənə elə bir əməl öyrət ki, onu yerinə yetirməklə cəhənnəm atəşindən amanda qalıb behiştə daxil olum."

Peyğəmbər (s) yorğun olsa da, belə cavab verdi: *"Mühüm bir sual soruşdun. Lakin Allahın müvəffəq etdiyi şəxsə onu yerinə yetirmək elə də çətin olmaz. Əgər yerinə yetirə bilsən, cəhənnəm sənə haram, behişt vacibdir: Yalnız Allaha pərəstiş et və heç bir şeyi Ona şərik qoşma! (Sərvət, şöhrət, vəzifə, qadın, övlad və bu kimi nəfsin istəklərində Allaha şərik qoşma, qəlbi bu sayaq bütlərdən təmizlə və yalnız Allaha bəndəçilik et.) Vacib namazları (layiqincə) yerinə yetir. (Namazla kifayətlənmə,) sənə vacib olan zəkatı ödə (və*

1.. *"Nurus-səqəleyn", 4-cü cild, səh.230, hədis: 38.*

2. *"Biharul-ənvar", 87-ci cild, səh.140.*

*yoxsulların ehtiyaclarını aradan qaldır). Ramazan ayında oruc tut."*

Məaz ibn Cəbəl deyir: Peyğəmbər (s) birincisi "üsuli-din"ə, qalanları isə "fürui-din"ə aid olan bu dörd göstərişdən sonra, mənə buyurdu: "(Ey Məaz!) İstəyirsənmi səadət qapılarını sənə göstərim?"

Dedim: "Ey Allahın Rəsulu, bəli, buyurun!"

Həzrət buyurdu: *"Oruc (cəhənnəm atəşi müqabilində) qalxandır, sədəqə günahları məhv edir və gecənin qaranlığında ibadətlə məşğul olan şəxs Allahın razılığını qazanmış olur."*

Göründüyü kimi, bu hədisdə üç əməldən biri olan gecə ibadəti və raz-niyaz xeyir və səadət qapısı kimi tanıtdırılır.

2. İslam Peyğəmbərinin (s) azançısı Bilal Həbəşi deyir: "Bir dəfə Peyğəmbər (s) camaatla söhbət edərkən belə buyurdu: Ey müsəlmanlar, gecə namazını unutmayın ki, gecə ibadəti sizdən qabaqkı əməlisaleh insanların da adəti olub, o, bədəni Allaha yaxınlaşdırır, günahlardan saxlayır və onların kəffarəsidir. (Həm də) insanın cisminin sağlamlığını qoruyur."[3]

3. İmam Sadiq (ə) üç əməli möminin fəxri, dünya və axirətdə zinəti hesab edir:

a) "Gecənin sonunda qılınan namaz."

Gecə namazını yatmazdan qabaq qılmağa icazə verilsə, sübh azanına yaxın vaxtda qılmaq daha yaxşıdır.

b) "Allahdan qeyrisindən ümidi üzmək."

İnsanın bulaq başına getmək əvəzinə əlinə bir qab götürüb ondan-bundan su istəməsi əbəs göründüyü kimi, bacardığı işlərdə də Allahı qoyub başqalarından yardım ummağı yersizdir.

---

*3.. "Məcməül-bəyan", 4-cü cild, səh.331.*

c) "Mühəmmədin (s) Əhli-beytinin imamət və vilayətini qəbul etmək."[1]

Bu rəvayətə əsasən, gecə namazı möminin fəxri, dünya və axirətdə zinətidir. Burada diqqəti cəlb edən odur ki, gecə namazı məsum imamların vilayəti ilə yanaşı qeyd edilib. Gecə namazına verilən böyük əhəmiyyət və saysız-hesabsız savabların səbəbi ilə bağlı bəzi mətləblərə işarə etməyi zəruri bilirik:

### *GECƏ NAMAZINDAKI HİKMƏT*

**Sual:** Ayə və rəvayətlərdə gecə namazının bu qədər qiymətləndirilməsi nədən irəli gəlir? Başqa sözlə, gecə namazı nədən ötrüdür?

**Cavab:** Aşağıdakı mətləbləri gecə namazının mahiyyəti barədə qənaətbəxş hesab etmək olar:

1. Gecənin bir vaxtı Xaliqi ilə raz-niyaz üçün yataqdan qalxmaq bəndənin ibadətdə əzmkarlığını göstərir.

2. Gündüzün səs-küyündən uzaq gecənin qaranlığında səmimi ibadət üçün şərait daha çoxdur.

3. O vaxt əldə edilən əhval-ruhiyyəni günün başqa saatlarında qazanmaq çətindir.

4. Gecənin qaranlığında riyakarlığa yer yoxdur. İnsan məsciddə və camaat içərisində riyaya düçar ola bilər. Adətən, birgə qılınan namazlarda riyaya zəmin yaranır. Lakin gecənin bir vaxtı tək-tənha camaatın gözündən uzaq qılınan namazın saf və xalisliyində ehtimal çoxdur və bu da onun dəyər və savabını artırır.

5. Gecə namazı insana ruhi aramlıq bəxş edir. Müasir tibb bir çox xəstəliklərin səbəbini ruhi gərginlikdə görür. Gecə ibadətləri insanın ruhi gərginliklərini azaldır, əhval-ruhiyyəsini dəyişir. "Gecə namazı insanın sağlamlığını

*1.. "Biharul-ənvar", 84-cü cild, səh.140.*

təmin edir! – kimi rəvayətlərlə də bunu anlamaq olar.

Deməк, gecə namazını yaşatmaq böyük səadətdir. Əgər onu tam şəkildə qılmaq çətin görünürsə, müstəhəb əməllərini yerinə yetirmədən qılınsın. Bu zaman onun on bir rükətini on beş dəqiqə ərzində qılmaq olar. Hətta daimi qıla bilməsək də, heç olmazsa, həftədə bir dəfə, "cümə" günləri unutmasaq yaxşıdır.

4

# CƏHƏNNƏM ATƏŞİNDƏN QORXU

Rəhman Allahın həqiqi bəndələrinin səciyyələrindən dördüncüsü cəhənnəm atəşindən qorxmaqdır. "Furqan" surəsinin 65-66-cı ayələrində belə buyurulur:

وَالَّذِينَ يَقُولُونَ رَبَّنَا اصْرِفْ عَنَّا عَذَابَ جَهَنَّمَ إِنَّ عَذَابَهَا كَانَ غَرَامًا إِنَّهَا سَاءتْ مُسْتَقَرًّا وَمُقَامًا

***"(Rəhman Allahın həqiqi bəndələri) belə deyərlər: Ey Rəbbimiz, cəhənnəm əzabını bizdən dəf et ki, həqiqətən, onun əzabı (cəhənnəm əhli üçün) ayrılmaz və həmişəlikdir. Şübhəsiz, cəhənnəm pis yer və pis məskəndir."***

Görəsən, Allah dərgahında böyük məqam və səciyyəvi xüsusiyyətlərə malik həqiqi bəndələri yüksəldən yalnız bu ibarələri daim deməlidir, yoxsa niyyətlərilə bərabər əməlləri də mühüm rol oynayır?

Şübhəsiz, sırf dua və Allahla mənəvi rabitə kifayət deyil. İnsanı yüksək məqamlara qaldıran, əməllə birgə olan xeyirxah niyyətlərdir və bu da ümumi bir qaydadır. Məsələn, şiəlik iddiasında olub, imam Əlinin (ə) məhəbbətindən dəm vurmaq və Əhli-beytə sevgidən danışmaq insanı günahlardan qorumur, yaxud ibadət və itaətə çəkmir və yaxud məsum imamların həqiqi şiələri zümrəsinə qatmır. Buna görə də, rəvayətlərdə sözü əməl və rəftarına zidd olan məzəmmət edilir. İmam Rzadan (ə) nəql olunan bir hədisdə deyilir: "Cəhənnəm atəşindən Allaha pənah apardığını deyib, amma (cəhənnəmə

sürükləyən) nəfsin istəklərindən üz çevirməyən insan özünü ələ salır."[1] Başqa bir hədisdə isə belə deyilir: "Günahından tövbə edib, ondan əl çəkməyən şəxs, elə bil, öz Rəbbini ələ salır."[2]

### *ƏZAB VƏ CƏZALARLA BAĞLI SUALLAR*

**Sual:** Allah-Taala cəhənnəmi nə üçün yaradıb? Nə üçün günahkarlara ağır cəzalar təyin olunub? Ehtiyacsız Allahın bizim ibadətlərimizə nə ehtiyacı var? Günahlarımızın Ona nə zərəri var? Nə üçün cəhənnəmi yaradıb?

Cavab: İmam Əli (ə) "Nəhcül-bəlağə"nin "Həmmam" xütbəsində buyurur ki, Allah-Taalanın nə bizim ibadətlərimizə ehtiyacı var, nə də günahlarımız Ona bir zərər yetirir.

Adətən, təlim-tərbiyədə iki mühüm amil – təhrik və təhdid labüd sayılır. Savab insanların təşviqi, cəza isə həddi aşmamaları üçündür. Bu əsaslarsız effektli təlim-tərbiyəyə zəmanət yoxdur. Əgər sadə bir misal göstərsək, təlim-tərbiyəni avtomobilə bənzətmək olar. Onun hərəkət və düzgün idarəsi üçün qaz pedalı və qoruyucu tormoza ehtiyacı var. Burada hər ikisinin rolu böyükdür və onlarsız, yaxud biri ilə avtomobil heç vaxt məqsədə çata bilməz.

Qeyd olunan təlim-tərbiyə üsulları Peyğəmbəri-Əkrəmin (s) səciyyələrində də görünür. Allah-Taala o həzrəti həm "bəşir" (müjdələyən), həm də "nəzir" (qorxudan) adlandırır. "Bəşir" təhrikedici, "nəzir" isə qoruyucu amildir. Behişt və cəhənnəm, həqiqətdə, o iki amilin təzahürüdür – behişt haqq yolçularını

1.. *"Biharul-ənvar", 75-ci cild, səh.356, hədis: 11.*

2.. *"Biharul-ənvar", 90-cı cild, səh.282.*

ibadət və itaətə təşviq edir, cəhənnəm isə onları əyri yol və azğınlıqlardan qorxudaraq Allahın əmrlərilə müxalifətdən saxlayır.

Doğrusu, Allah-Taala savaba – təhrikedici amilə daha çox yer verir. Belə ki, hər bir yaxşı işin ən azı on savabı, pis işin isə yalnız bir cəzası var.[1] Savab və cəza idarə üsullarından sayılır. Məsələn, idarənin həmkarları arasında nəzm-inzibat yaratmaq üçün qətiyyət tələb olunur və təşviqat proqramları ilə bərabər tənbeh üsulları da nəzərə alınır. Bununla belə, təşviq tənbehdən irəlidir.

Demək, dünyanın bir guşəsində əyləşib "edam" cəza tədbirinin ləğv ilə dair şüar verənlərin, onu heç bir şərtlə qəbul etməyənlərin əlində məntiqli bir əsas görünmür. Qatillərə, oğrulara, narkotik maddələri yayanlara və cinayətkarlara "ürəyiyananlar" onların qurbanları haqda nə fikirləşirlər?! Əgər belə ünsürlərin yaşayış haqqı varsa, qurban olanların yaşayış haqqı yoxdurmu? Məgər əmniyyəti pozanların əmniyyətini qorumaq ədalətdirmi? Bu isə onların qəbul etmək istəmədikləri acı həqiqətdir.

Qeyd edilənlərə əsasən, Allah-Taalanın nə bizim ibadətlərimizə ehtiyacı var, nə də günahlarımızın Ona bir zərəri dəyir. O, bütün bunları yalnız tərbiyələndirmək, təkamülə doğru yönəltmək üçün edir. "İftitah" duasında nə gözəl deyilir: *"İlahi, mən bilirəm ki, Sən əfv və rəhmətdə rəhmlilərin ən rəhmlisi, ən mehribanı, günahkarları cəzalandırmaqda sərtsən!"*

### *İKİ QANAD – QORXU VƏ ÜMİD*

Dini dünyagörüşümüzdə cəhənnəmdən qorxu və

1.. *"Ənam" surəsi, ayə 160.*

behiştə ümid həqiqi müsəlmanın əlaməti sayılır və bu tərəzinin iki gözünü təşkil edir: nə ümid qorxunu, nə də qorxu ümidi aşmalıdır. İmam Sadiq (ə) atası imam Baqirdən (ə) nəql etdiyi gözəl bir hədisdə belə deyir: "Mömin bəndənin qəlbində iki nur var: biri qorxu, digəri isə ümid və hər ikisi bərabərdir..."[1]

İnsan bu iki qanadla Rəbbin "qürb" səmasında uca məqamlara yüksəlir.

### *ÜMİD, YOXSA XAM XƏYAL*

Bəziləri cəmiyyətdə hədsiz ümidvarlıq yaradaraq Allahdan qorxu hissini azaldır, yalnız məğfirət, bəxşiş və behiştdən danışaraq cəhənnəmdən bir söz demir. Məsələn, "əzadarlıq mərasimlərində ağlayan gözlər cəhənnəm atəşində yanmaz", yaxud "əgər hesab-kitabımız imam Əli (ə) ilədirsə, qüssənin mənası yoxdur". Bunlar doğru olsa da, insanın dünyadan imanla getməsinə zəmanət vermir! Dünyadan imansız gedənə çarə yoxdur və şəfaətində şərtləri var. O zaman bu təfəkkürə sahib olan Hacib belə bir beyt söyləyir:

Hacib, əgər müamileye həşr ba Əlist,
Mən zaminəm, hər çe xahi qonah kon!

"Ey Hacib, əgər qiyamət gününün haqq-hesabı Əli (ə) ilədirsə, mən zaminəm, istədiyin qədər günah et!"

Amma gecə yuxuda görür ki, imam Əli (ə) ona qəzəblə baxır. Hacib soruşur ki, bəs, onu necə deyim? Həzrət buyurur ki, belə de:

"Hacib, əgər müamileye həşr ba Əlist,
Şərm əz roxe Əli kono kəmtər qonah kon."

"Ey Hacib, əgər qiyamət gününün haqq-hesabı Əli (ə) ilədirsə, onda Əlinin (ə) camalından utan və az günah

---

*1.. "Üsuli-kafi", 2-ci cild, səh.67, "xovf və rəca" bölümü, hədis: 1.*

et!”

### *CƏHƏNNƏMİN MAHİYYƏTİ*

Quranda geniş yer verilən, təqribən, səksənə yaxın ayədə sözügedən, müxtəlif cəhətlərdən araşdırılan və şərindən ilahi bəndələrin Allaha pənah apardıqları cəhənnəm nədir? Günahkarların cəza yeri cəhənnəmin varlığı və mahiyyəti bizə məlum deyil, necə ki, behiştin mahiyyətindən xəbərsizik! Behişt və cəhənnəm barədə bunu deyə bilərik ki, biri ilahi rəhmətin, o biri isə ilahi qəzəbin təzahürüdür. Hər halda, behişt və cəhənnəm barədə məlumatsızlıq elə də təəccüblü deyil! Çünki dünya ilə axirətin quruluşu tam fərqlidir. Bunu bizə gözəl bəyan edən misala nəzər salaq:

“Dünya sakinlərinin axirətə nisbəti ananın bətnindəki rüşeymin dünyaya nisbəti kimidir. Rüşeym hətta şüurlu olub, Əbu Əli Sina kimi yüksək dərketmə qabiliyyətinə malik olsa belə, yenə də bir təfavüt yaranmayacaq. Onda – qaranlıq ana bətnində sudan başqa bir şeylə tanış olmayan rüşeymdə – saçan günəş, nurlu ay, parlaq ulduzlar və gül-çiçəklər haqda məlumat verməklə, görəsən, hansı təəssürat yaratmaq olar? Şübhəsiz, bu həqiqətlər ona (yüksək dərketmə qabiliyyətinə malik olsa belə) yalnız bir qaraltını təsvir edə bilər. Çünki bu dünyadakı məfhumların rüşeym aləmində heç bir mənası yoxdur. Həmçinin onlar axirət aləmi üçün də münasib deyildir! Demək, rüşeymin bu dünyanı dərk etməyə qadir olmadığı kimi, dünya əhlinin də axirət aləmini dərk etməsi qeyri-mümkündür. Bunu biz behişt və cəhənnəmi vəsf edən ayə və rəvayətlər də görə bilərik. Məsələn, “Hüməzə” surəsinin 6-7-ci ayələrində cəhənnəm atəşi haqda belə buyurulur:

نَارُ اللَّهِ الْمُوقَدَةُ. الَّتِي تَطَّلِعُ عَلَى الْأَفْئِدَةِ

***"O, Allahın yanar odudur. Elə bir oddur ki, (küfr, şirk və nifaq mərkəzi olan) ürəklərə nüfuz edər (və zahirdən əlavə, batini də yandırıb-yaxar)."***

Bu ayəyə əsasən, cəhənnəm odu ürəkdən alovlanır və bədənin bütün üzvlərini özünə yem edir. Bəzi ayələrə görə, cəhənnəm sanki canlı varlıqlar kimi nəfəs alır.

Verilən misallardan belə başa düşülür ki, cəhənnəmin quruluşundakı qəribəliklər bizim təsəvvürümüzdən xaricdir. Lakin ilahi qəzəb və cəza ocağının varlığına inanırıq və hətta ölənlərə belə təlqin edirik: "Həqiqətən, cənnət və cəhənnəm haqdır!"

### *CƏHƏNNƏMİN YENİ TƏSVİRİ!*

İmam Əli (ə) bir hədisdə cəhənnəmin bir guşəsini belə vəsf edir:

إنَّ فِى جَهَنَّمَ رُحىً تَطْحَنُ...

*"Cəhənnəmdə (beş şeyi) üyüdən bir dəyirman vardır."*

أَفَلا تَسْئَلُونَ ما طَحْنَها؟

*"Onun nəyi üyütdüyünü bilmək istəmirsinizmi?"*

Dostları soruşur: "Ey möminlərin əmiri, nəyi üyüdür?" Həzrət buyurur:

1. **اَلْعُلَماءُ الْفَجَرَةُ** *"Günahkar (facir) alimləri."*

Başqalarını yaxşı işlərə dəvət edib, özü əməl etməyən alim həmin dəyirmanın yemi olacaq.

2. **وَالْقُرّاءُ الْفَسَقَةُ** *"Fasiq (günahkar) Quran qarilərini."*

Quran qarisi, yaxud hafizləri tilavət etdiyinə əməl etmirsə, Allah göstərməsin, "riba" (sələm) ayəsini oxuyub, özü ona bulaşırsa, yaxud "qeybət" ayəsini

oxuyub, özü başqalarının qeybətini qırırsa, beləlləri də o dəyirmanın yemi olacaq.

3. وَالْجَبابِرَةُ الظَّلَمَةُ *"Zülmkar hakimləri."*

Cəmiyyətə rəhbərlik edənlər xalqa xidmət əvəzinə zülm və haqsızlığa yol verirlərsə, həmin dəyirmanın qurbanı olacaqlar.

4. وَالْوُزَراءُ الْخَوَنَةُ *"Xəyanətkar vəzirləri."*

Cəmiyyətin tərəqqisi və inkişafı ilə birbaşa bağlı məsul şəxslər – vəzirlər və nazirlər öz vəzifələrinin icrasında səhlənkarlıq və xəyanət edirlərsə, ilahi əzaba layiq görülərək sözügedən dəyirmanın yeminə çevriləcəklər.

5. وَالْعُرَفاءُ الْكَذَبَةُ *"Yalançı mütəxəssisləri."*

"Arif"in cəm forması olan "ürəfa" sözü hər hansı sahə üzrə mütəxəssis və bilik sahiblərinə deyilir. Hədisin bu hissəsi söz və işlərində saxtakarlıq edən ixtisas sahiblərinə aiddir.

Diqqəti cəlb edən odur ki, onlar daim ölüb-dirilərək yeni-yeni şiddətli əzablara məruz qalacaqlar. Bu və bu kimi hədislər axirət aləmi barədə müəyyən təsəvvür versə də, orada baş verənlərin mahiyyəti bizə qaranlıqdır.

***CƏHƏNNƏMİN QAPILARI***

Qeyd edilənləri sübuta yetirən məsələlərdən biri də behişt və cəhənnəmin qapılarına dair bəhslərdir. "Zümər" surəsinin 71-ci ayəsində bu barədə belə buyurulur:

وَسِيقَ الَّذِينَ كَفَرُوا إِلَى جَهَنَّمَ زُمَرًا

***"Kafirlər dəstə-dəstə cəhənnəmə tərəf sürüklənəcəklər."***

Onlar cəzalanmağa meyilli olmasalar da, zorla əzaba atılacaqlar. Çünki verilən əzablar onların əməllərinin

nəticəsidir.

حَتَّى إِذَا جَاؤُوهَا فُتِحَتْ أَبْوَابُهَا

***"Nəhayət, (kafirlər) ora (cəhənnəmə) çatanda onun qapıları açılacaq."***

Ayədən göründüyü kimi, cəhənnəmin qapıları vardır, amma onların mahiyyəti bizə məlum deyil. Məsələn, qapıların sayının cəmiyyətin sayı ilə əlaqəsi varmı, yoxsa onunla başqa məqsədlər güdülür? Qapılar oranın tamamilə qapalı mühit olduğunu göstərir, yoxsa onlar qala qapılarını xatırladır kimi bir çox suallar hələ də cavabsızdır. Qurani-Kərimdə buyurulur:

وَقَالَ لَهُمْ خَزَنَتُهَا أَلَمْ يَأْتِكُمْ رُسُلٌ مِّنكُمْ يَتْلُونَ عَلَيْكُمْ آيَاتِ رَبِّكُمْ وَيُنذِرُونَكُمْ لِقَاء يَوْمِكُمْ هَذَا

***"Cəhənnəmin gözətçiləri (məzəmmətlə) onlara (cəhənnəm əhlinə) deyərlər: "Məgər özünüzdən (öz cinsinizdən) Rəbbinizin ayələrini sizə oxuyan və sizi bu günün görüşündən qorxudan peyğəmbərlər gəlməmişdimi?"***

Axirət aləmində inkar, yalan və gizlətməyin mənası yoxdur və orada yalnız həqiqət zahir olur. Odur ki, ayənin davamında belə buyurulur:

قَالُوا بَلَى وَلَكِنْ حَقَّتْ كَلِمَةُ الْعَذَابِ عَلَى الْكَافِرِينَ

***"Onlar deyərlər: Bəli, lakin (biz küfr və inadkarlığımızdan dönmədik və nəhayət, Allahın) əzab vədəsi kafirlərə qəti oldu."***

"Hicr" surəsinin 44-cü ayəsində cəhənnəmin qapılarının sayı da göstərilir:

لَهَا سَبْعَةُ أَبْوَابٍ لِّكُلِّ بَابٍ مِّنْهُمْ جُزْءٌ مَّقْسُومٌ

***"Onun yeddi qapısı vardır və hər qapı (qruplar) üçün bölünüb."***

Qapıların əlamətlərinə əsasən, hər biri müəyyən zümrəyə aiddir. Burada yeddi ədədinin sayı, yoxsa əksəriyyəti bildirməsi ilə bağlı iki ehtimal var: Birinci ehtimala əsasən, yeddi sayı bildirir; yəni cəhənnəmin yeddi qapısı var, nə çox, nə də az. İkinci ehtimala görə isə, yeddi ədədi əksəriyyəti bildirir; yəni cəhənnəmin cürbəcür qapıları vardır. Buna "Loğman" surəsinin 27-ci ayəsində qeyd edilən yeddi ədədinin çoxluğa dəlalət etməsini misal çəkə bilərik:

وَلَوْ أَنَّمَا فِي الْأَرْضِ مِن شَجَرَةٍ أَقْلَامٌ وَالْبَحْرُ يَمُدُّهُ مِن بَعْدِهِ سَبْعَةُ أَبْحُرٍ مَّا نَفِدَتْ كَلِمَاتُ اللَّهِ إِنَّ اللَّهَ عَزِيزٌ حَكِيمٌ

***"Əgər yer üzündəki hər ağac bir qələm olsaydı və dəryaya yeddi dərya belə qoşulsaydı (Allahın yaratdıqlarını yazmaq üçün mürəkkəb olsaydı,) Allahın kəlmələri tükənməzdi; çünki Allah yenilməz qüdrət və hikmət sahibidir."***

Bu ayədə yeddi ədədi əksəriyyəti bildirən misaldır. "Tövbə" surəsinin 80-ci ayəsində göstərilən yetmiş ədədi də əksəriyyəti bildirir. Həmin ayədə Allah-Taala Peyğəmbəri-Əkrəmə (s) xitabən buyurur:

اسْتَغْفِرْ لَهُمْ أَوْ لاَ تَسْتَغْفِرْ لَهُمْ إِن تَسْتَغْفِرْ لَهُمْ سَبْعِينَ مَرَّةً فَلَن يَغْفِرَ اللّهُ لَهُمْ

***"Onlar üçün məğfirət diləsən də, diləməsən də (birdir), hətta yetmiş dəfə bağışlanmalarını diləsən belə, Allah onları əsla bağışlamayacaqdır..."***

Burada da yetmiş ədədi sayı bildirmir. Deməк, ikinci

ehtimala əsasən, cəhənnəmin bir çox qapısı vardır və bizim onlar haqda məlumatımız yoxdur.

***BEHİŞTİN QAPILARI***

"Zümər" surəsinin 73-cü ayəsində behiştin qapılarından söz açılır:

وَسِيقَ الَّذِينَ اتَّقَوْا رَبَّهُمْ إِلَى الْجَنَّةِ زُمَرًا

***"Rəbindən qorxanlar (təqvalılar) dəstə-dəstə cənnətə tərəf aparılarlar."***

Behişt əhlinin "təqva" (Allahdan qorxu) xislətinin xüsusi qeyd edilməsi onun böyük əhəmiyyətini, behiştə daxil olmaqda mühüm rolunu aşılayır:

حَتَّى إِذَا جَاؤُوهَا وَفُتِحَتْ أَبْوَابُهَا

***"Nəhayət, onlar ora (behiştə) çatanda, onun qapıları (onların üzünə) açılar."***

Öncə cəhənnəmin qapıları ilə bağlı qeyd edilən incə mətləblər bura da aiddir.

وَقَالَ لَهُمْ خَزَنَتُهَا سَلَامٌ عَلَيْكُمْ طِبْتُمْ فَادْخُلُوهَا خَالِدِينَ

***"Onun gözətçiləri onlara deyərlər: Salam olsun sizə, (həm cismi, həm də ruhi baxımdan) pak oldunuz. Buna görə də, əbədi məskunlaşmaq üçün ora daxil olun!"***

Bu ayədə də behiştin qapılarından söz açılsa da, onun təfərrüatı və sayı haqda Qurani-Kərimdə məlumat verilmir. İslam Peyğəmbərindən (s) nəql olunan bir hədisdə belə deyilir: "Behiştin səkkiz qapısı var və onlardan içəri girmək istəyənin dörd xisləti olmalıdır:

1. أَلصَدَقَةُ – “Yoxsullara yardım.” Təəssüflər olsun ki, hazırda hər bir ölkə və cəmiyyətdə yoxsulların sayı az deyil və onlara imkan daxilində kömək etmək lazımdır. İmam Həsən (ə), demək olar, ömrünü yoxsul və möhtaclara yardımla keçirib. Belə ki, Kufəyə daxil olan hər bir qərib və yoxsul əvvəl Peyğəmbəri-Əkrəmin (s) böyük nəvəsi imam Həsənin (ə) evinə üz tuturmuş.

2. وَ السخاءُ – “Səxavət və əliaçıqlıq.” Behişt paxılların yeri deyil. Bəxşiş etdiyi zaman heç nəyi ummayan kəsə köməyindən qəlbən razı olana səxavətli adam deyilir.

3. وَ حُسْنُ ٱلْخُلُقِ – “Mülayim rəftar və xoşəxlaqlıq.” Behişt əhlinə qoşulmaq istəyənlər mütləq bu gözəl libasa bürünməlidirlər.

4. وَكف ٱلأذى عن عِبادالله – “Xalqın dinc həyatını pozmamaq.” İlahi rəhmət ocağına qədəm qoymaq istəyən şəxs insanları incitməməli, həmişə onlara mehr-məhəbbət göstərməli, qəlbini ülfət və mehribanlıqla doldurmalıdır.

Bunlar göstərir ki, behişt yalnız ibadət, oruc, namazın sayəsində deyil. Bu əməllər böyük əhəmiyyət daşısalar da, ictimai məsələlərə riayət etmək, ibadətlərin ən üstünü sayılan Allahın məxluqatına xidmət göstərməyin rolu böyükdür.[1]

### *BEHİŞT VƏ CƏHƏNNƏMİN XİLQƏTİ*

**Sual:** Behişt və cəhənnəm hal-hazırda mövcuddurmu? Allah-Taala onları yaradıbmı, yoxsa bu dünya sona çatdıqdan sonra yaradacaq? Behişt və cəhənnəm əməllərin nəticəsidirmi?

**Cavab:** Quran ayələrindən belə başa düşülür

---

*1.. Behişt və cəhənnəmin qapıları haqda sonrakı bəhslərdə yeni şərhlər veriləcəkdir.*

ki, behişt və cəhənnəm hal-hazırda mövcuddur və hədislərə əsasən, yaxşı və pis əməllər onlara quruluş verir. Yaxşı əməllər[1] behiştin, pis əməllər isə cəhənnəmin təzahürüdür! Biri behişt, digəri isə cəhənnəmdən söz açan iki ayəyə diqqət yetirək:

1. "Ali-İmran" surəsinin 133-cü ayəsində buyurulur:

وَسَارِعُواْ إِلَى مَغْفِرَةٍ مِّن رَّبِّكُمْ وَجَنَّةٍ عَرْضُهَا السَّمَاوَاتُ وَالأَرْضُ أُعِدَّتْ لِلْمُتَّقِينَ

***"Rəbbiniz tərəfindən olan məğfirətə və genişliyi göylər və yer qədər olan (və) təqvalılar üçün hazırlanmış cənnətə doğru tələsin."***

Bu ayənin zahiri, xüsusilə, "uiddət lil-muttəqin" *(təqvalılar üçün hazırlanmışdır)* – ibarəsi behiştin hal-hazırda mövcudluğunu aşılayır.

2. "Ənkəbut" surəsinin 54-cü ayəsində cəhənnəmin hal-hazırda mövcud olması barədə belə buyurulur:

وَإِنَّ جَهَنَّمَ لَمُحِيطَةٌ بِالْكَافِرِينَ

***"Onlar səndən əzabın tez gəlməsini istəyirlər. Halbuki cəhənnəm kafirləri əhatə edib."***

Bu ayələrdən belə başa düşülür ki, behişt və cəhənnəm hazırda mövcuddur və lakin qiyamət günü pərdələr kənara çəkildiyi zaman onun həqiqi mahiyyəti bizə məlum olacaq.

***BEHİŞT VƏ CƏHƏNNƏM ƏMƏLLƏRİMİZLƏ***

---

*1.. İslam Peyğəmbəri (s) buyurur: "La ilahə illəllah" deyən şəxs onu təkrar etdikcə, behiştdə bir ağac əkilir." ("Mizanul-hikmət", bölmə: 567, hədis: 2781.) Bu və bu kimi rəvayətlərdən başa düşülür ki, behişt hal-hazırda mövcuddur və onu fəaliyyətə salan əməllərimizdir.*

**_FORMALAŞIR_**

Əvvəldə qeyd etdiyimiz kimi, Quran ayələrinə əsasən, behişt və cəhənnəm yaranıb hal-hazırda mövcud olsa da, çoxlu sayda rəvayətlərdə onlardakı proseslərin əməllərimizlə işə düşəcəyi bildirilir. Biz burada behişt və cəhənnəmdən söz açan bir neçə hədisi qeyd etməklə kifayətlənirik:

1. İmam Əli (ə) "cihad"la bağlı məşhur xütbədə belə buyurmuşdur: *"Şübhəsiz, cihad Allah-Taalanın həqiqi bəndələrinin üzünə açılan behişt qapılarından birid*ir."[1]

Bu hədisə əsasən, behişt hal-hazırda mövcuddur və onun qapılarından biri Allah yolunda mübarizədir.

2. Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur: *"Cəhənnəmin bir qapısı var ki, oradan yalnız Allah-Taalaya qarşı çıxaraq öz qəzəbini günahla söndürənlər daxil olar."*[2]

Bəziləri əsəbiləşdikdə, özlərini sakitləşdirmək üçün günaha əl çatır. Məsələn, söyüş söyürlər, nankorluq edirlər, küfr danışırlar, başqalarını incidirlər, yaxud möhtərəm insanları təhqir edirlər və s. Cəhənnəmin qapılarından biri belə şəxslərə ayrılıb. Hərdən insanların səviyyəsi qəzəbli və əsəbi halda üzə çıxır. Qəzəbli halda yoldan çıxan, dilini qorumağı bacarmayan, necə deyərlər, gözünü bağlayıb danışığını bilməyən insan tez də qiymətdən düşürsə, Allahın razılığı yolunda qəzəbini boğanlar isə yüksəlirlər.

3. Bəzi rəvayətlərə əsasən, behiştin qapılarından birinin adı "rəyyan"dır.[3] "Rəyyan" susuzluğu aradan qaldıran mənasındadır. Bu qapı orucluğun susuzluğuna

*1.. "Nəhcül-bəlağə", xütbə: 27.*

*2.. "Mizanul-hikmət", bölmə: 621, hədis: 3065.*

*3.. "Mizanul-hikmət", bölmə: 562, hədis: 2753.*

dözənlərə məxsusdur.

4. Behiştin bir qapısının adı "babul-məruf"dur (yaxşılıqlar qapısı). Oradan yaxşı və xeyirxah işlər görənlər behiştə girəcəklər.[1]

5. Behiştin başqa bir qapısının adı "səbir qapısı"dır.[2] Bu qapıdan çətinliklərdə, ibadətdə, günahın tərkində və tüğyanedici nəfsi müqabilində səbir edib dözənlər behiştə daxil olacaqlar.

6. Behiştin növbəti qapısının adı "şükür qapısı"dır. Bu qapı həm dildə, həm də əməldə Allahın saysız-hesabsız nemətləri müqabilində şükür edənlərə aiddir.[3]

7. Behiştin digər bir qapısının adı "bəla qapısı"dır.[4] "Bəla"nın nə olduğu barədə iki ehtimal verilir:

a) "Bəla" dedikdə, onun ilkin mənası nəzərdə tutulur. Demək, sel, zəlzələ, şimşək, fırtına, tufan, yaxınlarının ölümü, əlacsız xəstəliklər və bu kimi bəlalara düçar olub səbir edənlər o qapıdan behiştə gedəcəklər. Hər halda, bütün insanlar dünyada bir sıra bəla və çətinliklərlə üzləşirlər. Hətta gözəl həyat tərzi keçirənlər də müxtəlif çətinliklərə məruz qalırlar. Bu isə dünya həyatının xasiyyətidir. Elə buna görə də, dünyanı yaxşı tanıyan imam Əli (ə) onu belə vəsf edir: *"Dünya sıxıntılar və çətinliklərlə yoğrulmuş bir evdir."*[5]

b) "Bəla"nın başqa bir mənası sınaq və imtahandır. Bu mənaya əsasən, o qapıdan ilahi sınaqların öhdəsindən gələn möminlər behiştə daxil olacaqlar.

---

*1.. "Mizanul-hikmət", bölmə: 562, hədis: 2754.*

*2.. "Mizanul-hikmət", bölmə: 562, hədis: 2757.*

*3.. Yenə orada.*

*4.. Yenə orada.*

*5.. "Nəhcül-bəlağə", xütbə: 226.*

8. Behiştin digər bir qapısının adı da "babul-əzəm"dir (ən böyük qapı). Oradan Allahın əməlisaleh və həqiqi bəndələri, zöhd və təqva əhli behiştə gedəcəklər.[1]

Peyğəmbəri-Əkrəm (s) dolğunmənalı "şəbaniyyə" xütbəsində behiştin qapıları haqda belə buyurur: *"Bu ayda behiştin qapıları açıqdır."*

Bu ibarədən məlum olur ki, behişt hal-hazırda mövcuddur və Allahın əməlisaleh bəndələrinin üzünə mübarək Ramazan ayına məxsus qapılar açılır. Məsələn, həmin ayda tutduğumuz oruc, tilavət etdiyimiz Quran, möhtaclara verdiyimiz yemək, bir sözlə, həmin ayda yerinə yetirdiyimiz yaxşı işlər bütünlüklə behiştin qapıları sayılırlar.

O həzrət söhbətinin davamında cəhənnəmin qapıları barədə isə belə buyurur: *"Ramazan ayında cəhənnəmin qapıları bağlıdır."*[2]

Cəhənnəmin qapıları olan günahlar, ehtiraslar, nəfsi istəklər və şeytanın vəsvəsələri oruc və nəfslə mübarizə sayəsində bağlanır. Bilməliyik ki, saf niyyət və pak qəlblə həmin qapıların həmişə bağlı qalacağına ümid var!

Bəli, hətta bizim naqis oruclarımız belə cəhənnəmin qapılarını bağlamağa qadirdir və şeytanların, nəfsin istəklərin zəncirlənməsinə imkan yaradır.

### *ALLAHDAN QORXU*

Bəhsimizin əvvəlində qeyd olundu ki, ilahi övliyalar və bəndələr Allahdan ən çox qorxanlardır. Burada belə bir sual qarşıya çıxır ki, Allahdan qorxu nə deməkdir?!

**Cavab:** Bu haqda Qurani-Kərimdə müxtəlif təbirlər nəzərə çarpır:

*1.. "Mizanul-hikmət", bölmə: 562, hədis: 2757.*

*2.. "Vəsailüş-şiə", 7-ci cild, səh.228.*

1. يَخَافُونَ ٱلْعَذَابَ ٱلْأَلِيمَ ***“(Allahın həqiqi bəndələri) ağrılı əzabdan qorxurlar.”***[1]

2. يَخَافُونَ يَوْمًا كَانَ شَرُّهُ مُسْتَطِيرًا ***“Onlar (Allahın həqiqi bəndələri) əzabı hər yeri əhatə edən gündən qorxarlar.”***[2]

3. وَلِمَنْ خَافَ مَقَامَ رَبِّهِ جَنَّتَانِ ***“Rəbbinin (hər şeyi) əhatə edən hökmranlığından və ya Rəbbinin məqamından (Rəbbinin hüzurunda dayanmaqdan) qorxan kəs üçün iki cənnət vardır.”***[3] Başqa bir ayədə isə belə buyurulur: وَأَمَّا مَنْ خَافَ مَقَامَ رَبِّهِ وَنَهَى النَّفْسَ عَنِ ٱلْهَوَى. فَإِنَّ ٱلْجَنَّةَ هِيَ ٱلْمَأْوَى ***“Amma öz Rəbbinin məqamından, Onun hüzurunda durmaqdan qorxub, nəfsini həvayi–həvəsdən saxlayanın yeri, şübhəsiz, cənnətdir.”***[4]

4. يَخَافُونَ رَبَّهُم ***“Onlar öz Rəbbindən qorxurlar.”5***

Bir sözlə, Allahın həqiqi bəndələri qiyamət günündən, cəhənnəmin odundan, Allahın hüzurunda dayanmaqdan və Allahın Özündən qorxsa da, O, mehriban və bağışlayandır, rəhman və rəhmlidir, hətta rəhm edənlərin ən rəhmlisidir, bizim ibadətimizə ehtiyacı yoxdur və ən böyük günahlarımız belə Onun kibriyasına yaxın düşə bilməz. Görəsən, Onun Özündən qorxunun mənası nədir?

Bu suallara ***“Rəbbinin (hər şeyi) əhatə edən hökmranlığından və ya Rəbbinin məqamından qorxan kəs üçün iki cənnət vardır.”*** – ayəsində cavab verilir. Rəbbin məqamı ilə bağlı müxtəlif təfsirlər verilir və biz burada iki nümunəni qeyd etməklə kifayətlənirik:

---

*1.. “Zariyat” surəsi, ayə 37.*

*2.. “İnsan” surəsi, ayə 7.*

*3.. “Ər-rəhman” surəsi, ayə 46.*

*4.. “Naziat” surəsi, ayə 40-41.*

*5.. “Nəhl” surəsi, ayə 50.*

1. Məqsəd Allahın gözətçi və nəzarətçi olmasıdır. Yəni Allahın həqiqi bəndələri o kəslərdir ki, Allahın daim onlara nəzarət etdiyini bilirlər. İmam Xomeyninin (r.h.) sözü ilə desək: "Aləm Allahın hüzurundadır, Allahın hüzurunda günah etməyin." Onlar Allahın nəzarətindən qorxurlar. Bu etiqadın insan tərbiyəsində böyük rolu vardır. Özünü daim möhtərəm bir baxış altında olduğunu hiss edən kəs heç vaxt əyri addım ata bilməz və bütün əməl və rəftarları ölçü əsasında olar.

2. Məqsəd Allah-Taalanın ədalət məqamıdır. İlahi bəndələr həqiqətdə Allahın ədalətindən qorxurlar. Onlar bilirlər ki, əgər Allah bizimlə sırf ədalətlə rəftar edərsə, heç kimin aman tapmağına ümid yoxdur. Təəssüf ki, biz çox vaxt incə məsələlərə diqqət yetirmir, həmişə ölçü əsasında hesab-kitab aparmırıq. Məsələn, əgər bir şəxs yetkinlik çağından sonra otuz il sürdüyü ömrü ərzində orta hesabla gündə bir günah edərsə, ildə 365 günah olar. Onu 30-a vurduqda, on mindən artıq günah toplanar! Görəsən, bu qədər günaha bulaşan insan Allahın ədalət məqamından qorxmamalıdırmı? Əslində, günaha qurşanmayan və həmişə haqq yolda addım atanlar Onun ədalətindən qorxmamalıdır. Necə ki, günahsız insan polis məmurları və məhkəmə qazilərinin kənarından keçsə də, onlardan qorxmur. Hesab-kitabı pak və dəftəri ağ olanın mühakimədən qorxusu olmaz.

Deyilənlərdən belə qənaətə gəlirik ki, bəndələr Allahın ədalət məqamından yox, həqiqətdə, öz əməllərindən qorxurlar və Allahdan qorxu hissi əməllərlə bağlıdır.

### *ALLAHDAN QORXMAĞIN TƏSİRLƏRİ*

İmam Sadiqdən (ə) nəql olunan bir hədisdə buyurulur: *"Allahdan qorxan heç kimdən qorxmaz və Ondan qorxmayan*

*isə hamıdan və hər şeydən qorxar.”*[1]

Bu rəvayətin ən bariz nümunələri “Bədr” döyüşündə iştirak edən İslamın ilkin müsəlmanlarıdır. İslam Peyğəmbəri (s) bu mühüm döyüşə müsəlmanlardan 313 nəfər seçərək “Bədr” məntəqəsinə doğru hərəkət edir. Müsəlmanlar (hərbi baxımdan) müşriklərin qoşunu ilə heç də müqayisə ediləsi deyildi. Müşriklərin sayı 950 nəfər (müsəlmanlardan üç dəfə artıq) idi. Onlar yüz baş ata və yeddi yüz dəvəyə, bununla yanaşı, dövrün yeni silahlarına sahib idilər. Müsəlmanlar isə həm say, həm silah, həm də digər hərbi sursatlar baxımından onlardan çox-çox zəif idilər. Düşmən ordusunun sərkərdəsi bütün İslam qoşununun 313 nəfərdən ibarət olduğunu eşitdikdə inanmır və elə güman edir ki, onların böyük bir hissəsi geridədir və münasib fürsəti gözləyərək dağ-təpələrin arxasında gizlənmişlər. Bu gümanla bir nəfəri göndərir ki, ətrafı diqqətlə arayıb-axtarsın və İslam qoşununun sayını dəqiq öyrənsin. Həmin şəxs vəzifəsini yerinə yetirdikdən sonra geri dönüb sərkərdəsinə belə deyir: “Bir nəfər də olsun pusquda yoxdur və onların sayı döyüş meydanında gördüklərimizdən artıq deyil! Lakin onların çöhrələri də qorxulu və ciddidir. Onlarla döyüşməyi məsləhət görmürəm. Məncə, onların heç biri bizdən qorxmur və döyüşə arxa çevirən deyildir.”

Küfr ordusunun lovğa sərkərdəsi Əbu Cəhl deyir: “Siz qorxaq və acizlərə mənim sözüm yoxdur. Onlar kiçik bir dəstə az silahla bizimlə necə müharibə edə bilər?!” Müşriklər doğru nəsihətə qulaq asmayıb, Əbu Cəhlin sözü ilə döyüşə başlayır və nəhayət, məğlub olur. Onlardan yetmiş nəfəri ölür və yetmiş nəfəri də əsir

---

*1.. “Mizanul-hikmət”, bölmə: 1151, hədis: 5471.*

düşür. Tarixə görə, onlar ömürlərinin sonuna qədər bu məğlubiyyəti yadlarından çıxara bilmir.

"Allahdan qorxanlar isə heç kimdən qorxmur və həmişə qalibdirlər!" sözü bir həqiqətdir.

5

# İNFAQDA MÖTƏDİLLİK

Rəhman Allahın həqiqi bəndələrinin beşinci səciyyəsi infaqda mötədillikdir. Allah-Taala "Furqan" surəsinin 67-ci ayəsində bu barədə buyurur:

وَالَّذِينَ إِذَا أَنفَقُوا لَمْ يُسْرِفُوا وَلَمْ يَقْتُرُوا وَكَانَ بَيْنَ ذَلِكَ قَوَامًا

***"(Rəhman Allahın həqiqi bəndələri Allah yolunda) infaq edəndə (xərcləyəndə) nə israfa yol verər, nə də xəsislik edər və ikisinin arasında orta həddi gözləyərlər."***

Bu ayə ilə əlaqədar bir neçə incə mətləb diqqəti özünə cəlb edir:

1. Ayədən başa düşülür ki, ilahi övliyalar və bəndələrin daimi proqramlarından biri də yoxsullara kömək etməkdir. Bu ayədə "infaq"dan yox, "infaqda mötədillik"dən söz açılır.

2. "İnfaq" insanın sahib olduğu ilahi nemətlərə möhtacları şərik etməsinə deyilir. Tərifdə qeyd olunan "sahib olduğu ilahi nemətlər" dedikdə, insanın sahib olduğu hər bir şey aiddir: mal-dövlət, sərvət, qida məhsulları, elm və bilik, abır-həya, məqam, mövqe və vəzifə, bir sözlə, hər bir şey Qurani-Kərimdə buyurulduğu kimi, ruzi verilənlərdən Allah yolunda yoxsullara xərcləmək ilahi bəndələrə xas olan səciyyələrdəndir.[1]

---

*1.. "Bəqərə" və "Ənfal" surəsi, ayə 3; "Həcc" surəsi, ayə 35; "Qəsəs" surəsi, ayə 54; "Səcdə" surəsi, ayə 16; "Fatir" surəsi, ayə 29; "Şura" surəsi, ayə 38.*

3. İnsanın xərclərdə həddi aşmasına “israf”, ilahi nemətləri zay etməsinə isə “təbzir” deyilir. Misal üçün, əgər bir şəxs on nəfəri qonaq çağırıb, onlara on növ yemək hazırladığı halda, bütün yemək növləri yeyilsə belə, o, “israf”a yol vermiş, əgər onlara əlli nəfərlik yemək hazırladığı surətdə onun yarısı istifadə olunmayıb qalanı isə zibilliyə atılarsa isə “təbzir”ə yol vermişdir.

Bəzən, “israf” təbzir” mənasını versə də, hər ikisi bir cümlədə qeyd edildikdə, mənaları fərqlənir.

“Təqtir” sözü “dardüşüncəlilik”, “möhkəmlik” və “xəsislik” mənalarını bildirir.

4. “Qəvam” “israf”la “təqtir” arasındakı hala, yəni mötədillik və orta həddə, “qivam” isə orta hədi qoruyan vasitəyə deyilir.

Sözügedən ayənin qısa təfsirindən sonra “infaq”, onun İslamda mövqeyi və “infaqda orta hədd” kimi mətləblərin araşdırılması zəruri nəzərə çarpır.

### *İNFAQIN İSLAMDA MÖVQEYİ*

Qeyd edilən mənaya əsasən, infaq həqiqətdə yaradılış aləminə hakim ümumi bir qanundur və bütün məxluqat ona əməl edir və hər biri öz dairəsində xidmətlə məşğuldur. Məsələn, dünyanı işıqlandıran günəş daim infaq halındadır – bütün dünya varlıqları onun nur və istiliyindən bəhrələnir, o isə onlara möhtac deyil və hər gün infaqı nəticəsində çəkisi azalır. Yaşadığımız yer kürəsi də yeraltı və yerüstü xəzinələrini öz sakinlərinə – insanlara, heyvanlara, həşəratlara, quşlara və digər varlıqlara daim infaq etməkdədir.

Heyvanlar da biz insanlara infaq edir – bal arısı şirin balını, südverən heyvanlar dadlı südünü və əti halal olan heyvanlar bütün varlığını insanlara hədiyyə edirlər.

Bir sözlə, varlıq aləmində bütün məxluqatı “infaq” qanununa tabedir.

İnsanlar varlıq aləmində yeganə məxluqdurlar ki, ümumi “infaq” qanunundan üz çevirib paxıllıq və xəsisliyə yol verirlər. Halbuki onlar da digər varlıqlar kimi, başqalarını öz imkanlarında şərik etməli, mal-dövlətindən, sərvət, vəzifə, elm və bilik, abır-heysiyyət, bir sözlə, “infaq” qanunu ilə uzlaşmalıdırlar. Quran ayələrində möhtac və yoxsullara yardımla bağlı ciddi göstərişlər gözə dəyir ki, burada onların bəzilərini qeyd etməklə kifayətlənirik:

1. “Hədid” surəsinin 7-ci ayəsində “infaq”la əlaqəli incə bir ibarə işlənib:

آمِنُوا بِاللَّهِ وَرَسُولِهِ وَأَنفِقُوا مِمَّا جَعَلَكُم مُّسْتَخْلَفِينَ فِيهِ فَالَّذِينَ آمَنُوا مِنكُمْ
وَأَنفَقُوا لَهُمْ أَجْرٌ كَبِيرٌ

***“Allaha və Onun Peyğəmbərinə iman gətirin və sizi üzərində (özünə) canişin etdiyi şeydən (mallardan Allah yolunda) xərcləyin. Beləliklə, sizdən iman gətirib (Allah yolunda mallarını) xərcləyənlərin (axirətdə) böyük mükafatı olacaq.”***

Bu ayədə iki incə mətləb diqqəti özünə cəlb edir:

a) İnfaqın imandan sonra dərhal qeyd edilməsi onun böyük əhəmiyyətini aşılayır.

b) Ayədə buyurulur ki, ***”sizi üzərində özümə canişin etdiyim şeydən (mallardan Allah yolunda) xərcləyin.”*** Yəni sahib olduğunuz mal-dövlət özünüzün deyil və onun həqiqi maliki Allahdır. Onu bir neçə günlük sizin ixtiyarınıza vermişdir ki, həm özünüz bəhrələnəsiniz, həm də başqalarına kömək edəsiniz. Həqiqi malik Allah, biz isə Onun əmanətdarlarıyıq və bir müddət sonra

ölüm bizi haqlayaraq, sahib olduqlarımızdan ayıracaq. Şübhəsiz, Allah yolunda xərclənənlər isə əbədidir. Necə ki, "Nəhl" surəsinin 96-cı ayəsində belə buyurulur:

مَا عِندَكُمْ يَنفَدُ وَمَا عِندَ اللّهِ بَاقٍ

***"Sizin yanınızda olan tükənir və puç olur, Allahın yanında olan isə daimi və əbədidir."***

2. "Ənfal" surəsinin 2-4-cü ayələrində "infaq"ın yüksək məqamı belə təsvir olunur:

إِنَّمَا الْمُؤْمِنُونَ الَّذِينَ إِذَا ذُكِرَ اللّهُ وَجِلَتْ قُلُوبُهُمْ وَإِذَا تُلِيَتْ عَلَيْهِمْ آيَاتُهُ زَادَتْهُمْ إِيمَانًا وَعَلَى رَبِّهِمْ يَتَوَكَّلُونَ. الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ وَمِمَّا رَزَقْنَاهُمْ يُنفِقُونَ. أُوْلَـئِكَ هُمُ الْمُؤْمِنُونَ حَقًّا لَّهُمْ دَرَجَاتٌ عِندَ رَبِّهِمْ وَمَغْفِرَةٌ وَرِزْقٌ كَرِيمٌ

***"Möminlər yalnız o kəslərdir ki, Allah zikr olunduqda qəlbləri qorxar, Onun ayələri onlara oxunan zaman imanlarını artırar və daim öz Rəblərinə təvəkkül edərlər. Onlar namaz qılar və (həm maddi, həm də mənəvi) ruzi verdiyimizdən (Allah yolunda) xərcləyərlər. Onlardır həqiqi möminlər! Onlar üçün Rəblərinin yanında dərəcələr, məğfirət, gözəl və bəyanilmiş ruzi vardır."***

Bu ayələrə əsasən, möminlər beş xüsusiyyətə malikdirlər:

1. Allahın adının zəhmindən qorxu hissi;
2. İmanın artımı;
3. Allaha təvəkkül;
4. Namaz qılmaq;
5. Allah yolunda infaq.

Diqqəti cəlb edən odur ki, ayənin əvvəli, sonu bu xüsusiyyətlərə malik olanları mömin adlandırır, onlardan qeyrilərini isə möminlərin zümrəsindən kənar

hesab edir. Yəni infaq etməyən və malını Allah yolunda xərcləməyən müsəlman şəxs mömin sayılmır.

### *İNFAQLA BAĞLI ƏSAS MƏSƏLƏLƏR*

Qurani-Kərimdə qeyd olunduğu kimi, möhtaclara infaq və yardımla bağlı bir sıra məsələlər önəmli sayılır:

1. Nə infaq edək?
2. Kimlərə edək?
3. Nə qədər edək?
4. Necə infaq edək?

### 1. NƏ İNFAQ EDƏK?

Bu suala "Ali-İmran" surəsinin 92-ci ayəsində belə cavab verilir:

لَن تَنَالُواْ الْبِرَّ حَتَّى تُنفِقُواْ مِمَّا تُحِبُّونَ وَمَا تُنفِقُواْ مِن شَيْءٍ فَإِنَّ اللّهَ بِهِ عَلِيمٌ

***"Sevdiyiniz şeylərdən (Allah yolunda) xərcləməyincə əsla (kamil) yaxşılığa nail ola bilməzsiniz. Allah şübhəsiz ki, (Onun yolunda) xərclədiyiniz hər şeyi biləndir."***

Bu ayəyə əsasən, infaq malın ən yaxşısından olmalıdır ki, infaq edən şəxs xeyirxahlığın zirvəsinə nail ola bilsin. Maraqlı bir hədisdə belə oxuyuruq: "İmam Sadiq (ə) həmişə "şəkər" infaq edərdi. O həzrətdən: "Nə üçün şəkər infaq edirsiniz?" – deyə soruşduqda, Həzrət buyurdu: *"Mən şəkəri çox istəyirəm. Allah-Taala Qurani-Kərimdə göstəriş verir ki, sevdiyiniz şeylərin ən yaxşısından Allah yolunda xərcləyin. Buna görə də, möhtaclara şəkər paylayıram."*[1]

İmam Rzanın (ə) əhvalatında belə oxuyuruq: "Süfrə

*1.. "Nurus-səqəleyn", 1-ci cild, səh.363, hədis: 235.*

açıldıqda, böyük bir qab gətizdirib, ona hər yeməkdən bir miqdar tökərək tövsiyə edərdi ki, onları möhtaclara paylasınlar. Özü isə bundan sonra süfrəyə əl uzadardı."[1]

Deməк, yaxşılıq və xeyirxahlığın zirvəsinə nail olmaq istəyənlər dünya malına bağlılığı qırmaq üçün Allah yolunda keyfiyyətli mallardan xərcləməlidirlər. Əlbəttə, bunun mənası o deyil ki, bəyənilməyən, xüsusilə, ehtiyacsız qalan malları möhtaclara vermək olmaz, əksinə "birr" (yaxşılıq və xeyirxahlıq) məqamına çatmaq üçün malın ən yaxşısını bəxş etmək lazımdır.

## 2. KİMLƏRƏ KÖMƏK EDƏK?

"Bəqərə" surəsinin 215-ci ayəsində bu suala belə cavab verilir:

قُلْ مَا أَنفَقْتُم مِّنْ خَيْرٍ فَلِلْوَالِدَيْنِ وَالأَقْرَبِينَ وَالْيَتَامَى وَالْمَسَاكِينِ وَابْنِ السَّبِيلِ وَمَا تَفْعَلُواْ مِنْ خَيْرٍ فَإِنَّ اللّهَ بِهِ عَلِيمٌ

***"Xərclədiyiniz malı ata-ana, yaxınlar, yetimlər, yoxsullar və yolda qalanlar üçün nəzərdə tutun. Şübhəsiz, Allah etdiyiniz hər bir yaxşı işi bilir."***

Bu ayəyə əsasən, bu şəxsin ata-anası möhtacdırsa, hamıdan əvvəl onlara, sonra yaxın-qohumlara, sonra isə başqalarına – yetimlərə, başsız ailələrə, cəmiyyətin yoxsullarına və nəhayət, yolda qalanlara kömək etməlidir. Beləcə, verilən tərtibi gözləmək lazımdır?

## 3. NƏ QƏDƏR KÖMƏK EDƏK?

Sözügedən və digər ayələrdə qeyd olunduğu kimi, infaqda ifrat və təfritə yol verilməməlidir. Çünki ifrata varan öz əhli-əyalını sıxıntıya sala bilər, təfritə yol verən

---

*1.. "Müntəhəl-amal", 2-ci cild, səh.174.*

də möhtacları öz imkanlarından məhrum edər. Deməli, bu məsələdə də insaf və orta hədd şərtdir.

### 4. NECƏ KÖMƏK EDƏK? (BAŞQALARINI MALIMIZA NECƏ ŞƏRİK EDƏK?)

Burada belə bir sual yaranır ki, yardım zamanı daha nəyə riayət edilməlidir? Məsələn, yoxsula "Bu pulu al və bir daha gözümə görünmə!" – kimi ifadələr deməyə haqqımız varmı?

Allah-Taala minnətlə olan sədəqə və köməkləri qətiyyən bəyənmir və hətta bunu riyakarcasına verilən və Allahın razılığı güdülməyən infaqlar sırasına qatır.[1] İslam baxımından mömininin abır-heysiyyəti böyük əhəmiyyət kəsb edir. İslam bir müsəlmanın abır-heysiyyətinin ləkələnməsinə əsla icazə vermir. Qurani-Kərimin "Bəqərə" surəsinin 26-cı ayəsində buyurulur:

قَوْلٌ مَّعْرُوفٌ وَمَغْفِرَةٌ خَيْرٌ مِّن صَدَقَةٍ يَتْبَعُهَآ أَذًى وَاللّهُ غَنِيٌّ حَلِيمٌ

***"Xoş bir söz və (dilənçilərin israr və kobudluqlarını) güzəşt, ardınca əziyyət verən sədəqədən daha yaxşıdır. Allah ehtiyacsız və həlimdir."***

Bu ayəyə əsasən, yoxsulu ədəb-ərkan və ehtiramla əliboş geri qaytarmaq minnət və əziyyətlə yanaşı olan müsbət cavabdan daha yaxşıdır. Ədəb və ehtiramla yanaşı infaqın və kömək edə bilmədiyi surətdə yoxsuldan üzrxahlığın hər ikisi gözəldir! Bu yüksək mənəvi hal məsum imamların rəftarlarında da gözə dəyir. Məsələn, aşağıdakı əhvalata diqqət yetirək:

"Bir nəfər yoxsul imam Həsən Müctəbanın (ə) evinin qapısını döyüb belə deyir:

---

*1.. "Bəqərə" surəsi, ayə:264.*

لَم يَبْقِ لِى شَىْءٌ يُباعُ بِدِرْهَمٍ          يَكْفِيكَ مَنْظَرُ حالَتِى عَنْ مُخْبِرِى

إِلّا بَقايا ماءُ وَجْهِى صُنْتُهُ          أَلَا يُباعُ وَ قَدْ وَجَدْتُكَ مُشْتَرِى

“Ey Peyğəmbər övladı! Dolanmaq üçün satmağa bir şeyim qalmayıb. Bunu çöhrəmdən özünüz müşahidə edə bilərsiniz. Əlbəttə, qoruyub-saxladığım bir az abır-heysiyyətim qalmışdır ki, sizi ona münasib müştəri hesab edirəm.” İmam Həsən (ə) öz əmanətdarını çağırıb soruşur: “Nə qədər pul qalıb?” O deyir: “On iki min dirhəm.” İmam (ə) buyurur: “Onu bu kişiyə ver.” Sonra İmam (ə) onu çağırıb üzr istəyərək buyurur: “Biz sənin haqqını ödəyə bilmədik, əlimizdə olan elə bu idi!” İmam (ə) bunu dedikdən sonra özü də belə bir beyt söyləyir:

خُذِ الْقَلِيلَ وَ كُنْ كَانَّكَ لَمْ تَبِعْ          ما صُنْتَهُ وَ كَانَّنا لَمْ نَشْتَرِ

*“Bu azacıq malı götür və elə bil ki, nə sən bir mal satmısan, nə də biz bir mal almışıq (sənin abır-heysiyyətin verilənlərdən qat-qat qiymətlidir).”*[1]

İmam Həsənin (ə) bu rəftarı infaqda ədəb-ehtiramın son həddi, yardımın ən gözəl nümunəsidir.

***İNFAQIN TƏSİRLƏRİ***

Qurani-Kərimdə göstərildiyi kimi, yardımın qəribə təsirləri var. Məsələn, “Bəqərə” surəsinin 261-ci ayəsində buyurulur:

مَّثَلُ الَّذِينَ يُنفِقُونَ أَمْوَالَهُمْ فِي سَبِيلِ اللّهِ كَمَثَلِ حَبَّةٍ أَنبَتَتْ سَبْعَ سَنَابِلَ فِي كُلِّ سُنبُلَةٍ مِّئَةُ حَبَّةٍ وَاللّهُ يُضَاعِفُ لِمَن يَشَاء وَاللّهُ وَاسِعٌ عَلِيمٌ

***“Mallarını Allah yolunda xərcləyənlər misalı yeddi***

1.. *“Müntəhəl-amal”, 1-ci cild, səh.162.*

***sünbül cücərdən və onların hər birində yüz (ədəd) dən olan toxum kimidirlər. Allah bunu (hikmət üzrə) istədiyi şəxs üçün neçə qat artırar. Allah geniş (rəhmət sahibi) və hər şeyi biləndir."***

Diqqəti cəlb edən odur ki, Allah yolunda infaq insanı yeddi yüz qat və ondan da uca dərəcələrə qaldırır.

***ORTA HƏDD***

İnfaqda orta hədd və ya Quran ifadəsi ilə desək, "qivam" ən səciyyəvi xüsusiyyətlərdəndir. Onun ifrat tərəfi "israf", təfrit tərəfi isə "xəsislik"dir ki, hər ikisi İslamda məzəmmət olunur. Rəhman Allahın həqiqi bəndələri malını Allah yolunda xərclədiyi zaman orta həddi gözləyərək nə israfa yol verir, nə də xəsislik edirlər. İmam Sadiq (ə) yerdən bir ovuc çınqıl götürüb əlində sıxaraq buyurur: "Bu, xəsislikdir." Sonra o biri əlini çınqılla doldurub elə açır ki, hamısı yerə tökülür. Həzrət buyurur: "Bu da israfdır." Üçüncü dəfə ovcunu doldurub bir qədər açdıqda, çınqıllardan yerə töküldüyü qədər də əlində qalır. Həzrət buyurur: "Bu, Qurani-Kərimdə buyurulan səxavət və orta həddir."[1]

***BAŞQA BİR NÜMUNƏ***

"İsra" surəsinin 26-29-cu ayələrində "infaq" daha dəqiq və gözəl bəyan olunur:

وَآتِ ذَا الْقُرْبَى حَقَّهُ وَالْمِسْكِينَ وَابْنَ السَّبِيلِ وَلاَ تُبَذِّرْ تَبْذِيرًا

***"Qohumların, yoxsulun və yolda (möhtac) qalmışın haqqını ver və heç bir şəkildə israf və artıq xərc etmə."***

Bu ayədə müəyyən olunan qruplara yardım "haqq" kimi qeyd edilir. Yəni bu onların hüququdur və onlara

*1.. "Nurus-səqəleyn", 4-cü cild, səh.29.*

borclu olan sizsiniz. Belə isə, onların haqqını ödəyin və eyni zamanda israf edib həddinizi aşmayın.

إِنَّ الْمُبَذِّرِينَ كَانُواْ إِخْوَانَ الشَّيَاطِينِ وَكَانَ الشَّيْطَانُ لِرَبِّهِ كَفُورًا

***"Həqiqətən, mallarını (haram və batil yolda) dağıdanlar, şeytanların qardaşları (dostları və tərəfdaşları)dır və şeytan həmişə Rəbbi qarşısında çox kafir və nankor olub."***

Bu ayədə qeyd olunanlara, yəni israf və artıq xərclərə dair ciddi xəbərdarlıqlar gözə dəyir.

**Sual:** "Nə üçün israf edənlər şeytanın qardaşları sayılır?"

**Cavab:** Şeytan yer üzündə fitnə-fəsadın simvoludur və israf edənlər də fitnə-fəsadla ona qoşulurlar. Həqiqətdə, həddi aşmaqla ilahi nemətlərə qarşı nankorluq fitnə-fəsad saılır! Bu özü ictimai böhranların, maliyyə fəsadlarının qaynağıdır. Çox vaxt bayram mərasimlərində, şənliklərdə, hətta başqalarına ibrət dərsi olan matəm məclislərində də insanı heyrətə gətirən xərclərə yol verilir. Hamıya məlum olduğu insanların dini və dünyəvi problemlərini əsla həll etməyə qadir olmayan və daim yoxsul və ac insanların gözləri önündə keçirilən dövlətsəviyyəli seminarlar, konfrans və konqreslərə daha böyük büdcələr ayrılır. Həmişə millət və xalqları hərəkat və ya etiraz aksiyalarına qaldıran siyasi hadisələr yox, çox vaxt iqtisadi amillər olur. Özlərini gündəlik yeməklə təmin etməyə qadir olmayanlar daim belə israfçılıqları, saxta seminar və toplantıları gördükcə, səbirləri tükənərək etirazlara başlayırlar və bütün bunlarla israf və artıq xərclərdən doğan fəsadlardan əmələ gəlir.

Demək, israfçılarla şeytanlar ictimai fəsadları

törətməkdə müştərəkdirlər. Qurani-Kərimdə buyurulur:

وَإِمَّا تُعْرِضَنَّ عَنْهُمُ ابْتِغَاء رَحْمَةٍ مِّن رَّبِّكَ تَرْجُوهَا فَقُل لَّهُمْ قَوْلاً مَّيْسُورًا

***"Əgər Rəbbin tərəfindən umduğun rəhmət ümidi ilə (əlin boş olduğuna görə) onlardan üz çevirməli olarsansa, (heç olmazsa,) onları yumşaq dillə yola sal!"***

Bu ayədə əliboş qaytarılan yoxsulla necə rəftardan söz açılır. Əgər insan ona əl açanın maddi ehtiyaclarını ödəməyə gücü çatmırsa, onu ülfət və məhəbbətlə sirab etməli, gözəl və könüloxşayan sözlərlə yola salmalıdır.

Mehriban və bağışlayan Allah birinci ayədə artıq xərcləri pisləyir, ikinci ayədə yoxsullarla rəftar tərzini öyrədir və üçüncü ayədə isə israf və xəsisliyi qadağan edərək buyurur:

وَلاَ تَجْعَلْ يَدَكَ مَغْلُولَةً إِلَى عُنُقِكَ وَلاَ تَبْسُطْهَا كُلَّ الْبَسْطِ فَتَقْعُدَ مَلُومًا مَّحْسُورًا

***"Əlini bağlayıb boynuna qoyma (Allah yolunda xərcləməkdə xəsislik etmə) və onu tamamilə də açma (özün möhtac olacağın həddə qədər vermə) ki, məyus və aciz qalasan."***

Eyni mövzudan söz açan bu ayənin nazilolma səbəbini belə izah edirlər: "Bir gün Peyğəmbəri-Əkrəm (s) köynəyini yuyub namaz qılmaq üçün məscidə getməyə hazırlaşırdı. Bu vaxt bir dilənçi o həzrətin evinin qapısını döyərək libas istəyir. Həzrət həmin köynəyi ona verir və özü isə libassız evdə qalmalı olur. Namaz vaxtı çatır və azançı azan deməyə başlayır. Müsəlmanlar dəstə-dəstə məscidə gəlsələr də, Peyğəmbəri-Əkrəmdən (s) xəbər olmur. Nəhayət, Həzrətin evinə gəlib, onun köynəyini

diləncіyə verdiyini və məscidə gəlmək üçün başqa bir libası olmadığını anlayırlar. Bu zaman sözügedən ayə nazil olaraq müsəlmanlara infaqda orta həddi gözləməyi tövsiyə edir."[1]

### *İSRAFA DAİR RƏVAYƏTLƏR*

Rəvayətlərdə israf məsələsinə xüsusi yer ayrılır və dinin məsum rəhbərləri də bu ictimai bəlanın incəliklərinə diqqət yetirmişlər. Günümüzdə israfla bağlı imam Sadiqdən (ə) nəql olan yalnız bu bir rəvayətə əməl olunarsa, dünyada yoxsul tapılmaz. Təkcə israfın qabağını almaqla bütün yoxsulları təmin etmək olar! Həmin rəvayətə diqqətlə nəzər yetirək: "İçilən suyun artığını (stəkanın dibində qalan suyu) tullamaq, qonaqlıq (çöl) libasını evdə geyinmək və xurmanın toxumunu atmaq israfın ən aşağı həddi sayılır."[2]

Bu rəvayətə əsasən, israfa yol verilən hallar daha çoxdur. Məsələn, adi sudan istifadədə nə qədər israfa yol verilir. Odur ki, ilahi bəndələr içdikləri suyun da həddini qoruyur, onu israf etmirlər. Yalnız insanın çöl paltarı ilə ev paltarı ilə fərqlənməlidir; çöl paltarı insanın abır-həyasını qorumaq üçündür. (Buna görə də, ərəblər həmin paltara "əs-sovbus-sovn" – qoruyan paltar deyirlər.) İslama görə, çöl və qonaqlıq paltarını evdə geyinmək israfdır. Daha geniş mənada desək, müsəlman şəxs hər şeydən ən yaxşı şəkildə istifadə etməlidir. Məsələn, çörək bişirmək üçün adi xurma tumlarını da təndirə atmaq olar. Xüsusən, bizim zamanımızda heç bir şey istifadəsiz və faydasız deyildir. Hətta zibillər də gübrəyə çevrilir, yaxud yenidən istehsal edilir və kanalizasiya suları

1.. *"Təfsiri-nümunə", 12-ci cild, səh.91.*

2.. *"Mizanul-hikmət", bölmə: 1802, hədis: 8496.*

belə əkin sahələrini suvarmaq üçün müasir cihazlardan süzülərək saflaşdırılır.

İmam Sadiq (ə) bu hədisi o zaman buyurub ki, zibil tullantıları və çirkli suların istifadəsi üçün indiki imkanlar əsla mövcud deyildi. Bu da öz növbəsində bir möcüzədir! Cəmiyyətdən yoxsulluğu qaldırmaq üçün İslamın dəyərli göstərişləri çox olsa da, çağdaş dünyamızda, hətta müsəlmanlar və şiələr arasında belə hədsiz dərəcədə israfçılıqlara yol verilir. Böyük xətib və söz ustası mərhum Fəlsəfi deyirdi: "Günlərin birində bir məclisə dəvət olunmuşdum. İqtisad elmləri doktoru olan bir nəfər ayağa qalxıb, ölkənin iqtisadi vəziyyəti ilə bağlı çıxış etdi və ölkənin böhranda olduğunu bildirdi. Nəhayət, süfrə açıldı və qarşıya növbənöv yeməklər düzüldü. Cənab Doktor əlinə bir boşqab götürüb, onu həmin yeməklərlə doldurdu. Ondan bir neçə qaşıq yedikdən sonra əlini yeməkdən çəkərək siqaret çəkməyə başladı və külünü də boşqabda artıq qalanların üstünə tökdü! Mən bu səhnədən təəssüflənərək ona dedim: "Cənab Doktor, siz özünüz iqtisad üzrə söhbətinizlə başımızı ağrıtdınız. Axı, nə üçün boşqabınıza bu qədər yemək töküb onu yemirsiniz və hələ siqaretinizin külünü də onun üstünə tökərək başqalarının istifadəsinə mane olursunuz! Siz bu rəftarınızlamı ölkənin iqtisadiyyatını düzəltmək istəyirsiniz?"

Təəssüflər olsun ki, israf ümumdünyəvi bəlaya çevrilib. Maraqlıdır ki, bəzi inkişaf etmiş ölkələrdə mallarının qiymətini sabit saxlamaq üçün şirkət və fabriklər artıq qalan məhsullarını tullantı kimi atırlar.

### *İMAM ƏLİ (Ə) VƏ İSRAFÇILAR*

Peyğəmbərin (s) canişini və müsəlmanların rəhbəri

imam Əliyə (canlar ona fəda olsun) xəbər verdilər ki, təyin etdiyin vali cənab Osman ibn Hənif təntənəli qonaqlığa dəvət olunub. Həzrət bu hadisəni eşidən kimi, əlinə qələm alıb valisinə sərt bir məktub yazdı və onu bu işə görə danladı! Bu dəyərli məktubun üstündən min ildən çox keçsə də, hələ köhnəlməmişdir. "Quranın bacısı" ləqəbini alan "Nəhcül-bəlağə" vəhy kəlamı kimi, hələ də yenidir. Həmin məktubun bur hissəsində buyurulur: "Ey Osman! Əgər istəsəydim, balın, buğdanın təzəsini yeyər, ipəkdən paltarlar geyinərdim. Ancaq Hicazda bir çörək belə tapa bilməyən və toxluğun nə olduğunu dadmayan nə qədər insan var ikən, necə ləzzətə dala bilərəm?! Ətrafımda ac qarınlar, susuzluqdan yanan ciyərlər var ikən, gecəni necə tox yata bilərəm?!"[1]

İmam Əli (ə) bu rəftarı ilə ən azı möhtacların dərdinə şərik olaraq bildirir ki, yaşayışınız münasib olmasa da, rəhbəriniz də arpa çörəkdən yaxşısını yemir! Görəsən, dünyada belə rəhbər tapmaq olarmı ki, öz hakimi və nümayəndəsini təntənəli qonaqlıqda iştirak etdiyinə görə sorğu-suala tutsun və özü də yalnız ümumcamaatın səthinə uyğun həyat tərzi keçirsin! Şübhəsiz, cavab mənfidir. Odur ki, dünya imam Əlinin (ə) əzəməti və böyük ruhu müqabilində baş əyir və böyük xristian alimi o həzrəti insanlığın ədalət şüarı adlandırır.

*1.. "Nəhcül-bəlağə", məktub: 45.*

6

# ŞİRKDƏN UZAQLIQ

“Furqan” surəsinin 68-ci ayəsində rəhman Allahın həqiqi bəndələrinin daha üç səciyyəsi vurğulanır və sonrakı ayələrdə (69, 70 və 71-ci ayələr) bu səciyyə ilə bağlı bəzi mətləblərə toxunulur:

وَالَّذِينَ لَا يَدْعُونَ مَعَ اللَّهِ إِلَهًا آخَرَ وَلَا يَقْتُلُونَ النَّفْسَ الَّتِي حَرَّمَ اللَّهُ إِلَّا بِالْحَقِّ وَلَا يَزْنُونَ وَمَن يَفْعَلْ ذَلِكَ يَلْقَ أَثَامًا

***“(Rəhman Allahın həqiqi bəndələri) Allahla birgə başqa məbud çağırmır, (qisas, şəri cəza və bu kimi) haqq (qətllər) istisna olmaqla Allahın möhtərəm və toxunulmaz etdiyi canı öldürmür və zina etmirlər. Kim bunları etsə, (ağır) bir cəza ilə qarşılaşacaqdır.”***

يُضَاعَفْ لَهُ الْعَذَابُ يَوْمَ الْقِيَامَةِ وَيَخْلُدْ فِيهِ مُهَانًا

***“Qiyamət günü onun əzabı ikiqat olar və xarlıqla həmişə həmin əzabda qalar”***

**Sual:** Nə üçün belə insanların qiyamət günü əzabları ikiqat olacaqdır?

**Cavab:** Zahirən, ümumi və ictimai xarakter daşıyan bu sayaq günahlar başqalarını da günaha sövq etdiyindən cəzasına da şərik edilir. Haram işin təşviqi nəticəsində kimsə ona qurşanarsa, səbəbkarı da günahına şərikdir. İnsanlar eynilə halal işlərin təşviqi nəticəsində onların savabına şərik ola bilirlər. İslam Peyğəmbərindən (s)

nəql olunan bir hədisdə buyurulur: "Kim özündən sonra gözəl bir adət-ənənə qoyarsa, öz mükafatı ilə bərabər ona əməl edənlərin savabına da şərik olar və kim özündən sonra pis adət-ənənə qoyarsa, öz günahı ilə bərabər ona əməl edənlərin də günahında şərik sanılar."[1]

إِلَّا مَن تَابَ وَآمَنَ وَعَمِلَ عَمَلًا صَالِحًا فَأُوْلَئِكَ يُبَدِّلُ اللَّهُ سَيِّئَاتِهِمْ حَسَنَاتٍ وَكَانَ اللَّهُ غَفُورًا رَّحِيمًا

***"Amma tövbə edib, iman gətirən və yaxşı işlər görənlər istisnadırlar. Allah onların günahlarını yaxşılıqlara çevirər (gələcəkdə yaxşı işlər görmələrinə kömək edər və yaxud keçmiş günahlarını məhv edərək onların yerinə yaxşılıq yazar). Allah bağışlayan və mehribandır."***

Müşriklərin, qatillərin və zinakarların cəza və əzabları ağır və ikiqat olsa da, Allah-Taala onların qayıdışı üçün yolu açıq qoyur və tövbə edərək Allaha iman gətirən və yaxşı işlər yerinə yetirənləri istisna edir.

Bu ayə ilə bağlı bir neçə incə mətləb diqqəti cəlb edir:

1. İnsan nəfəs çəkdiyi və bu dünyaya göz yumduğu vaxta qədər tövbə edə bilər və hətta böyük günahları da olsa, Allaha qayıdış yolu açıqdır.

2. Günah insanın imanını azaldır və onu yenidən əldə etmək üçün təkcə tövbə bəs deyil.

3. Tövbə və imanla yanaşı, keçmiş günahlar barədə də düşünmək lazımdır. Başqa sözlə, dildə "istiğfar" etməklə tövbə hasil olmur. Haqq yola qayıdanın rəftarlarında tövbənin təsir və əlamətləri görünməlidir. Demək, tövbə edən şəxs yaxşı və saleh əməllərlə keçmiş günah və xətalarını ört-basdır etməli, həmin miqdarda

*1.. "Kənzul-ummal", hədis 43079.*

yaxşı işlər yerinə yetirməlidir.

4. Allah-Taala tövbə edənlərin tövbəsini və keçmiş günahlarını bərpa edən yaxşı əməllərini qəbul etdiyi kimi, əzab və cəzalarını da aradan qaldırır, onları Öz lütf və mərhəmətilə qarşılayır:

وَمَن تَابَ وَعَمِلَ صَالِحًا فَإِنَّهُ يَتُوبُ إِلَى اللَّهِ مَتَابًا

***"Tövbə edib, yaxşı işlər görənlər o, gözəl və bəyənilən şəkildə Allaha tərəf qayıdarlar."***

Günahkar insan Allaha arxa çevirir və Ondan uzaqlaşırsa, tövbə ilə Allaha üz tutur və Ona yaxınlaşır. Allah da günahkar bəndədən üz çevirdiyi və onu bəzi nemətlərindən məhrum etdiyi kimi, peşman olub tövbə edən günahkar bəndəsinə də üz tutur, ondan aldığını geri qaytarır. Demək, tövbə bəndə ilə Allah arasında rabitədir, bəndə günahından tövbə edərək Allaha qayıdır, Allah da bəndəsinə rəhmət gözü ilə baxaraq aldığı nemətini geri qaytarır!

### *ŞİRK VƏ TÖVHİD*

Burada şirk və tövhidlə əlaqəli üç mühüm məsələni qeyd etməyi lazım bilirik:

#### ŞİRKİN QAYNAĞI

**Sual:** Şirkin qaynağı nədir?

İnsan meydana gəldiyi gündən peyğəmbərlər və övliyaların tövhid və təkallahlığa dəvətini eşitdiyi surətdə onu şirkə və zəlalətə salan amillər hansılardır?

Bəzi rəvayətlərə əsasən, İslam Peyğəmbəri (s) risalət və peyğəmbərliyinin ilk on ilini yalnız tövhid və təkallahlığa həsr etmiş və o həzrətin əsas şüarı "Qul la ilahə illəllahə tuflihu" (Allahdan başqa məbud yoxdur –

deyin və nicat tapın) olmuşdur.

İnsanlarda tövhid hissinin fitri olduğunu, Allaha sitayişin onların daxilində əmanət qoyulduğu halda nə üçün tarixdə bu qədər şirk və bütpərəstliyin əlamətləri görünür? Bir sözlə, fitrət və peyğəmbərlərin dəvəti insanı təkallahlığa çağırdığı halda, onu şirkə yönəldən nədir?

**Cavab:** Bir çox məsələlər şirkin qaynağı ola bilər. O cümlədən:

**1. Cəhalət və nadanlıq:** Nadan insan təbiətin fövqündə duran amilləri qəbul edə bilmədiyindən daha çox hiss üzvlərinə dərk olunan maddi varlıqlara üstünlük verir. Belələrinin fikrincə gözə görünməyənləri varlıq hesab etmək ağlasığmazlıqdır. Odur ki, zahiri timsalı olan büt və sairə pərəstişi məntiqəuyğun hesab edirlər. İslam elə ilk gündən cəhalət və nadanlıqla mübarizə aparmış, dinin böyük rəhbərləri həmişə insanları ən uzaq məntəqələrə olsa belə, elm və biliyin ardınca getməyi tövsiyə etmişlər.

**2. Ölüm haqda yanlış təsəvvür:** Keçmiş zamanlarda peyğəmbər kimi ilahi şəxslərin dünya ilə vidalaşması ardıcıllarına ağır və dözülməz olurdu. Onlar peyğəmbərin adı və xatirəsini yaşatmaq üçün müəyyən tədbirlər görsələr də, bilərəkdən və ya nadanlıq üzündən bir sıra təhriflərə də əl atırdılar. Nəsillər ötdükcə, belə şəxslər müqəddəsliyin timsalı kimi hətta pərəstişə yüksəldilir, büt və heykəlləri düzəldərək ilkin fəlsəfəsi unudulur və birbaşa ibadət motivlərinə çevrilirdilər. Cəhalət və nadanlıq hökm sürdüyü yerdə şirk və bütpərəstliyə meyillər daha artıq olur. Elm və bilik insanları tövhidə çəkirsə, cəhalət isə şirk və bütpərəstliyə yönəldir.

Həqiqətdə peyğəmbərlər bəşəri şirk və bütpərəstlik

adlı qaranlıqdan tövhid və allahpərəstlik nuruna hidayət etmək üçün gəlir.

### QURANİ–KƏRİMDƏ ŞİRKLƏ MÜBARİZƏ

Qurani-Kərimdə heç bir günah barəsində şirk və bütpərəstliyə dair ayələrdəki qədər sərtlik nəzərə çarpmır. O cümlədən:

1. "Nisa" surəsinin 116-cı ayəsində buyurulur:

إِنَّ اللّهَ لاَ يَغْفِرُ أَن يُشْرَكَ بِهِ وَيَغْفِرُ مَا دُونَ ذَلِكَ لِمَن يَشَاء وَمَن يُشْرِكْ بِاللّهِ فَقَدْ ضَلَّ ضَلاَلاً بَعِيدًا

***"Şübhəsiz, Allah Ona şərik qoşulmasını bağışlamaz və ondan başqasını (ondan başqa və ya aşağı günahları) istədiyi şəxs üçün bağışlayar. Allaha şərik qoşan kəs, həqiqətən, çox böyük azğınlığa düşmüşdür."***

Bu ayəyə əsasən, şirkdən başqa hər hansı günahın bağışlanma ehtimalı vardırsa, Allaha şərik qoşduğu halda dünyadan gedənin isə nicatına ümid yoxdur və heç bir şəfaətçi ona yardım edə bilməyəcək.

2. "Maidə" surəsinin 72-ci ayəsində Allah şərik qoşanları daha şiddətlə hədələyir:

مَن يُشْرِكْ بِاللّهِ فَقَدْ حَرَّمَ اللّهُ عَلَيهِ الْجَنَّةَ وَمَأْوَاهُ النَّارُ وَمَا لِلظَّالِمِينَ مِنْ أَنصَارٍ

***"Şübhəsiz, Allah Ona şərik qoşana cənnəti haram edər və onun qalacağı yer oddur! Zalımlara əsla kömək edən olmaz."***

Behişt təkallahçıların yeridir və müşriklərə haramdır.

3. "Həcc" surəsinin 31-ci ayəsində Allaha şərik qoşanların süqut və bədbəxtliyi belə təsvir olunur:

وَمَن يُشْرِكْ بِاللَّهِ فَكَأَنَّمَا خَرَّ مِنَ السَّمَاء فَتَخْطَفُهُ الطَّيْرُ أَوْ تَهْوِي بِهِ الرِّيحُ

فِي مَكَانٍ سَحِيقٍ

***“Allaha şərik qoşan kəs göydən düşərkən quşların qapdığı (ova) və ya (güclü) küləyin sovurub uzaq bir yerə atdığı (quru bitkiyə) bənzəyir.”***

Allaha şərik qoşan tövhid və yeganəpərəstlik fitrətindən üz çevirməklə insaniyyət səmasından süqut edir. Bu süqut onun məhvi üçün kifayətdir. Şirkin həqiqi çöhrəsi üçün bundan aydın misal təsəvvür etmək olmaz.

4. “Loğman” surəsinin 13-cü ayəsində şirk “böyük zülm” adlanır:

وَإِذْ قَالَ لُقْمَانُ لِابْنِهِ وَهُوَ يَعِظُهُ يَا بُنَيَّ لَا تُشْرِكْ بِاللَّهِ إِنَّ الشِّرْكَ لَظُلْمٌ عَظِيمٌ

***“(Yadına sal,) o zamanı ki, Loğman oğluna nəsihət edərkən dedi: “Ey mənim əziz oğlum, Allaha şərik qoşma, çünki şirk olduqca böyük zülmdür.”***

Zülmün böyüklüyü ona məruz qalanla ölçülür və bütün nemətlərin əsl sahibini cansız əşyaların timsalında görmək ən böyük vicdansızlıqdır. Şirklə insan özünə və Allaha zülm edir: Allaha şərik qoşmaqla həddini aşır, bütə səcdə və pərəstişlə isə özünü son dərəcədə xar və zəlil edir.

## TÖVHİDİN ƏHƏMİYYƏTİ

**Sual:** Doğrusu, tövhid və yeganəpərəstliklə şirk və bürpərəstlik arasında bu qədər barışmazlıq nədəndir?

**Cavab:** Dini baxımdan şirk bütün günah və pisliklərin, tövhid isə bütün xeyir və yaxşılıqların mənşəyidir. Hər iki məsələ İslam və digər ilahi dinlərdə böyük əhəmiyyət kəsb edib.

### *İMAM ƏLİNİN (Ə) NƏZƏRİNDƏ DÜNYA*

İmam Əli (ə) Təlhə və Zübeyrin qaldırdığı fitnəni yatırtmaq üçün ordusu ilə Bəsrəyə doğru hərəkət edib, İraqla Hicaz arasındakı məntəqələrin birində düşərgə saldı. İstirahət zamanı Həzrət cırılmış ayaqqabısını yamamağa başladı. Bu zaman İbn Abbas o həzrətin hüzuruna gəlib dedi: "Məkkəyə həccə gedən bir karvan bizə tərəf gəlir. Onların içərisində bir qrup şəxsiyyətli və tanınmış adamlar vardır. Xilafət məqamınızı və iqtidarınızı bildirmək üçün münasib fürsətdir. Bu haqda çıxış edərək onların mövqeyini cəlb edin!" Həzrət ayaqqabısını yamadığı halda soruşdu: "Səncə, yamadığım bu ayaqqabının qiyməti nə qədər olar?" İbn Abbas belə bir sual gözləmədiyindən dedi: "Ey möminlərin əmiri, mən sizinlə hökumətə dair mühüm məsələdən, xilafətinizin təsbitindən danışıram, siz isə köhnə ayaqqabınız barədə soruşursunuz? Onun bir qiyməti yoxdur, o qədər köhnədir ki, qiymət vermək olmaz." Həzrət buyurdu: "Allaha and olsun, mənim nəzərimdə hakimiyyət bu yamaqlı köhnə ayaqqabılardan dəyərsizdir. Ey İbn Abbas, sən elə düşünürsən ki, mən siyasət vurğunuyam?! Ey İbn Abbas, elə təsəvvür edirsən ki, hakimiyyətimin möhkəmlənməsi üçün (hər nə yolla olur, olsun) bir addım atacağam?!

Allah eşqi və məhəbbəti ilə dolu olan qəlb hakimiyyəti bir cüt yamaqlı ayaqqabıdan dəyərsiz bilir! Şirk və Allahdan qeyrilərinə pərəstiş dünyaya hədsiz maraq və meyillərdən irəli gəlir və insan tamahkarlaşdıqca, Allahın evi sayılan qəlbi bütlərə sitayişin mərkəzinə çevrilir. Amma bütün dünyaya sahib olduğu halda, onu istənilən vaxt əldən verməyə hazır olan insan

necə də aramlıqdadır! Bəli, bütün bunlar tövhid və allahpərəstliyin təsirləridir.

İmam Sadiq (ə) ***“Yalnız (əyri əqidə və əxlaqdan) salamat qurtaran (sağlam) bir qəlblə Allahın hüzuruna gələn kəsdən başqa!”1*** – ayəsinin təfsirində belə buyurur: *“Allahdan başqa heç kimə və heç nəyə məhəbbət bəsləməyərək Allaha qovuşan qəlb “sağlam qəlb” sayılır.”*[2]

Təəssüflər olsun ki, hələ də dünyamız şirkin təzahürlərindən təmizlənməyib. Hətta ilahi dinlər içrə xristianlıqda “üçlük”, zərdüştlərdə “ikilik” əqidələri olduğu kimi qorunmaqdadır.

Bizim əqidəmizə görə, varlıq aləminə nə üç üqnüm, nə də xeyir və şər birgə hökmranlıq edir. Allah tərəfindən yalnız xeyir və yaxşılıqlar zahir olur, şər işlər isə yalnız insanlar tərəfindən baş verir.[3]

### *GİZLİ ŞİRK*

İslamda şirk anlamı yalnız zahiri əşya və varlıqlarda tamamlanmır və gizli şirk adlı daha təhlükəli bir məsələ diqqət mərkəzində durur. “Yusuf” surəsinin 106-cı ayəsində buyurulur:

وَمَا يُؤْمِنُ أَكْثَرُهُمْ بِاللّهِ إِلاَّ وَهُم مُّشْرِكُونَ

***“Onların (dünyada insanların) çoxu Allaha ancaq şərik qoşaraq (şirkə düçar olaraq) iman gətirərlər.”***

Bu ayənin məzmununun aydınlaşması üçün tövhidin dərəcələri haqda söz açmağı lazım bilirik:

---

*1.. “Şüəra” surəsi, ayə 89.*

*2.. “Mizanul-hikmət”, bölmə: 3388, hədis: 16930.*

*3.. “Xeyir və şər” predmeti haqda geniş məlumat əldə etmək istəyənlər “Peyami-Quran” kitabının 4-cü cildinin 485-ci səhifəsinə müraciət etsinlər.*

**1. İbadətdə tövhid:** İnsan yalnız Allaha baş əyməli, Onun dərgahında səcdə qılmalıdır. Demək, Allahdan başqasına, istər peyğəmbərə, istər əhrimənə, istərsə də daş və ağacdan yonulmuş bütə səcdə bütünlüklə şirk sayılır. Buna şirkin aşkar nümunəsi deyilir.

**2. İtaətdə tövhid:** Bəndə yalnız və yalnız Allahın əmrinə təslim olmalı, Onun əmr və qadağalarına riayət etməlidir. İmam Baqir (ə) yuxarıdakı ayənin təfsirində buyurur: *"Ayədə ibadətdə yox, itaətdə şirk nəzərdə tutulur."*[1]

İnsanların əksəriyyəti bu şirkə düçar olur. Həqiqətdə onlar bütün günahlara, şeytanın əmri və nəfsin istəkləri nəticəsində müsbət cavab verir və onlara itaət edirlər. Günah itaətdə şirk hesab olunduğu kimi, bəzi rəvayətlərdə bir sıra sözlərə qulaq asmaq da şirk adlandırılır. Məsələn, *"Danışana qulaq asan ona pərəstiş edir: əgər o, Allah tərəfindən olsa, dinləyici Allaha, şeytan tərəfindən olsa, şeytana pərəstiş edir."*[2]

**3. Xilqətdə tövhid:** Aləmdə Allahın pak zatından başqa müstəqil təsir qüvvəsi yoxdur, hər bir şey Onun izni və icazəsi ilə təsir göstərir. Allahdan başqasını öz müqəddəratı və taleyinə hakim bilən, ruzisini, izzət və sairi Ondan başqasında axtaran, bir sözlə, Allahdan başqasına güvənən şəxs, şübhəsiz, müşrikdir və Allaha şərik qoşur.

Allah-Taala "Ənkəbut" surəsinin 41-ci ayəsində belələrini maraqlı təmsilə çəkir:

مَثَلُ الَّذِينَ اتَّخَذُوا مِن دُونِ اللَّهِ أَوْلِيَاء كَمَثَلِ الْعَنكَبُوتِ اتَّخَذَتْ بَيْتًا وَإِنَّ

1.. *"Əl-bürhan" təfsiri, 2-ci cild, səh.274.*

2.. *"Biharul-ənvar", 2-ci cild, səh.94, hədis: 30, 26-cı cild, səh.239 (Peyğəmbəri-Əkrəmdən (s) nəql olunur); 69-cu cild, səh.246 (imam Sadiqdən (ə) nəql olunur.)*

أَوْهَنَ الْبُيُوتِ لَبَيْتُ الْعَنكَبُوتِ لَوْ كَانُوا يَعْلَمُونَ

***"Allahdan başqasını (Onun müqabilində) özlərinə hami və yardımçı güman edənlər (etimad etdikləri şeyin süstlüyü və mənfəətsizliyi baxımından) özünə yuva qurmuş hörümçəyə bənzərlər. Şübhəsiz, evlərin ən zəifi hörümçək yuvasıdır. Kaş, biləydilər!"***

Allahdan qeyrisinə sığınmaq, hörümçək yuvası kimi, ən zəif evə pənah aparmağıdır. Bəli, bütün sərvətlər, vəzifələr, qoşunlar, qüdrətlər, saraylar, silahlar və s. uca Allahın yenilməz və sonsuz qüdrəti müqabilində olduqca zəif hörümçək toruna bənzəyir. Aydındır ki, sağlam ağıl heç vaxt hörümçək yuvasını özünə sığınacaq yeri seçməz. Təkallahçı və ilahi insanlar Allahından başqasına söykənmir və Ondan qeyrisinə əl uzatmırlar.

Həzrət İbrahimi (ə) tonqala atılarkən heç bir qorxu hissi keçirmədən iman dolu qəlblə, aram ruhla, gülərüzlə, yəqinliklə özünü atəşə təslim edir. Bu zaman Cəbrail (ə) özünü ona çatdırıb "Ey İbrahim, bir istəyin varmı?" – deyə soruşduqda, İbrahim (ə) belə cavab verir: "Səndən heç bir istəyim yoxdur!" Onun istəyi yalnız Allahdandır və hətta Cəbrailə belə əl uzatmır.

Doğrudan da, Allaha iman və inam insanda necə qüvvət yaradır, baş verən ən çətin hadisələrdə belə, qəlbi sarsılmır və hətta Cəbrail-Əmindən hacət diləmir.

**4. Hakimiyyətdə tövhid:** Hakim yalnız Allahdır. Allahın və məxluqunun hakimliyinə eyni gözlə baxanlar şirkə yol verirlər. Təkallahçının etiqadına görə, hakimiyyət yalnız Allaha məxsusdur və bütün peyğəmbərlər insanları Onun hakimiyyəti altına çağırırlar. Bu ilahi vəzifə Peyğəmbərdən (s) sonra özü təyin etdiyi məsum imamlara, onlardan sonra isə

"qeyb dövrü"ndə imam Zamanın (ə) nümayəndəliyini daşıyan ədalətli müctəhidlərə həvalə edilib. Əlbəttə, xalq, hökumətin qolu sayılır və onların hakimiyyətdə iştirakı zəruridir. Demək, İslamda hakimiyyətin kimə mənsubluğu böyük rol oynayır. Təəssüflər olsun ki, bəziləri söz və ifadələri ilə şirkə şərait yaradırlar. Məsələn, siyasətçilərdən biri deyirdi ki, hakimiyyət və ya camaatın istəyi və səs verdikləri sözsüz icra olunmalıdır; əgər onların istəyi dindirsə, cəmiyyətə dini, əks-təqdirdə, qeyri-dini qanunlar hakim olmalıdır. Biz yalnız Allaha tabe olmalı və camaatın səsinə də Allahın razılığı və şəriət qanunları çərçivəsində yer verilməlidir.

**5. Malikiyyətdə tövhid:** Hər bir şeyin həqiqi maliki yalnız Allahdır və bizə verilənlər də əmanət sayılır. Odur ki, həyatda Onun bəyəndiyi ölçülərlə yaşamalı, malımızı da Onun razılığı yolunda xərcləməliyik. Qarun kimi hər şeyi şəxsi əmlakımız bilməməli, onları elm, bilik, zəka və zəhmətimizlə əldə etdiyimizi güman etməməliyik. O zaman hamıya ibrət üçün Allah-Taala yerə əmr edir ki, Qarunu bütün mal-dövləti ilə birgə udsun. Yer yarılaraq hamını heyrətə gətirir və onu, sarayını və bütün sərvətini udur!

**6. Qanunvericilikdə tövhid:** Bizim əqidəmizə görə, qanunvericilik yalnız Allaha məxsusdur və bəşəri qanunlar da dini istiqamət almalıdır. Qanunvericilikdə ən mühüm məsələ ədalətdir ki, onu yalnız varlıq aləminin yaradanı kamil ifadə edə bilər. Amma insana xas qanunçuluq və qanun maddələri mənafe üzrə olduğundan şirk və ədalətsizliklərlə qarışıq olur.

***İMAM ƏLİ (Ə) – TƏKALLAHÇILIĞIN KAMİL***

*NÜMUNƏSİ*

İmam Əlinin (ə) xəlifəliyinin ilk günlərindən başlayaraq keçmiş xəlifələr tərəfindən saysız-hesabsız hədiyyə və yardımlar alan fürsət qulları onun ədalətinə tab gətirə bilmədilər. Onlar Həzrətə etirazla dedilər: "Nə üçün keçmiş xəlifələrin yolunu getmir və "beytül-mal"ı onlar kimi bölmürsən?" Tövhidi özündə əks etdirən və qəlbinə bir an belə şirk daxil olmayan imam Əli (ə) buyurdu: *"Allaha and olsun ki, mən dəvətikanı üzərində gecələməyi, əli-qolu zəncirlərlə bağlı sürünməyi bəndələrə zülm edib dünya malına əl uzatmış halda qiyamət günü Allaha və Peyğəmbərə qovuşmaqdan daha üstün bilirəm."*[1]

Tarixə görə, o həzrət heç vaxt kiminsə mənafeyini nəzərə alıb Allahın yolundan çıxmamışdır: nə yaxın qohum-əqrəbasına şərait yaratmış, nə də düşmənin xeyrinə bir addım atmışdır. Onun həyatı bunu əks etdirən həqiqətlərlə doludur. Misal üçün, bu əhvalatlara nəzər salaq:

### 1. İMAM ƏLI (Ə) VƏ GECƏ HƏDIYYƏSI

İmam Əlinin (ə) xilafəti dövründə bir çox iğtişaşların səbəbkarı olan münafiq Əşəs ibn Qeys bir nəfərlə savaşdı. Bunu imam Əliyə (ə) xəbər verdilər. İmam (ə) onların arasında ertəsi gün hökm kəsəcəyini bildirdi. Gecə o həzrətin evinin qapısı arxasından bir səs eşidildi. Həzrət qapını açıb, əlində halva dolu bir qab tutan Əşəsi gördü. Həzrət ona bir nəzər saldıqdan sonra sərt baxışlarla buyurdu: "Bu rüşvətdir, yoxsa sədəqə? Əli rüşvət əhli deyil ki, onu haqdan döndərsin və sədəqə

---

*1.. "Nəhcül-bəlağə", xütbə: 224.*

də biz haşimilərə haramdır."[1] Möminlərin əmirinin bu rəftarından əl-ayağını itirən Əşəs dedi: "Heç biri deyil, hədiyyədir! Hər müsəlman başqa müsəlmana hədiyyə verə bilər." (Təəssüflər olsun ki, bizim günümüzdə hədiyyə, ənam, şirinlik, haqq, hesab kimi rüşvətxorluq halları az deyildir.) İmam Əli (ə) min rəngə düşən Əşəsə buyurdu: "Ey Əşəs! Allahın dini ilə gəlib məni tələyəmi salmaq istəyirsən? Ağlını itirmisən, yoxsa sayıqlayırsan?! Əşəs! Əlindəki payın ilanın ağız suyuna qarışmış kimidir! Allaha and olsun, əgər bir qarışqaya zülm edib yeddi səmanı qazanacağamsa, ondan vaz keçərəm..."

## 2. QIZDIRILMIŞ DƏMIR

İmam Əli (ə) uzun illər sükutdan sonra, nəhayət, müsəlmanların xəlifəsi oldu. Böyük ailə sahibi olan yoxsul qardaşı Əqil "beytül-mal"dan artıq pay almaq üçün Mədinədən çıxıb hökumət mərkəzi olan Kufəyə doğru yola düşür. O, imam Əliyə (ə) qonaq olarkən Həzrət evin damında onun üçün süfrə açır. Amma bu süfrə digər süfrələrdən fərqlənir, əmir və padşahların süfrəsinə əsla bənzəmirdi! Odur ki, Əqil yemək yemədən qardaşına deyir: "Bu yeməyi meylim çəkmir (müşkülümü həll et, qayıdım Mədinəyə)." Həzrət buyurur: "Qardaş! Kufə bazarı yaxındır, dükanlar da qiymətli əşyalarla doludur. Gəl gedək dükanların birinə oğurluğa və nə istəyirsən götür get!" Əqil deyir: "Qardaşcan! Biz oğruyuqmu ki, belə bir işə əl ataq?" Həzrət buyurur: "Beytül-maldan artıq pay götürüb başqasına vermək oğurluq deyilmi?" Bu zaman imam Əli (ə) başqa bir təklif edir: "Eşitmişəm

---

*1.. "Nəhcül-bəlağə", xütbə: 224. Diqqət yetirmək lazımdır ki, malın zəkatı və fitrə zəkatı kimi vacib sədəqə seyidlərə haramdır, müstəhəb zəkat isə haram deyil!*

ki, Kufəyə tərəf bir karvan gəlir. Qılınclarımızı götürüb pusquda duraq və fürsət düşən kimi hücum edib, istədiyini əldə edək!" Əqil deyir: "Qardaşcan! Biz quldurucmu ki, belə bir işə əl ataq?" Həzrət buyurur: "Nə üçün məndən haqqın olmayan oğurluq pay istəyirsən?"[1] Bu zaman Həzrət qızdırılmış dəmir parçasını qardaşının əlinə yaxınlaşdırır... Əqil o həzrətin bir an belə ədalət xəttindən çıxmağa razı olmadığını gördükdə, ayağa qalxıb gedir.

Bəli, tarixdə ölkə xəzinəsinə sahib olan bir hökmdarın ədalət üçün öz qardaşı ilə belə rəftar etdiyi görülməyib!

---

*1.. "Biharul-ənvar", 9-cu cild, səh.613, Təbriz çapı, "Dastan-rastan" kitabnıdan nəqlən, 1-ci cild, səh.130.*

# 7

# İNSAN QANINA EHTİRAM

Rəhman Allahın həqiqi bəndələrinin yeddinci səciyyəsi insanların canı və qanını möhtərəm saymalarıdır. Onlar heç vaxt nahaq qan tökməz və əllərini bu günaha batırmaz. Qurani-Kərimdə buyurulur:

وَلَا يَقْتُلُونَ النَّفْسَ الَّتِي حَرَّمَ اللَّهُ إِلَّا بِالْحَقِّ

***"(Qisas, şəri cəza və bu kimi) haqq (qətllər) istisna olmaqla (rəhman Allahın həqiqi bəndələri) Allahın möhtərəm və toxunulmaz etdiyi canı öldürməzlər."***[1]

Bu ayədə iki mühüm mətləb diqqəti cəlb edir:

***1 Müsəlmanla qeyri-müsəlman arasında fərq yoxdur:***

**Sual:** Qeyri-müsəlmanın da qanı möhtərəmdirmi? Yaxud qeyri-müsəlmanlar arasında dindarla kafirin fərqi varmı?

**Cavab:** Məzmun etibarilə ayə mütləq şəkildə bəyan olunur və şəxslərin əqidə və ayininə toxunulmur. Bizim nəzərimizcə, bir qrup istisna olmaqla bütün kafirlərin qanı möhtərəmdir. "Fiqh" elmində qeyd olunduğu kimi, kafirlər dörd qrupa bölünür və onlardan üçünün qanı, malı və namusu möhtərəmdir. Həmin qruplar bunlardan ibarətdir:

**1. "Zimmi" kafir:** İslam ölkələrində müsəlmanlarla sülh şəraitində yaşayan və azlıq təşkil edən qeyri-müsəlmanlara deyilir. Onların canı, malı və namusu

---

*1.. "Furqan" surəsi, ayə 68.*

toxunulmazdır və bir çox hüquqları müsəlmanlarla bərabərdir. Onlar da cəmiyyətin bir üzvü kimi yaşadığı İslam ölkəsində vətəndaşlıq vəzifələrini yerinə yetirməli, hətta müharibə zamanı cəbhəyə qüvvə göndərməkdən imtina etməməlidirlər. Şübhəsiz, "zimmi kafir"in qanı və canı toxunulmazdır.

**2. "Müahəd" kafir:** Qeyri-İslam ölkələrində yaşayan və İslam ölkələri ilə siyasi, iqtisadi və ya mədəni əlaqələri olan kafirlərə "müahəd" deyilir. Hal-hazırda belə əhd-peymanlar səfirliklər vasitəsilə həyata keçir. Onların da qanı və canı toxunulmazdır və buna əks olan bir dəlil-sübut yoxdur.

**3. "Mühadin" kafir:** "Hüdnə" sözündən götürülmüş "mühadin" sözü "atəşkəs" mənasını verir. İslam ölkələri ilə heç bir rabitə və əlaqəsi olmayan və müharibə də aparmayan kafirlərə "mühadin" deyilir. Başqa sözlə, birinci və ikinci qrupdan olmayıb, nə bizim işimizə qarışır, nə də biz onlara mane oluruq. Qurani-Kərimin buyruğuna əsasən,[1] onların da qanı və canı möhtərəm və toxunulmazdır.

**4. "Hərbi" kafir:** Hər hansı yolla İslam ölkələri ilə döyüş aparanlara "hərbi" kafir deyilir və İslam baxımından belə kafirlərin qanı möhtərəm sayılmır. Necə ki, onlar da biz müsəlmanların qanını möhtərəm bilmirlər. Əlbəttə, İslamın müharibə prinsiplərinə əsasən, döyüş zamanı müsəlmanlar yalnız onların döyüşçülərinə hücum edə bilər, uşaq və qadınlara, qoca və xəstələrə toxuna bilməzlər.

Demək, ilk üç qrupun qanı və canı toxunulmaz, dördüncü qrupun qanı isə halaldır.

---

*1.. "Mümtəhinə" surəsi, ayə 8; "Nisa" surəsi, ayə 90.*

***2. İslamda insanın dəyəri:***

İslamda insana verilən dəyər barədə çox danışmaq olar, lakin kitabın həcmini nəzərə alaraq bir neçə məsələ ilə kifayətlənirik:

**a) Adəmin yaranışı:** İslam baxımından insanın əzəmətini açıqlayan ilk məsələ bəşərin atası həzrət Adəmin (ə) yaranışıdır. Bildiyimiz kimi, Adəmin (ə) vücudunun maddi hissəsini dəyərsiz palçıq, mənəvi hissəsini isə Allahın ruhu təşkil edir. Bəli, Allah-Taala insana ilahi, səmavi, yüksək ruh bağışlamışdır ki, elə buna görə də, digər varlıqlardan fərqlənir.

**b) Mələklərin Adəmə (ə) səcdəsi:** İblisdən başqa Allahın bütün "müqərrəb" (yaxın) mələkləri Adəmə (ə) səcdə etmişlər. İslam insanı mələklərin xüsusi ehtiramla səcdə qıldıqları ilahi ruhun sahibi, məxluqatın əşrəfi sandığı halda, insan hüquqlarından dəm vuranlar isə istənilən vaxt millət və ölkələri həmin bər-bəzəkli adlarla istismar edirlər.

**c) Xilqətdə kamillik:** Allah-Taala (Qurani-Kərimdə) "Təbarəkəllahu əhsənul-xaliqin" (Xilqətə ən gözəl surəti bəxş edən Allah çox ucadır!) – ibarəsini yalnız bir dəfə və o da insanın yaradılışından sonra işlədib. Bu tərifin yerin, göylərin, günəşin, ulduzların, ayın, kəhkəşanların və digər varlıqların xilqəti kənarında müstəsna yeri var. Allah tərəfindən Özü haqda deyilən bu tərif insanın yaradılanlar içərisində ən üstün məqama layiq olduğunu bildirir.

**ç) Bütün varlıqlar insanın çevrəsində:** Qurani-Kərimdə göstərilir ki, bütün varlıqlar insana ram edilib.

**1**. "Loğman" surəsinin 20-ci ayəsində buyurulur:

أَلَمْ تَرَوْا أَنَّ اللَّهَ سَخَّرَ لَكُم مَّا فِي السَّمَاوَاتِ وَمَا فِي الْأَرْضِ وَأَسْبَغَ عَلَيْكُمْ

نِعَمَهُ ظَاهِرَةً وَبَاطِنَةً وَمِنَ النَّاسِ مَن يُجَادِلُ فِي اللَّهِ بِغَيْرِ عِلْمٍ وَلَا هُدًى وَلَا كِتَابٍ مُّنِيرٍ

***"Məgər Allahın göylərdə və yerdə olanları sizə ram etdiyini, aşkar və gizli nemətlərini sizə bol-bol bəxş etdiyini görmürsünüzmü?! İnsanların bəzisi elmi (və əqli dəlili), düz yol göstərən bir əsası və aydın bir (səmavi) kitabı olmadan Allah barəsində mücadilə və mübahisə edir."***

Bu ayə yerdə və göydəki dünyanın bütün varlıqların insana ram edildiyini göstərir.

**2**. Allah-Taala "İbrahim" surəsinin 32-33-cü ayələrində insana ram edilən bəzi varlıqların adını çəkərək buyurur:

وَسَخَّرَ لَكُمُ الْفُلْكَ لِتَجْرِيَ فِي الْبَحْرِ بِأَمْرِهِ وَسَخَّرَ لَكُمُ الأَنْهَارَ. وَسَخَّر لَكُمُ الشَّمْسَ وَالْقَمَرَ دَآئِبَينَ وَسَخَّرَ لَكُمُ اللَّيْلَ وَالنَّهَارَ

***"Onun iradəsi ilə dənizdə üzən gəmiləri sizə ram edib, axan çayları sizə ram edb, daim hərəkətdə olan günəş və ayı sizə ram edib. Gecə ilə gündüzü də sizə ram edib."***

**Sual:** Əgər gəmini düzəldən və onu sürən insanın özüdürsə, nə üçün Allah-Taala "Biz onu ram etdik!" – deyə buyurur?

**Cavab:** İnsanın hazırladığı bütün əşyaları, o cümlədən, gəmi və sairi təşkil edən ləvazimat və materiallar xilqətin bizə verilən töhfəsidir. Onları hər hansı hala və formaya salabilmə qabiliyyəti, bilik və sair istedadlar da bizə bəxş edilən məharətlərdir. İnsanın bacarığı daxilində təbiət və kainatda olan qanunauyğunluqları kəşf edərək əldə etdiyi nailiyyətləri yaradılış aləmində Xaliqin hikmət qələminin ssenarisi əsasında həyata keçir və buna Qurani-Kərimin dilində ram deyilir. Odur ki, bütün varlıqlar, o cümlədən, ayədə adı çəkilənlər insanın həyatı, asayişi

və təkamülü prosesinin ayrı-ayrı komponentləridir. Bir sözlə, məxluqatın insana görə yaranması, ona ram edilməsi kimi anlayışlar daha dərin məna kəsb edir.

**Sual:** Xilqətdə tövhid anlayışı səbəb-nəticə qanunu ilə necə uzlaşır? Əgər varlıq aləmində Allahdan başqa təsir qüvvəsi yoxdursa, onda, varlıqlar arasındakı rabitə, təsir və əks-təsiri necə başa düşməliyik? Səbəb-nəticə qanunu tövhidə xələl gətirmirmi?

**Cavab:** Tövhid, onun dərəcələri və aləmdə vahid qüvvənin müstəqilliyi anlamı kimi bəhslər İslam fəlsəfəsinin ən dərin kateqoriyasını təşkil edir. Odur ki, səbəb-nəticə qanunu ilə də bağlı müxtəlif nəzəriyyələr mövcuddur:

**1**. Varlıq aləmində səbəb-nəticə prinsipi müstəqildir; yəni aləm Allah-Taala tərəfindən yaradılandan sonra tam özbaşına həyat sürür və bir növ avtomatik mexanizmə malikdir. Demək, odun yandırması, günəşin işıqlandırması, yaxud dərmanın şəfa verməsində heç kimin rolu yoxdur!

Bu təfəkkür tərzi "təfviz" əqidəsinə bənzədiyindən onun iradları da çoxdur.

**2.** Aləmdə səbəb-nəticə anlayışı məcazi məna daşıyır. Birincinə əks olaraq, bu nəzəriyyənin tərəfdarları Allahdan başqa heç bir məxluqu təsirəmalik bilmirlər! Onların əqidəsinə əsasən, odun yandırması, suyun söndürməsi, dərmanın sağaltması və s. birbaşa Allahın iradəsi nəticəsindəri.

İslam tarixində bu nəzəriyyəyə oxşar fakir cərəyanları çoxşaxəli olub, aralarında azğın firqələrə də rast gəlindiyindən hamısını birgə cavablandırmaq çətin məsələdir. Hələ çoxları da Quran ayələrinə

əsaslandığından hər birini qane etmək üçün geniş səviyyədə elmi-fəlsəfi fakir mübadiləsinə ehtiyac vardır.

**3.** "Səbəblər təsirəmalik olsa da, müstəqil deyildir" nəzəriyyəsi verilən iki nəzəriyyə arasındakı "orta mövqe" tərəfdarlarının fikridir. Səbəblərin təsiri Allahın iradəsindən asılıdır. Buna əsasən, od yandırıb, su söndürüb, yaxud dərman şəfa verirsə, bu qabiliyyətlər onlara verilən qüvvə nəticəsindədir. Məsələn, "Ali-İmran" surəsinin 49-cu ayəsində həzrət İsanın (ə) dili ilə belə buyurulur:

أَنِّي أَخْلُقُ لَكُم مِّنَ الطِّينِ كَهَيْئَةِ الطَّيْرِ فَأَنفُخُ فِيهِ فَيَكُونُ طَيْرًا بِإِذْنِ اللّهِ وَأُبْرِىءُ الأكْمَهَ والأَبْرَصَ وَأُحْيِـي الْمَوْتَى بِإِذْنِ اللّهِ وَأُنَبِّئُكُم بِمَا تَأْكُلُونَ وَمَا تَدَّخِرُونَ فِي بُيُوتِكُمْ إِنَّ فِي ذَلِكَ لآيَةً لَّكُمْ إِن كُنتُم مُّؤْمِنِينَ

***"Mənim Rəbbiniz tərəfindən əlimdə nişanə var: (məsələn,) mən sizin üçün gildən quş surətində bir şey düzəldir, sonra ona üfürməklə Allahın izni ilə quş olur; Allahın izni ilə anadangəlmə koru və cüzamı sağaldır, ölüləri dirildirəm və sizə evlərinizdə yediyiniz və yığıb saxladığınız şeylərdən xəbər verirəm. Həqiqətən, əgər mömin olsanız, sizə bunda (Allahın tovhidinə, elm və qüdrətinə, eləcə də, mənim peyğəmbərliyimə dəlalət edən) nişanə vardır."***

Bu nəzəriyyənin tərəfdarlarının da əsaslandığı ayə və hədislər çoxdur. Bütün cərəyanlar arasında bu nəzəriyyə daha çox qənaətbəxş olduğundan onu müsbət fikirlərin qovşağı saymaq olar.

Demək, "xilqətdə tövhid" anlayışı səbəb-təsir qanunauyğunluğuna əsla zidd çıxmır və onlar Allahın iradəsi ilə qeyri-müstəqil şəkildə qüvvəyə minirlər.

**d) İnsan Allahın xəlifəsi:** Quran insanı yer üzündə

Allahın canişin və xəlifəsi sanır. Görəsən, bundan da böyük məqam təsəvvür olunurmu? Hətta Allah-Taalanın ən yaxın mələkləri belə, belə məqama malik deyillər! Onun yalnız insana verilməsi Allah dərgahındakı son dərəcə böyüklüyündən irəli gəlir.

**e) Adəm mələklərin müəllimi:** Qurani-Kərimə əsasən, həzrət Adəmin (ə) xilqəti zamanı mələklər arasında yaranan şübhəni aradan qaldıran elə onun özü olur və onlara bir sıra sirləri öyrətməklə müəllim adını qazanır.

Həqiqətdə, insanı olduğu kimi qiymətləndirən İslamdır! İnsana öz qiymətli vücudunu ucuz satmaq, şəxsiyyətini ötəri ehtiraslarla, mal-dövlət və vəzifə ilə dəyişmək yaraşmaz! Bunu alış-veriş zamanı satdığı malın qiymətini bilməyənlər edir. Həqiqi insanşünas imam Əli (ə) buyurur: "Sizin qiymətiniz yalnız behiştdir, özünüzü ondan ucuz satmayın!"[1] Yəni insanın qiyməti dünyada olan hər bir şeydən üstündür. İslam və Quran baxımından insanın dəyəri budur! Lakin İslam çərçivəsində haqlı olaraq bir qatil və cinayətkar edam olunduqda, dünya vurğunları, hamını insan hüquqları altında ram etmək istəyən riyakarlar, bəşəriyyətin azğın düşmənlərinin səsləri bütün dünyanı bürüyür, onun hər bir guşəsində törətdikləri faciəli cinayətlərə elə gözəl beynəlxalq don geyindirirlər ki, hamı mat qalır!...

### *İNSAN QANINA EHTİRAMI*

**1. Bərabərlik:** İslam maarifində günahsız insanın qanı bütün bəşəriyyətin qanına bərabər sayılır. "Maidə" surəsinin 32-ci ayəsində buyurulur:

---

*1.. "Mizanul-hikmət", bölmə: 555, hədis: 2689.*

مَن قَتَلَ نَفْسًا بِغَيْرِ نَفْسٍ أَوْ فَسَادٍ فِي الأَرْضِ فَكَأَنَّمَا قَتَلَ النَّاسَ جَمِيعًا
وَمَنْ أَحْيَاهَا فَكَأَنَّمَا أَحْيَا النَّاسَ جَمِيعًا

***"Birinin canına haqsız qəsd etməyəni və ya yer üzündə fitnə-fəsad törətməyəni öldürən, sanki bütün insanları öldürmüş və birinə həyat bəxş edən (ölümdən nicat verən), sanki bütün insanları diriltmişdir!"***

Qurani-Kərim bir insanın qanı və ölümünü bütün insanların qanı və ölümünə bərabər bildiyi kimi, onun ölümdən nicatını da, sanki bütün insanların nicatı hesab edir. Diqqəti cəlb edən odur ki, bir çox hədislərdə bu ayə cismən həyat və ölümlə əlaqələndirilsə də, bəzilərində daha əhəmiyyətli olan mənəvi həyat və ölümə dair dərin mətləblər vardır. Bu hədisdə imam Sadiq (ə) bu ayənin təfsirində buyurur: *"Ayədə qeyd olunan "ölüm" və ya "nicat" odda yanma, yaxud suda boğulma kimi hallara da aiddir." Amma o həzrət bir az sükut etdikdən sonra deyir: "İnsanın başqasını haqq, yaxud batil yola çəkməsi və qarşı tərəfin də qəbulu ayənin ən dərin təvili və məfhumu haqda nəzərə çarpan baxışdır."*[1]

Daha dəqiq sözlə, bu ayənin zahiri mənası ilə insanların cismən, təvili isə ruhən qurtuluşu xarakterizə edilir.

**2. Qan tökənlərin ağır cəzası:** Qatillərin ağır cəzalarından söz açam "Nisa" surəsinin 93-cu ayəsində belə buyurulur:

وَمَن يَقْتُلْ مُؤْمِنًا مُّتَعَمِّدًا فَجَزَآؤُهُ جَهَنَّمُ خَالِدًا فِيهَا وَغَضِبَ اللّهُ عَلَيْهِ
وَلَعَنَهُ وَأَعَدَّ لَهُ عَذَابًا عَظِيمًا

***"Kim bir mömini qəsdən öldürsə, onun cəzası***

1.. *"Təfsiri-nümunə", 4-cü cild, səh.356.*

***cəhənnəmdir və orada əbədi qalacaq. Allah ona qəzəblənər, onu Öz rəhmətindən uzaqlaşdırar və ona böyük əzab hazırlayar."***

Göründüyü kimi, qatillər üçün dörd ağır cəza nəzərdə tutulub: 1. Əbədi cəhənnəm əzabı; 2. Allahın qəzəbi; 3. Rəhmətdən məhrumluq; 4. Dözülməz cəza.

İslam nöqteyi-nəzərindən insanın qanını tökməyin cəza və əzabı olduqca ağırdır. O ki, qaldı bunu özlərinə peşə edənlərə, böyük-kiçik, kişi-qadın, xəstə-sağlam və bir sözlə, heç kimə rəhm etməyənlərə gəldikdə isə, onların aqibəti məlum deyildir.

**3. Edam hökmünün ağır şərtləri:** İnsanın qanının böyük əhəmiyyətini nəzərə alaraq bir kəsin günahkar və ya qatil olduğunu isbat etmək üçün çətin şərtlər qoyulub. Göstərilən dəlil-sübutlarda azacıq şübhə müttəhimi ölümdən xilas edir.

**4. Ağır diyələr (qan bahası):** İslam nöqteyi-nəzərindən insan qanının ehtiramını bildirən nişanələrdən biri də ağır diyə və qan bahasıdır. Bilərəkdən günahsızı qətlə yetirən şəxs qətlə yetirilmiş şəxsin diyəsini varisinə ödəməli və varis göstərilən altı maldan birini seçməkdə ixtiyar sahibidir: 1. (min misqal) qızıl; 2. (on min) dirhəm; 3. (yüz baş) dəvə; 4. (iki yüz baş) inək; 5. (min baş) qoyun; 6. (iki yüz dəst) paltar. Varis onların əvəzində seçdiyi malın pulunu da ala bilər. Deməli, günahsız tökülən qanın bahası ağır məbləğdə puldur və bu da insan qanına verilən dəyəri göstərir. Hətta bəzi hallarda qatil neçə qat diyə ödəməyə məcbur edilir. İmam Əli (ə) barəsində nəql olunan bir hədisdə belə deyilir: "İmam Əli (ə), əsa ilə bir şəxsin başına vurub, zərbə nəticəsində onu "görmə", "eşitmə", "dadma", "ağıl", "cinsi əlaqə"

və "sidiyini saxlaya bilmə" qabiliyyətini itirməyə məruz qoyanı altı növ diyəni ödəməyə məhkum edir."[1]

**5. Rüşeymin diyəsi var:** İslam hətta dünyaya gəlməyən və ana bətnində olan rüşeymə də böyük əhəmiyyət verir. Belə ki, birgünlük rüşeymi (nütfəni) salan 20 misqal qızıl, "ələqə"ni (laxta qan) salan 40 misqal qızıl, "müzğə"ni (ətə çevrilən qan) salan 60 misqal qızıl, sümüyü təzə vücuda gələni salan 80 misqal qızıl, sümükləri ətlə örtüləni salan 100 misqal qızıl və ruh üfürüləni salan isə diri insanın kamil diyəsini ödənilməlidir! Hansı din və məzhəbdə insana bu qədər əhəmiyyət verilir.

**6. Ölülərin cəsədinin diyəsi var:** Mütərəqqi İslam dini baxımından ölmüş insanın cəsədi də dəyərə malikdir və heç kim ona ehtiramsızlıq edə bilməz. Odur ki, ölü müsəlmanın başını kəsən yüz dinar, bir əlini kəsən əlli dinar, hər iki əlini kəsən isə yenə yüz dinar diyə ödəməlidir!

Bir sözlə, İslama görə insanı o qədər dəyərlidir ki, həm ana bətnində, həm həyatda, həm də öldükdən sonra ona qarşı törədilən cinayət ağır diyəyə məhkum olunur.

İlahi bəndələrin günahsız insanın qanına ehtiram kimi qeyd etdiyimiz bu dəyərli mətləblər onların yeddinci səciyyəsində tamamilə əks olunur.

---

*1.. "Vəsailuş-şiə", 19-cu cild, səh.280. (Əlbəttə, şiə fəqihlərinin bu rəvayətə əməl etməsində fikir ayrılığı vardır.)*

# 8

# İFFƏT VƏ SAFLIQ

Rəhman Allahın həqiqi bəndələrinin səkkizinci xüsusiyyəti iffətə zidd əməllərdən çəkinməkdir. "Furqan" surəsinin 68-ci ayəsində buyurulur:

وَالَّذِينَ لَا يَدْعُونَ مَعَ اللَّهِ إِلَهًا آخَرَ وَلَا يَقْتُلُونَ النَّفْسَ الَّتِي حَرَّمَ اللَّهُ إِلَّا بِالْحَقِّ وَلَا يَزْنُونَ وَمَن يَفْعَلْ ذَلِكَ يَلْقَ أَثَامًا

***"(Rəhman Allahın həqiqi bəndələri) Allahla birgə başqa məbud çağırmır, Allahın möhtərəm və toxunulmaz etdiyi canı (qisas, şəri cəza və bu kimi) haqq (qətllər) istisna olmaqla öldürmür və zina etmirlər. Kim bunları etsə, (ağır) cəza ilə qarşılaşar."***

İnsanın qanı kimi əhəmiyyətli məsələdən sonra dərhal "zina"dan söz açılır.

Mərhum Seyid Murtəzanın dövründə onunla elmi mübahisələri olan bir kafir sonralar ona bir neçə misra göndərməklə oğrunun əlinin kəsilməsi ilə bağlı iki qanun ziddiyyətinə etirazını bildirir:

يَدُ بِخَمسِمِأَةٍ عَشجُدٍ وُدِيَتْ ما بالُها قُطِعَتْ فِى رُبْعِ دِينارٍ

"Əgər əlin diyəsi beş yüz misqal qızıldırsa, nə üçün bir misqal qızılın dörddə biri qədər oğurluq edənin əli kəsilməlidir?" Başqa sözlə, məsələn, nə üçün on min manatlıq qiyməti olan əl beş manat oğurluğa görə kəsilməlidir?

Seyid Rəzi də bir neçə misra ilə ona belə cavab verir:

عِزُّ الْأَمانَةِ أَغْلاها        وَ أَرْخَسَها ذُلُّ الْخَيانَةِ

فَافْهَمْ حِكْمَةَ الْبارِى

"Hər əlin yox, əmanətdar əlin diyəsi (qiyməti) beş yüz dinardır. Xəyanət edən əlin isə Allah dərgahında diyəsi yoxdur."

Hər halda, müsəlmanın canı və qanına ehtiram qədər namusa da ilahi bəndələrin böyük əhəmiyyət verdiyi məsələlərdən biridir.

### *GİGİYENA DƏRMAN VƏ MÜALİCƏDƏN İRƏLİDİR*

Hal-hazırda xəstəliklərin müalicəsində təbabətin kateqoriyaları daha mühüm rola malikdir. Məsələn, xəstəliklərin qarşısını almaq onun müalicəsindən daha asan olduğu üçün gigiyena insanların həyat və taleyində böyük əhəmiyyət daşıyır və buna böyük büdcələr ayrılır. Bunu biz eynilə əxlaqi məsələlərə də aid edə bilərik. Belə ki, İslam günah və əxlaqi pozuntuların qarşısının alınmasında həm lazımı tövsiyələrlə bərabər günahkarların cəzalarını da təyin edir. Adətən, cəza tədbirlərindən söz düşdükdə, günahın gigiyenası və ya qarşısının alınmasına dair məsələlər diqqət mərkəzinə çəkilir. Misal üçün, "Nur" surəsinin 30-32-ci ayələrində iffətsiz işlərə aludə olanların cəzalarına toxunarkən qarşısı alınması məqsədilə də müəyyən göstərişlər nəzərə çarpır ki, onlardan neçəsini burada qeyd edirik:

1. Şübhəsiz, iffətsizliyin səbəblərindən biri hicabsızlıq və açıq-saçıqlıqdır. Belə hallar və ondan doğan cinayətlər

yay fəslində daha çox həddini aşır. Bunun səbəbi isə aydındır. İslamda iffətsizliyə səbəb olan bu və ya digər günahların qarşısının alınmasında "hicab və örpək" xüsusi olaraq vurğulanır.

2. Kişilərin gözlərini və baxışlarını idarə etmələri tövsiyə edilir və bu da iffətə zidd əməllərin böyük bir hissəsinə mane olur, yarana biləcək zəmin və şəraiti aradan qaldırır.

3. Bu eynilə qadınlara da tövsiyə olunur.[1] Qız və qadınlar da öz baxışlarına diqqət yetirməli, kişi cinsinə ləzzət və ehtirasla baxmamalı və şübhəli baxışlardan çəkinməlidirlər.

Ehtiraslı baxış sadə məsələ deyil və ona qarşı çox ciddi olmaq lazımdır. Çünki o, şeytanın imanlı insanlara hücum etdiyi vasitələrdən biri sayılır.[2]

4. İffətsizliyin qarşısını alan amillərdən biri də evlənməkdir. Evlənmək milli və ümumi bir məsələ kimi bütün müsəlmanlara aiddir və "Nur" surəsinin 32-ci ayəsində bu barədə belə buyurulur:

وَأَنكِحُوا الْأَيَامَى مِنكُمْ وَالصَّالِحِينَ مِنْ عِبَادِكُمْ وَإِمَائِكُمْ إِن يَكُونُوا فُقَرَاء يُغْنِهِمُ اللَّهُ مِن فَضْلِهِ وَاللَّهُ وَاسِعٌ عَلِيمٌ

***"(Ey gənclərin ixtiyar sahibləri,) subay kişilərinizi və ərsiz qadınlarınızı, eləcə də, qul və kənizlərinizdən evlənmək istedadı olanları evləndirin. Əgər yoxsul olsalar, Allah onları Öz lütfü ilə dövlətli edər. Allah sonsuz lütf sahibi və biləndir."***

Bu ayədəki göstəriş həyatın heç bir sahəsində gözə dəymir. Ona əsasən, bütün müsəlmanlar subay gənclər

---

*1.. "Nur" surəsi, ayə 31.*

*2.. "Vəsailuş-şiə", 14-cü cild, səh.138.*

müqabilində məsuliyyət daşıyır və Peyğəmbəri-Əkrəmin (s) tövsiyə etdiyi bu yaxşı adət-ənənə və sünnə istiqamətində mühüm addımlar atmalıdırlar.

5. Allah-Taala "Nur" surəsinin 58-ci ayəsində övladlara göstəriş verir ki, ata-ananın xüsusi (şəxsi) otağına daxil olan zaman icazə alsınlar. Məxsusən, günün üç vaxtı icazəsiz onların otağına daxil olmasınlar:

1. Yatdıqları gecə vaxtı;
2. Sübh namazından qabaq;
3. Gündüz istirahət zamanı.

Ayədə buyurulduğu kimi, bunlar valideynlərin xəlvətə çəkilə biləcəyi vaxtlardır və qalan vaxtlarda isə övladlarına ora icazəsiz daxil olması günah sayılmır. Demək, İslam ailə ocağından baş qaldıra biləcək azğınlığın qarşısını almaq üçün xüsusi tədbirlər görür.

6. O zaman ərəb qadınları yol gedərkən (xüsusilə səhralıqda) əziyyət verən həşəratları qovmaq üçün ayaqlarına cingildəyən bilərzik (xal-xal) bağlayardılar. Təhlükəsizlik rolunu oynayan bilərzik sonralar zinət vasitəsinə çevrilərək naməhrəmlərin diqqətini cəlb etməyə başladı. Buna görə də, mütəal Allah "Nur" surəsinin 31-ci ayəsində müsəlman qadınlara göstəriş verir ki, ayaqlarına bağladıqları zinət əşyalarının bilinməsi və kiminsə diqqətinin cəlb edilməməsi üçün ayaqlarını yerə bərk vurmasınlar.

Qeyd edilənlər İslamın cəzalarla yanaşı, günah və əxlaqi pozğunluqlara qarşı irəli sürdüyü tədbirləridir.

### *İLAHİ BƏNDƏLƏR VƏ İFFƏT*

**İrad:** Əgər bütün qeyd olunanlar ilahi bəndələrə xas spesifik xüsusiyyətlərin hər kəsin asanlıqla əldə edə bilmədiyi daha yüksək məqamlara aid olduğunu göstərirsə, iffətsizlikdən

qorunmağı yalnız onlara mənsub edə bilmərik. Məsələn, heç də demək olmaz ki, namaz qılıb oruc tutmaq, şərab və qumardan çəkinmək yalnız Allahın həqiqi bəndələrinə aiddir. Çünki bu kimi işlər hər bir müsəlmanın vəzifəsidir və demək olar, müsəlmanların əksəriyyəti onlara riayət edir.

**Cavab:** İslam Peyğəmbərindən (s) nəql olunan bir hədisə əsasən, zinanın müxtəlif qisimləri var və yalnız iffətə zidd əməllə bitmir. Deməк, Allahın həqiqi bəndələri onun bütün qisimlərindən uzaqlaşanlardır. Həmin hədisdə belə deyilir: *"İnsanın hər bir üzvü zina edə bilər; gözün zinası (pis və ehtiraslı) baxışdır, ayağın zinası iffətsiz məclislərə doğru hərəkətdir, qulağın zinası isə nalayiq sözlərə qulaq asmaqdır."*[1]

Göründüyü kimi, insanın hər bir orqanı, hətta fikri və qəlbi belə, iffətsiz əmələ aludə ola bilər. İnsanın pis düşüncəsi, çirkin səhnələrin təsəvvürü də iffətsizlik nümunələrindəndir. Bu hədisə diqqət yetirməklə zinanın daha geniş məna kəsb edərək iffətsizliyin bütün növlərini əhatə etdiyi qənaətinə gəldikdə, ilahi bəndələrin daha dərin təsəvvürə malik olduqları məlum olur və hətta fikir və düşüncələri belə bu əmələ aludə olmur. Zinanın bütün yönlərindən paklıq isə böyük iftixardır ki, Allahın həqiqi bəndələrindən başqalarına nəsib olmur.

### *İSLAMIN İFFƏTSİZLƏ MÜBARİZƏSİ*

İslam iffətsizliyin qarşısını almaq üçün xüsusi göstərişlər verdiyi kimi, iffətsiz işlərlə məşğul olanlarla da ciddi mübarizə aparır və bütün müsəlmanları bu müqəddəs mübarizəyə təşviq edir. Biz burada bu haqda bir neçə nümunəni qeyd etməklə kifayətlənirik:

**a) Pak insanlar napaklarla (əxlaqsız və s.)**

1.. *"Kənzül-ümmal", 5-ci cild, hədis: 13026.*

**evlənməzlər:** "Nur" surəsinin 3-cü ayəsində buyurulur:

الزَّانِي لَا يَنكِحُ إِلَّا زَانِيَةً أَوْ مُشْرِكَةً وَالزَّانِيَةُ لَا يَنكِحُهَا إِلَّا زَانٍ أَوْ مُشْرِكٌ وَحُرِّمَ ذَلِكَ عَلَى الْمُؤْمِنِينَ

***"Zinakar kişi (təbii ki,) zinakar və ya müşrik qadından başqası ilə evlənməz və zinakar qadını (təbii ki,) zinakar və ya müşrik kişidən başqası almaz. Bu (cür ailə qurmaq iffətlərinə görə) möminlərə qadağan edilib."***

Bu ayə ilə bağlı üç incə mətləb diqqəti cəlb edir:

1. Zinakar, istər kişi olsun, istərsə də qadın, müşrik və bütpərəstlə yanaşı qeyd edilir və bu böyük günaha batıb tövbə etməyənlər Allaha şərik qoşanlarla eyni səviyyəyə enirlər.

2. Möminlər zinakarlara qarşıdır və bu da zinakar və ya iffətsiz işlərə qurşananların imansızlığını aşılayır.[1]

3. Zinakarla möminin evlənməsi haramdır.

Bu məsələdə təfsirçilər arasında iki nəzər mövcuddur:

1. Məqsəd şəri yox, təbii prosesdən yaranan haramdır; yəni mömin möminlə evləndiyi kimi, zinakar da əməli olaraq özü kimi zinakar və ya müşrikə meyil göstərir və nəhayət, onlarla evlənir. Bir sözlə, ayədə şəri göstəriş yox, təkvini-təbii haram və qarşıdurmadan söz gedir.

2. Ayədə şəri haram nəzərdə tutulur, yəni zinakarla mömin əsla evlənə bilməz. Amma tövbə edənlərin və keçmiş günahlarından əl çəkib peşman olanların isə hökmü dəyişilir və artıq möminlərlə evlənə bilərlər.

**b) Dünya və axirətdə zinanın ağır nəticələri:** Zina və iffətsizliyin ağır və pis nəticələri ilə bağlı nəql olunan hədislərdə bu yolun yolçularına çox ciddi xəbərdarlıqlar

---

*1.. "Səginətül-bihar", 3-cü cild, səh.504.*

verilir. Məsələn, Peyğəmbəri-Əkrəm (s) imam Əliyə (ə) buyurub: *"Zina və iffətsizliyə qurşananlar dünya və axirətdə altı bədbəxtliyə düçar olarlar (ki, üçü bu dünyaya, üçü isə axirətə aiddir). Dünyada məruz qalacaqları bədbəxtliklər bunlardır: 1. Ondan iman nuru çəkilər; 2. Cavan ikən ölər (qəfil ölüm); 3. Ruzisi azalar. Axirətdə məruz qalacaqları bədbəxtliklər isə bunlardır: 1. Qiyamət günü hesabı (sorğu-sualı)* çətinləşər; 2. Allahın qəzəbinə gələr 3. Cəhənnəmdə əbədi qalar."[1]

Doğrusu, zinanın dünya və axirətlə bağlı nəticələri olduqca qorxulu və çətindir. Bu hədislə bağlı qarşıya çıxan iki mühüm sualı cavablandırmaq zəruri nəzərə çarpır:

**Birinci sual:** Hədisdə qeyd edilən "hesabı (sorğu-sualı) çətinləşər" – ibarəsində məqsəd nədir? Allah-Taala qiyamət günü bəndələrin hesab-kitabını çətinləşdirirmi? Hesab-kitabın və sorğu-sualın çətinliyi Allahın ədalət və hikməti ilə uzlaşırmı?

**Cavab:** Hesab-kitab və sorğu-sualın çətinliyi dedikdə, güzəştsiz mühakimə nəzərdə tutulur ki, bu da Allahın hikmət və ədalətinə zidd yox, əksinə eyni ədalətdir.

**İkinci sual:** Bildiyimiz kimi, kafirlər, müşriklər və imansız insanlar cəhənnəmdə əbədi qalacaqlar. Amma tövbə etməyən zinakar müsəlmanın cəhənnəmdə əbədi qalması insafdırmı?

**Cavab:** Həqiqətdə, tövbə etməyən zinakar şəxs dünyadan imansız gedir. Çünki imanla iffətsizlik bir-birinə ziddir və bu isə elə də qəribə bir məsələ deyil.

**c) Zinakar qadının körpəyə süd verməsi qadağandır:** Bəzən İslam zor tətbiq etmədən iffətsiz əməlin qarşısını

---

*1.. "Səfinətül-bihar", 3-cü cild, səh.504.*

almaq istəyir və hətta zinadan əmələ gələn körpənin ana südündən istifadə etməsinə icazə vermir. İmam Kazim (ə) iffətsiz əməl nəticəsində hamilə olub, uşaq dünyaya gətirən bir qadın barəsində soruşulan – "Südəmər uşaq həmin qadının südündən əmsin, ya yox?" suala belə cavab verir: "O qadının uşağına süd verməyə haqqı yoxdur. Nəinki o, hətta onun (zinadan doğulan) qız uşağı belə boya-başa çatıb evləndikdən sonra dünyaya gətirdiyi uşağa süd verə bilməz!"[1]

***MÜASİR DÖVRDƏ İFFƏT VƏ SAFLIQ***

**Sual:** Hər yeri fitnə-fəsad bürüdüyü, hər günaha asanlıqla şərait yarandığı bu zamanda hansı bir çirkinlikdən qorunmaq mümkündür? Belə şəraitdə hətta baxışları belə idarə etmək çətindir? Allah-Taala belə hallar üçün güzəşt yeri qoyubmu?

**Cavab:** Şübhəsiz, hər dövrdə günahlardan çəkinmək, iffəti qorumaq mümkün olan işdir. Bununla belə, cəmiyyətdə sağlam şəraitin yaranması üçün iki mühüm məsələyə diqqət yetirilməlidir:

**1. Təhrikedici amillərə qarşı mübarizə:** Cavanlar gərək günah məclislərində iştirak etməsinlər, baxışlarını qorusunlar, əxlaqsız və pozğun adamlardan uzaqlaşsınlar və eyni zamanda ruhi və bədən tərbiyəsi ilə məşğul olsunlar ki, iffət və saflıqlarını qoruya bilsinlər. Lakin bu işlərə qurşandığı halda, iffətli olmaq istəyənlər, aydındır ki, müvəffəq olmayacaqlar.

İslamın öz ardıcıllarını günaha şərait yaranan məkanlardan çəkindirməsi, qumar və şərab məclislərinə getməyi qadağan etməsi onların nəfslə mübarizə qüdrətini itirərək, tədricən günaha aludə olacaqları

*1.. "Cəvahirül-kəlam", 29-cu cild, səh.308.*

ilə əlaqədardır. Məsələn, cəmiyyətlərdə boşanmanın çoxalmasının ən mühüm səbəblərindən biri təhrikedici amillərə zəmin yaranmasıdır. Əxlaqsız film və səhnələrə tamaşa edən ər-arvadın bir-birindən təvəqqesi çoxaldığı və onu aradan qaldıra bilmədiyi zaman isti münasibətləri pozulmağa başlayır və boşanma ilə nəticələnir. Aşkar günah və fitnə-fəsada şərait yaradan cəmiyyətdə əxlaqi pozğunluqlara düşmə təhlükəsi inkaredilməz bir həqiqət olsa da, belə amillərlə mübarizədən çəkinməyin özü günah sayılır. O zaman həzrət Yusif (ə) kimi "ismət" məqamına malik bir şəxs iffət və saflığını qorumağı yalnız onda görür və Züleyxanın çirkin niyyətindən agah olduqda, ilk öncə günah mühitindən uzaqlaşmağı qərara alır. Hətta Yusif peyğəmbər (ə) kimi yüksək iman dərəcəsinə malik olsaq da, fitnə-fəsad və günaha şərait yaradan mühitlərdən qaçıb qurtarmalıyıq və bu da cavanlara tövsiyə olunan ən münasib yoldur.

**b) Evlənmə:** Cavanları vaxtında evləndirmək, təntənəli toy mərasimləri, ağır xərc və risqlərdən çəkinmək lazımdır. Şübhəsiz, aşağı təvəqqelər buna yol açır və hər kəsdən gücü çatan həddə toy xərci və hazırlıq tələb olunur. Evlənməni hər hansı şərtlərlə çətinləşdirənlər iffətsiz əməllərə qurşanan cavanların günahlarına şərikdirlər.

Deməli, bu iki meyarı əsas götürərək fitnə-fəsad və günah əsrində də iffət və saflığı qorumaq mümkündür.

### *İKİQAT ƏZAB NƏDİR?*

Allah-Taala "Furqan" surəsinin 68-ci ayəsində ilahi bəndələrin 6, 7 və 8-ci səciyyələrini bəyan etdikdən sonra, növbəti ayədə zina və iffətsiz əmələ qurşananların, günahsız insanın qanını tökənlərin, şirk və bütpərəstliyə

yol verənlərin ikiqat əzabından söz açır. Hansı günah ikiqat əzaba layiqdir? Heç ədalətli Allah bəndəsini bir günaha görə iki dəfə cəzalandırarmı? Bu isə "Ənam" surəsinin 160-cı ayəsi ilə necə uzlaşır?

وَمَن جَاء بِالسَّيِّئَةِ فَلاَ يُجْزَى إِلاَّ مِثْلَهَا وَهُمْ لاَ يُظْلَمُونَ

***"Kim pis bir iş görsə, ona həmin işin misli qədər cəza verilər və onlara zülm olunmaz (nə savabları azalar, nə də cəzaları artırılar)."***

Burada biz təfsir alimlərinin bu ayəyə verdikləri iki izahı qeyd etməklə kifayətlənirik:

1. Dünyada bir günahı neçə dəfə yerinə yetirənə ikiqat cəza verilmir. Axirətdə isə belə deyildir. Məsələn, bir məclisdə neçə stəkan şərab içənə neçə dəfə şallaq vurulmur və bir dəfə hesablanaraq cəzası təyin edilir. Yaxud, oğru tutulduğu zaman şəriət hakimi (qazi) ona yalnız bir dəfə cəza tətbiq edir. Qiyamət günündə isə hər bir günahın ayrıca cəzası var.

Demək, qeyd olunan "ikiqat əzab" axirət cəzalarına aiddir və hər bir günah üçün ayrıca cəza nəzərdə tutulacaq.

2. Bəzi günahlar aşkar, bəziləri isə gizli şəkildə yerinə yetirilir. Şübhəsiz, camaatın gözü önündə yerinə yetirilən günahın cəzası gizli şəkildə görülən günahla bərabər deyil. Aşkar şəkildə günah edən Allaha hörmətsizlik etməklə yanaşı başqalarını da günaha sövq edir. Demək, belə bir şəxs zahirdə (məsələn) şərab içsə də, həqiqətdə, üç günaha yol verir, harama əl atır, Allaha qarşı çıxır və başqalarını da ona təşviq edir. Odur ki, həmin şəxs bir günaha görə üç dəfə cəzalanmalıdır.

### *TÖVBƏ VƏ ALLAHA QAYIDIŞ*

Tərbiyənin üsullarından biri də islaha imkan verilməsidir. Günahkarlar heç vaxt düz yola qayıda bilməyəcəklərini düşünməməlidirlər. Bəziləri elə fikirləşir ki, onsuz da cəhənnəmə gedəcək, nə üçün dünyada qəm-qüssə çəkməlidir?! Necə deyərlər, islanmışın yağışdan nə qorxusu! Amma onun üzünə Allahın əfv və məğfirəti, ümid səhifələri açıldıqda, həyatı tamamilə dəyişilir, onda günahdan uzaqlaşmağa, paklıq və islaha doğru şövq yaranır. Buna görə də ümid hissi belə insanlar üçün həmişə psixoloji-tərbiyəvi əhəmiyyət daşıyır. Tövbə qapısı hətta müşriklərin, qatillərin, zinakarların da üzünə açıqdır! Hətta son nəfəsə qədər tövbə mümkündür və ömrünün son anlarında belə Allahın dərgahına ixlasla üz tutub tövbə edən bağışlanacaq. Zəngin İslam maarifini dualarında bəyan edən imam Səccad (ə) "Taibin" münacatında Allahın geniş lütf və mərhəmətindən üz döndərənlərə təəccüb edərək deyir: "İlahi, Sən bəndələrinin üzünə əfv və məğfirət qapısını açan, hamını ona doğru dəvət edən və rəhmət dəryandan bəhrələndirən Allahsan! Ey mənim Rəbbim, bu qapıya gəlməyənlər və ondan qafil olanların bəhanəsi nədir?"[1]

Yeri gəlmişkən, unutmamalıyıq ki, pozduğumuz hər hansı yarımçıq tövbələrimiz də təsirsiz deyildir! Məsələn hər hansı idman növü üzrə dünya qəhrəmanı heç vaxt birdən-birə ona nail olur. Bütün bunlar ardıcıl məşqlərin nəticəsidir. Yarımçıq tövbələr də, insanın ruhunda həmin xasiyyətə malikdir və günahın tərkində gücü artıraraq xalis tövbəyə imkan yaradır. Hər halda, heç

---

*1.. "Məfatihul-cinan", "Xəmsə əşər" münacatları, "Taibin" münacatı.*

zaman ümidsizliyə qapılmamalı, daim möhkəm iradə ilə Allahın geniş dərgahına üz tutaraq tövbə etməli, Allahın istəyi ilə xalis tövbəyə nail oluncaya qədər çalışmalıyıq!

### *TÖVBƏNİN QİSİMLƏRİ*

Töbvənin əhəmiyyəti, qisimləri, zamanı, təsirləri və s. məsələləri haqda ayə və rəvayətlər çoxdur və biz burada yalnız tövbənin qisimlərindən söz açacağıq:

Tövbə bir cəhətdən üç qismə bölünür:

**1. Dildə tövbə:** Belə tövbə yalnız sözdən ibarətdir və əməl və rəftarda heç bir dəyişiklik yaratmır. Hər gün "Əstəğfirullahə rəbbi və ətubu iləyh" – zikrini deyib, əməlindən əl çəkməyən hələ də qaranlıq günah vadisindədir. Belə insan özünü ələ salır,[1] Allahın əmrini, dini təlimləri masqara edir.

**2. Ötəri tövbə:** Bəzən günahkar insan qəflət yuxusundan ayılaraq öz keçmişindən peşman olur və tövbə edir; həm tövbənin sözlərini dilə gətirir, həm səmimi qəlbdən peşman olur, həm də günahların tərkinə dair qəti söz verir. Amma bu vəziyyət çox çəkmir və həmin vəziyyətdən çıxıb, hər şeyi unutduqda, keçmiş yoluna davam etməyə başlayır. Alimlər bu sayaq tövbələri suyun içinə qoyulan xəlbirə bənzədirlər, suda olduqda su ilə dolu görünür, sudan götürüldükdə isə, içində bir damla belə su qalmır. Ötəri tövbələr də bu qəbildəndir.

**3. Əsaslı tövbə:** Bu tövbə insanın canı və ruhunda təsir qoyduğundan əməl, rəftar və danışıqlarda özünü büruzə verir. Odur ki, belə tövbəkarlar tövbədən sonra günahların zərərini saleh əməllərlə bərpa edirlər. Çünki tövbədən sonra insan xəstəlikdən sağalan, lakin

*1.. "Biharul-ənvar", 6-cı cild, səh.36, hədis: 54 və səh.1, hədis: 75.*

xəstəliyi müddətində itirdiyi qüvvəsini əldə etməyən şəxsə bənzəyir. Tövbəkar insan geri qayıtmasa da, hələ günahın təsirləri ruhunda qalmaqdadır. Onun ağır zərbələri ruhunu zəiflətdiyi üçün, yaxı və saleh əməllərlə (ən azı günahları qədər) onu gücləndirməlidir ki, yenidən günaha qayıtmasın. İmam Əli (ə) bu haqda buyurur: *"...Tövbənin beşinci şərti odur ki, haram nəticəsində bədəndə bitən ət dəri sümüyə çatana (sümüklər görünənə) qədər əridilsin və (itaət vasitəsilə) yerini yeni ət doldursun."*[1]

Bəli, günahdan bitən ətlər zəhərlidir və sağlam ətlərin inkişafı üçün onların əridilməsi labüddür. Əks-təqdirdə, yenidən günah və məsiyətə düşmə ehtimalı gözlənilir. Bununla yanaşı, hər hansı şəxsin mənimsənilmiş haqqı ödənilməli, onun razılığı qazanılmalı və yaxud ondan halallıq alınmalıdır və tərk edilən ibadətlərin də qəzası yerinə yetirilməlidir.

Bir sözlə, tövbənin qisimləri içərisində üçüncüsü həqiqi tövbə sayılır və digər qisimlər isə insanın yalnız özünü aldatdığı səthi bir haldır.

***GÜNAHLARIN SAVAB VƏ İTAƏTƏ ÇEVRİLMƏSİ***

Həqiqi tövbə qəribə təsirə malikdir! Bir çox ayələrə əsasən, belə tövbədən sonra Allah-Taala həmin günahları tamamilə savab və yaxşı əməllərə çevirir! Yəni xatakar və günahkarın üzrünü qəbul edir, onu cəzalandırmaqdan daşınaraq bağışlayır və hətta ona qiymətli bir hədiyyə də əta edir! Görəsən, bundan böyük alicənablıq varmı? Peyğəmbəri-Əkrəm (s) buyurur: *"Qiyamət günü çoxları əməl dəftərinə baxıb, nagahan heyrət və təəccübdən fəryad edərək deyəcəklər: "Səhvə yol verilib, bu bizim dəftərimiz deyil! Burada gördüyümüz günahlar və yerinə yetirmədiyimiz*

*1.. "Nəhcül-bəlağə", qısa kəlamlar 417.*

*ibadətlər qeyd edilib! Mütləq səhv düşüb, başqasının əməl dəftəri bizə verilib!" Onlara belə xitab olunar: "Xeyr, heç də səhvə yol verilməyib, bu sizin özünüzündür. Siz dünyada tövbəyə müvəffəq olduğunuz (həqiqi tövbə etdiyiniz), saleh və yaxşı əməllərlə qara keçmişinizi işıqlandırdığınız üçün, Biz sizin əməl dəftərinizdəki günahları savab və ibadətə çevirmişik!"* Sonda Peyğəmbəri-Əkrəm (s) **"Allah onların günahlarını yaxşılıqlara çevirər."**[1] – ayəsini tilavət edərkən mübarək çöhrəsində sevinc duyulur və təbəssümdən hətta dişləri belə görünür.[2]

Doğrusu, tövbə mehriban Allaha minnətdarlıqdır. Xoşbəxtlik arzulayanlar hökmən Onun mərhəmət dəryasına üz tutmalıdırlar.

Doğrusu, mehriban, bağışlayan, rəhmli, kəramətli, səxavətli və tövbələri qəbul edən Allahın rəhmət qapısından uzaqlaşanlar necə də qafildirlər!...

---

*1.. "Furqan" surəsi, ayə 70.*

*2.. "Nurus-səqəleyn", 4-cü cild, səh.33 ("Təfsiri-nümunə"dən nəqlən, 15-ci cild, səh.161.*

# 9

## YALANDAN ŞAHİDLİK ETMƏZLƏR!

Rəhman Allahın həqiqi bəndələrinin doqquzuncu xüsusiyyəti odur ki, onlar heç vaxt azğın işlərin şahidi olmazlar. "Furqan" surəsinin 72-ci ayəsində buyurulur:

...وَالَّذِينَ لَا يَشْهَدُونَ الزُّورَ

***"...və azğınlığın şahidi olmayanlardır."***

Ayədə qeyd olunan "zur" sözü ilə bağlı cüzi fərqlə iki təfsir qeyd edilmişdir:

1. Rəhman Allahın həqiqi bəndələri batil işlərə şahid durmazlar. "Zur" sözünün hər hansı "batil" iş və fikrə aid edildiyini nəzərə alaraq Allahın həqiqi bəndələrinin nə batil işlərə qoşulduqlarını, nə də batilə haqq don geyindirdiklərini güman etməliyik. Onlar ata, ana, bacı, qardaş, qohum-əqrəba, dost-tanış, yoldaş və həmkarların, bir sözlə, kiminsə razılığını Allahın razılığından üstün bilməzlər.

2. (Daha dəqiq nəzərə çarpan bu izaha əsasən,) Allahın həqiqi bəndələri batil məclislərdə iştirak etməzlər. Günaha qarışan hər hansı məclis "zur və batil məclisi" hesab edilir və ilahi bəndələr belə məclislərdə əsla iştirak etməzlər. Onlar ata-ana, qohum-əqrəba, dost-tanış, qonşu və həmkarlara görə, günah məclislərində hazır olmazlar. Onları təkcə Yaradanın razılığı maraqlandırır. Təəssüflər olsun ki, indiki zamanda şənliklərə daha çox günah qarışır və əksər toy məclisləri günahla yoğrulur. Hətta

dinə uyğun adla bərpa olunan bəzi mərasimlər (Allahın razılıq meyarı ilə ölçüldükdə) günah məclislərindən heç də fərqlənmir, məsum imamların mövlud günləri ilə bağlı təşkil olunan yığıncaqlara musiqi və rəqs qarışır. Həmin yığıncaqlar zahirən ibadət və din rəhbərlərinə ehtiram məqsədlə qurulsa da, musiqi və rəqsə qarışdığından, sözsüz, dinə zidd və günah məclisləri sayılır! Deyirlər ki, siqaretin tüstüsü çəkənin özündən çox çəkməyənə zərərlidir!" Günah məclisində iştirak etmək də buna bənzəyir?

Təhsildə müvəffəq olmayan tələbə, gecə namazına dura bilməyən mömin, sədəqə verməyən və yoxsullara yardım etməyən müsəlman, namazda mənəvi halı olmayan, onun müstəhəb əməlləri və nafilələrinə qarşı hövsələsiz olan namazqılan, aclıq və susuzluqdan başqa bir şey qazanmayan oructutan, həcc mərasiminin əməllərini halsız görən hacı, xüms və zəkatı rəğbətsiz verən sərvətli və s. öz müvəffəqiyyətsizliyinin əsas səbəbini keçmiş əməllərində, Allaha itaətsizliklərində arayıb-axtarmalıdır.

İlahi, bizi günah və məsiyət məclislərindən uzaq et!

# 10

## BİHUDƏ İŞLƏRƏ ETİNASIZLIQ

Rəhman Allah, həqiqi bəndələrin onuncu səciyyəsini belə açıqlayır:

وَإِذَا مَرُّوا بِاللَّغْوِ مَرُّوا كِرَامًا

***"...və onlar bihudə və boş şeyin yanından etinasız və alicənablıqla keçərlər."[1]***

Allahın həqiqi bəndələri bihudə və boş işlərə əhəmiyyət verməz, belə yığıncaqlarda iştirak etməz, onların kənarından alicənablıqla keçər və əsla etina etməzlər.

Qurani-Kərimdə bihudə işlərə etinasızlıqla bağlı bir sıra ayələr gözə çarpır ki, burada onların neçəsinə işarə edirik. Məsələn, "Muminun" surəsinin 3-cü ayəsində belə buyurulur:

وَالَّذِينَ هُمْ عَنِ اللَّغْوِ مُعْرِضُونَ

***"(Həqiqi möminlər) bihudə və boş işlərdən tamamilə üz döndərirlər."***

"Qəsəs" surəsinin 55-ci ayəsində möminlər belə vəsf edilir:

وَإِذَا سَمِعُوا اللَّغْوَ أَعْرَضُوا عَنْهُ وَقَالُوا لَنَا أَعْمَالُنَا وَلَكُمْ أَعْمَالُكُمْ سَلَامٌ عَلَيْكُمْ لَا نَبْتَغِي الْجَاهِلِينَ

---

*1.. "Furqan" surəsi, ayə 72.*

***"(Möminlər) boş bir söz (istehza, söyüş, qeybət) eşitdikləri zaman, ondan üz döndərər və deyərlər: Bizim əməllərimiz özümüzə, sizin əməlləriniz də özünüzə aiddir. Bəs, salamat qalın! Bizim cahillərlə dostluq və yoldaşlığımız tutmaz."*** Yersiz və boş-boş danışmaq, mücadilə və mübahisə möminlərə yaraşan xislət deyil. "Vaqiə" surəsinin 25-ci ayəsində behişt əhli belə vəsf edilir:

لَا يَسْمَعُونَ فِيهَا لَغْوًا وَلَا تَأْثِيمًا

***"(Behişt əhli) cənnətlərdə əsla bihudə və günah sözlər eşitməzlər."*** Yersiz söhbətlərdən daşınma hətta behişt nemətlərindən biri kimi tanıtdırılır.

Qeyd edilən ayələrə əsasən, bihudə və boş sözlərdən çəkinmə, yersiz işlərdən uzaqlaşma iman nişanəsi, Allahın həqiqi bəndələri və behişt əhlinin səciyyəsidir.

### *"LƏĞV" (BİHUDƏ İŞ) NƏDİR?*

"Ləğv" sözünün mənasının aydınlaşması üçün "ləhv" və "ləib" sözlərini şərh etməyi lazım bilirik:

**a) "Ləhv"**: bu söz əyləncə mənasını daşıyır. Əyləncə iki qisimdən ibarətdir: faydalı və faydasız. Birinci qisim bəyənilən işlərin sırasına daxildir və ikinci qisim isə zərərli və bir çox günahların mənşəyi sayılır. Məlum olduğu üzrə, insan daim işləyə, ibadət və namazla məşğul ola bilməz. Onun istirahət və sağlam əyləncəyə də ehtiyacı var, o, bununla rahatlıq tapır, yenidən iş və fəaliyyət üçün güc-qüvvə toplayır. Demək, istirahət və əyləncə asayiş üçün bir zərurətdir. Bu məsələ ayrı-ayrı hədislərdə də özünə yer alır, həyatın ayrılmaz bir hissəsi kimi vurğulanır. Məsələn, imam Əli (ə) buyurur: "Mömin şəxs ovqatını üç hissəyə bölməlidir: *bir hissəsini Allahla ibadət və münacata sərf etsin, bir hissəsini ruzi və*

*keçinəcəyinə ayırsın, bir hissəsini də gözəl və halal ləzzətlərdən bəhrələnməyə sərf etsin."*[1]

Vaxtın bir hissəsi Xaliqlə məxluqun rabitəsinə həsr olunmalı və hərə öz səviyyəsinə uyğun raz-niyazla məşğul olmalıdır.

İslam dilənçilik və gədalığı bəyənmir və hər kəsin öz əlinin zəhməti ilə dolanmağını tövsiyə edir. Yeri gəlmişkən qeyd edək ki, qazanc, maddi imkanlar, rifah və ailənin rahatlıq və asayişi "fellərdə tövhid" inancı ilə heç də ziddiyyət təşkil etmir. Bunlar Allahın əmrinə əsaslanır və hətta "qürbət" (Allaha yaxınlıq) niyyəti ilə görülən işlər ibadət sayılır.

Bəzi hədislərdə ovqat bölgüsündən sonra belə buyurulur: "İbadət, dolanışıq və insanlarla rabitəyə güc toplamaq üçün istirahət və əyləncəyə ayrılan vaxt sizə yardımçıdır."[2] Çox vaxt istirahət və əyləncəyə vaxt ayırmayan, daim işləyən işçinin əməyi də keyfiyyətsiz olur.

**b) "Ləib":** bu söz "oyun" mənasını daşıyır və onun da növləri vardır. Bəzi oyunlar uşaqlıq dövrünə aiddir və onlarda bir məqsəd izlənilmir və insanı ona vadar edən instinktiv hisslərdir. Əlbəttə, bu sayaq oyunlar uşaqların əsəb sisteminin güclənməsi, əzələ və sümüklərin möhkəmlənməsi, cismi və əqli inkişafına təməl sayılır.

Bəzi oyunlar böyüklərə aiddir və müəyyən məqsəd və biçim üzrədir. Müqəddəs şəriətdə belə oyunlara qadağa qoyulmayıb. Bu şərtlə ki, maddi baxımdan udub-uduzmaq, qumar şərtləri olmasın və təhlükəli də hesab edilməsin. Deməк, təhlükəli və qumar xarakterli

---

*1.. "Nəhcül-bəlağə", qısa kəlamlar 390.*

*2.. "Biharul-ənvar", 75-ci cild, səh.321 və 346.*

oyunlar haramdır.

**c) "Ləğv":** bihudə və məqsədsiz işlərə "ləğv" deyilir; istər yersiz sözlər, istər belə əməl və rəftarlar, istərsə də, puç və bihudə düşüncələr "ləğv" sayılır. Məşhur dilçi alim Rağib İsfahani dəyərli "Müfrədat" kitabında yazır: "Ləğv" sözü "sərçələrin cikkiltisi" mənasını ifadə edən "ləğa" sözündən alınmışdır. Bahar fəslində sərçələr ağacların başına toplaşaraq cikkildəməyə başlayar və camaat bu səsləri mənasız təsəvvür etdiyindən ərəblər ona "ləğa" deyərmişlər. Sonra isə bu söz geniş mənada bihudə, yersiz iş və sözlərə də aid edilmişdir.

Demək, "ləğv" sözü bihudə və məqsədsiz əməl, söz və fikirlərə aid edilir. Allahın həqiqi bəndələri və övliyaları heç vaxt yersiz və məqsədsiz işlərə qoşulmaz, ləğv və bihudə yığıncaqların kənarından da etinasız və alicənablıqla keçərlər. Yeri gəlmişkən, qeyd edək ki, bir fərdin ləğv və bihudə işə əl atması mümkün olduğu kimi, bir cəmiyyət və ölkənin də bu bəlaya düçar olması mümkündür. Məsələn, qəzet və jurnallarda ləğv və bihudə materiallara daha çox rast gəlinir və ya əksər ictimai-siyasi qurumlarda faydalı məqsədlər göz az dəyir. Son dərəcədə təəssüflə deməliyik ki, zahirdə ağıllı və siyasətçi görünənlərin çoxu ömrünü ləğv və bihudə işlərlə keçirir. Dövrümüzdə yığıncaq və qonaqlıqlara toplaşıb saatlarla vaxtlarını bihudə və faydasız keçirənlərin sayı az deyil. Allahın həqiqi bəndələri belə yığıncaqlardan uzaqdırlar. Bu barədə imam Əlinin (ə) *"İnsanın nəfəsləri ölümünə doğru addımdır!"*[1] – kəlamı nə qədər dəyərlidir! Doğrusu, insan ömür adlı böyük sərmayəni necə asanlıqla tələf olur! Belə ömür ona qəm-

*1.. "Nəhcül-bəlağə", qısa kəlamlar 74.*

qüssədən başqa bir töhfə verməz. Bəlkə də, insanın daim zərər və ziyanda olduğunu açıqlayan "Əsr" surəsi ömür sərmayəsini bihudə keçirən və heç bir şey qazanmayan belə kütlələrə aiddir.

# 11

## EŞİDƏN QULAQ VƏ GÖRƏN GÖZ

Rəhman Allahın həqiqi bəndələrinin on birinci səciyyəsi haqq sözü dinləyən qulağa və həqiqəti görən gözə malik olmalarıdır. Allah-Taala Qurani-Kərimdə bu xüsusiyyəti belə açıqlayır:

وَالَّذِينَ إِذَا ذُكِّرُوا بِآيَاتِ رَبِّهِمْ لَمْ يَخِرُّوا عَلَيْهَا صُمًّا وَعُمْيَانًا

***"(Allahın həqiqi bəndələri) Rəbbinin (vəhy, Quran və moizə kimi) nişanələri xatırlandıqa, ona kar və kor (kimi) itaət etməzlər."[1]***

Bu ayə ilə bağlı bir neçə məsələ diqqəti cəlb edir:

**1.** Rəbbin nişanələrini yada salanlar kimlərdir? Peyğəmbərlər və imamlardır, yoxsa alimlər və yaxud hər kəs? İlahi nişanələrin kimlər tərəfindən yada salınmasının həqiqi bəndələrə fərqi varmı?

**Cavab:** Ayədə "xatırladan" şəxsin kimliyi haqda söz açılmır. Odur ki, ilahi bəndələr Allahın nişanələri xatırlandığı zaman kar və kor deyillər, onların eşidən qulaqları, görən gözləri vardır.

**2.** "Rəbbin nişanələri" nədir?

**Cavab:** Bu haqda iki ehtimal var:

a) Məqsəd "təşrii nişanələr"dir, yəni Quran ayələri, vəhy və s.

b) Məqsəd "təkvini nişanələr"dir, yəni yaradılış aləmində Allahın əzəmət və böyüklüyünü, nizam-

---

*1.. "Furqan" surəsi, ayə 73.*

intizamı, elm, qüdrət və s. qəribəlikləri bildirən nişanələr nəzərdə tutulur. Əlbəttə, üçüncü ehtimal kimi hər iki qismi birgə nəzərə almaq da olar. Hər halda onlar Allahın təşrii və təkvini aləmə dair nişanələri xatırlanan zaman bunu eşidən qulaq və görən gözlə qarşılayarlar.

**3.** Ayədə qeyd olunan "summ" sözü "kar insanlar" mənasını daşıyan "əsəmm" sözünün, "umyan" sözü isə "kor insanlar" mənasını verən "əma" sözünün cəm formasıdır. Demək, ayədəki ***"ləm yəxirru ələyha summən və umyanən"*** – ibarəsi haqda deməliyik ki, bir sıra müsəlmanlar ilahi nişanələri görüb-eşitsələr də, onun möhtəvasından çox zahirinə qapılırlar. Beləléri ilahi nişanələrə qarşı gözləri kor, qulaqları isə kar sayılır. Məsələn, o zaman Nəhrəvanda baş qaldıran "xəvaric" qrupu və ya indiki dövrdə zahir olan taliban və vəhhabilər eynilə bu tip insanlardır. Onları İslam və şəriətin yalnız zahiri maraqlandırır, nə qədər Quran tilavət etsələr də, gecələri ibadətlə keçirib alın və dizləri pinə bağlasa da, ilahi nişanə və ayələrin möhtəvasından bəhrəsizdirlər. Şübhəsiz, cahil və nadanların səhv, xəta və təhlükəsi düşmənlərlə müqayisədə olduqca çoxdur.

Rəhman Allahın həqiqi bəndələri isə haqqı tam mənası ilə eşidən, həqiqəti bütün aydınlığı ilə görən insanlardır.

### *MƏNƏVİ HƏYAT*

Qurani-Kərimə görə, həyat mənəviyyatla məna kəsb edir və onsuz həyat puçdur.

İnsanların çoxu zahirən diri olsalar da, yəni nəfəs alıb-versələr də, yemək yesələr də, işləsələr də, nəsil artırsalar da, cəmiyyətdə qürur və təkəbbürlə dolansalar da, Qurani-Kərim onları ölü adlandırır. "Ənfal" surəsinin

24-cü ayəsində bu haqda belə buyurulur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اسْتَجِيبُواْ لِلّهِ وَلِلرَّسُولِ إِذَا دَعَاكُم لِمَا يُحْيِيكُمْ ...

***"Ey iman gətirənlər, (Peyğəmbər) sizi həyat verən şeyə tərəf dəvət edən zaman Allahın və Peyğəmbərin çağırışını qəbul edin..."***

Belə ayələr zaman və məkana görə ölçülmür və hər kəsə şamildir. Biz də ona şamil oluruq. Allah-Taala bu ayədə diri və maddi həyata malik olan insanları yeni həyat verən şeyə dəvət edir və bu da məhz mənəvi həyatdır. "Nəml" surəsinin 80-81-ci ayələrində bu mətləb daha aşkar bəyan edilir:

إِنَّكَ لَا تُسْمِعُ الْمَوْتَى وَلَا تُسْمِعُ الصُّمَّ الدُّعَاء إِذَا وَلَّوْا مُدْبِرِينَ. وَمَا أَنتَ بِهَادِي الْعُمْيِ عَن ضَلَالَتِهِمْ إِن تُسْمِعُ إِلَّا مَن يُؤْمِنُ بِآيَاتِنَا فَهُم مُّسْلِمُونَ

***"(Ey Peyğəmbər!) Şübhəsiz, sən (sözünü) ölülərə eşitdirə bilməzsən və öz dəvətini üz çevirib dönən karlara çatdıra bilməzsən. Sən (o) korqəlbliləri azğınlıqdan düz yola gətirən deyilsən! Sən (öz dəvətini) yalnız (həqiqətən) iman gətirənlərə eşitdirə bilərsən. Elə buna görə də, (onlar Bizim müqabilimizdə) təslimdirlər."***

Ayədə qeyd olunan "ölülər" torpaq altında yatanlar deyil, əksinə maddi həyata malik və mənəvi həyatdan uzaq, eşidən qulaqları, və görən gözləri olmayan diri insanlardır. Belələri haqq sözü eşitməz, Peyğəmbəri-Əkrəm (s) Quran tilavət etdiyi zaman barmaqları ilə qulaqlarını tutar, hələ libaslarını da başlarına çəkərlər! Onlara ən böyük hidayətçi və xilaskarın sözü belə təsir etməz. İmam Əli (ə) Kumeyl ibn Ziyada buyurur: *"Sərvət yığanlar zahirdə dirilərin sırasında olsalar da, ölüdürlər.*

*Alimlər isə dünya durduqca diridirlər. Onların ruhu dünyadan getsə də, çöhrələri qəlblərdə (və xatirələrdə) yaşayır."*[1]

Bu hədisdə bir neçə məsələ diqqəti cəlb edir:

1. İmam Əli (ə) mal-dövlət toplayıb, nə özləri, nə də başqalarının bəhrələnməsinə icazə verən sərvətliləri ölü adlandırır.

2. Cəmiyyətin inkişafı üçün çalışan din alimləri, imam Əlinin (ə) təbirincə, "rəbbani alimlər" həmişə diri və mənəvi həyata sahibdirlər, hətta dünyalarını dəyişsələr belə! Çünki onların adı və xatirəsi, düşüncələri, əsərləri, təlimləri və şagirdləri yaşayır və bu da onları yaddaşlarda əbədi saxlayır.

İslam nöqteyi-nəzərindən hər bir şeyin həyat və ölümü onun təsiri və bərəkətindən asılıdır. Xeyir-bərəkəti davamlı olan hər bir şey xarici vücudu olmasa da, diri, xeyir-bərəkəti və müsbət təsiri olmayan şey isə diri olsa da, ölüdür. Elə buna görə də, İslam mədəniyyətində haqqı eşitməyənlərə "kar", həqiqəti görməyənlərə isə "kor" deyilir.

---

*1.. "Nəhcül-bəlağə", qısa kəlamlar 147.*

12

# HƏMİŞƏ DUA EDƏNLƏR

Qadir Allahın dərgahına əl açıb dua etmək rəhman Allahın həqiqi bəndələrinin on ikinci xüsusiyyətidir. Mehriban Allah bu səciyyəni belə vəsf edir:

وَالَّذِينَ يَقُولُونَ رَبَّنَا هَبْ لَنَا مِنْ أَزْوَاجِنَا وَذُرِّيَّاتِنَا قُرَّةَ أَعْيُنٍ وَاجْعَلْنَا لِلْمُتَّقِينَ إِمَامًا

***"(Allahın həqiqi bəndələri) "Ey Rəbbimiz, zövcələrimiz və övladlarımızdan bizə göz aydınlığı (saleh, pak və təqvalı nəsillər) əta et və bizi təqvalılara başçı seç!" – deyirlər."[1]***

Burada bir neçə mətləbi qeyd etməyi zəruri bilirik:

**1.** İndiki zaman fel formasında qeyd olunan "yəqulunə" *(deyirlər)* ibarəsi ilahi bəndələrin dua və yalvarışlarının davamlı olmalarını bildirir. Adətən, imanı zəif insanlar yalnız çətinliklər zamanı Allaha üz tutur, ehtiyac və çətinlikləri aradan qalxdıqda, Onu unudurlar.

**2.** İlahi bəndələr yalnız dua və istəklə qənaətlənməyir, eynilə yeri şumlayan, toxumu əkən, sahəni suvarıb vaxtında dərmanlayan, münasib zamanlarda alaqları biçən, nəhayət, yaxşı məhsul götürmək üçün əlini duaya qaldıran əkinçiyə bənzəyirlər. Onlar ailə-uşaqlarının düzgün tərbiyəsi istiqamətində heç nəyi əsirgəmir, onları fəsad və inhiraf amillərindən uzaq saxlayır və eyni zamanda onların islahı və hidayəti üçün də dua edirlər.

---

*1.. "Furqan" surəsi, ayə 74.*

Şübhəsiz, belə duaların qəbuluna ümid çoxdur!

**3.** “Qurrətu əyun” sözünü dilimizdə göz aydınlığı, gözün nuru, xoşbəxtlik, fəxr və sevincə səbəb olan hər bir şeyə aid etmək olar.

***DUA***

Dini maarifdə duaya, xüsusilə Xaliqlə daimi rabitəyə yüksək yer verilir. Belə ki, Allah-Taala “Furqan” surəsinin sonuncu (77-ci) ayəsində Peyğəmbəri-Əkrəmə (s) xitabən buyurur:

قُلْ مَا يَعْبَأُ بِكُمْ رَبِّي لَوْلَا دُعَاؤُكُمْ

***“(Ey Peyğəmbər!) De: Əgər dualarınız olmasa, mənim Rəbbim sizə əhəmiyyət verməz...”***

İnsanın mütləq qüdrət sahibinə təmənnası və ehtiyac hissi olmayanadək lütfdən məhrumdur və Onun dərgahında qədir-qiyməti yoxdur. Duanın xüsusi yerini bəyan edən bu qısa və mükəmməl epiqraf, onu tam dolğunluğu ilə əks etdirir. Bununla bağlı hədislərdə də gözəl təbirlər gözə dəyir ki, onlardan iki nümunəni qeyd edirik:

1. İslam Peyğəmbəri (s) buyurur: *“Həqiqətən, möminin silahı duadır.”*[1] Yəni duasız bəndə özünü müdafiə etməyə qadir deyil.

2. İmam Əli (ə) də buyurur: *“Dua qurtuluş çırağı, qələbə və doğruluq açarıdır.”*[2]

Doğrusu, nə üçün dua bu qədər əhəmiyyətə malikdir?

***DUANIN ƏHƏMİYYƏTİ İLƏ BAĞLI MƏQAMLAR***

**1.** Dualar, məxsusən məsumların duaları böyük əxlaq

1.. *“Mizanul-hikmət”, bölmə: 1198, hədis: 5759.*

2.. *“Mizanul-hikmət”, bölmə: 1197, hədis: 5746.*

və tərbiyə dərsləri ilə doludur. Məsələn, “Nüdbə duası” məzmununa görə imamət və vilayət dərsidir. Özündə yüksək ilahi maarifi əks etdirən “Ərəfə duası” tövhid və yeganəpərəstliyin tərcümeyi-halıdır. “Kumeyl duası” bizə tövbə, özünütərbiyə və nəfslə mübarizə dərsini aşılayır. “Məkarimul-əxlaq duası” İslam əxlaqı ilə bağlı kamil dərslikdir.

**2.** Dua insana diqqət yetirmədiyi və unutduğu məsələləri xatırladır. Buna mübarək Ramazan ayında gündəlik namazlardan sonra oxunan aşağıdakı duanı misal çəkə bilərik:

اَللّـهُمَّ اَدْخِلْ عَلى اَهْلِ الْقُبُورِ السُّرُورَ

“İlahi, qəbiristan əhlinə şadlıq bəxş et!

اَللّـهُمَّ اَغْنِ كُلَّ فَقير

İlahi, bütün yoxsulları ehtiyacsız et!

اَللّـهُمَّ اَشْبِعْ كُلَّ جائِع

İlahi, bütün acları doyuzdur!

اَللّـهُمَّ اكْسُ كُلَّ عُرْيان

İlahi, libası olmayan bütün çılpaqları geyindir!

اَللّـهُمَّ اقْضِ دَيْنَ كُلِّ مَدين

İlahi, bütün borcluların borclarını ödə!

اَللّـهُمَّ فَرِّجْ عَنْ كُلِّ مَكْرُوب

İlahi, bütün çətinliyi olanları qəm-qüssədən xilas et!

اَللّـهُمَّ رُدَّ كُلَّ غريب

İlahi, bütün qəribləri (vətənlərinə) qaytar!

اَللّـهُمَّ فُكَّ كُلَّ اسير

İlahi, bütün əsirləri əsirlikdən qurtar!

اَللّـهُمَّ اَصْلِحْ كُلَّ فاسِد مِنْ اُمُورِ الْمُسْلِمينَ

İlahi, müsəlmanların işlərindəki hər hansı fəsadı islah et!

اَللّـهُمَّ اشْفِ كُلَّ مَريض

İlahi, bütün xəstələrə şəfa ver!

اللّهُمَّ سُدَّ فَقْرَنا بِغِناكَ

İlahi, sərvətinlə yoxsulluğumuzu aradan qaldır!

اَللّـهُمَّ غَيِّر سُوءَ حالِنا بِحُسْنِ حالِكَ

İlahi, gözəl halınla uğursuzluğumuzu dəyişdir!

اَللّـهُمَّ اقْضِ عَنَّا الدَّيْنَ وَاَغْنِنا مِنَ الْفَقْرِ

İlahi, borclarımızı ödə və bizi yoxsulluqdan qurtar!

اِنَّكَ عَلى كُلِّ شَيء قَديرٌ

Həqiqətən, Sən hər şeyə qadirsən!"

Bu dua insanın il boyu unutduğu əsaslı məsələləri yada salır. İnsana öyrədir ki, dünyadan gedənlərin fikrində olsun, yoxsulların ehtiyaclarını aradan qaldırsın, acları doyuzdursun, münasib geyim tapa bilməyənlərə yardım etsin, borclarını ödəyə bilməyənlərin borcunu

qaytarmaq üçün bir çarə fikirləşsin, dərdi olanların qəm-qüssəsini aradan qaldırsın (nəinki artırsın), yolda qalmış müsafirlərə və vətənindən ayrı düşənlərə kömək etsin, zaman ötdükcə yaddaşlardan silinən məhbusların azadlığı üçün addım atsın, cəmiyyəti bürüyən fəsadların islahı üçün çalışsın, müsəlman xəstələrin şəfası üçün əlini duaya qaldırsın və s.

Bəzən insan işinin çoxluğundan öz vəziyyətindən belə qafil olur. O zaman bu dua onu öz yadına salır və ona xatırladır ki, mübarək Ramazan ayı kimi dəyərli bir vaxtlarda ruhi və cismi, maddi və mənəvi gərginliklərinin çarəsi haqda düşünsün, qəflət pərdələrini aradan qaldırsın və hər bir işə qadir olan varlıqdan yardım diləsin. Demək, duaların insanı qəflət yuxusundan ayıldan dəyərli xassəsi vardır.

3. Duanın qəbul şərtlərindən biri iş və fəaliyyətdir. Dua mədəniyyətilə tanış olanlar bilirlər ki, dua insanı iş və fəaliyyətə cəlb edir, onu süstlük və tənbəllikdən çıxarır.

Allahdan yaxşı ailə, saleh zövcə və nümunəvi övlad istəyən şəxs ülvi hədəflərə çatmaq üçün, bütün qüvvəsini səfərbər etməli, mümkün olmayanı Allahdan diləməlidir.

### *İSLAM VƏ ÖVLAD TƏRBİYƏSİ*

İslamın övlad tərbiyəsi ilə bağlı metodologiyası misilsizdir. Adətən, uşağın tərbiyəsi beşinci yaşdan məsləhət görülürsə, İslam dinində isə bu, onun dünyaya gəldiyi andan, bəlkə də, dünyaya göz açmamışdan qabaq, hələ ananın bətnindəki rüşeym aləmindən başlanır və hətta ondan da qabaq gələcək övladın səadət və xoşbəxtliyi üçün ata-anaya faydalı göstərişlər verilir,

ideal ailə üçün ölçülər irəli sürülür.[1] Hələ hamiləlik dövründə qida növlərinə, haram və hətta şübhəli yeməklərə dair dəyərli tövsiyələr vardır.[2]

Hədislərdə uşaqlar üçün bir çox hüquqlar nəzərə alınır ki, hər biri valideynlər üzərinə düşən vəzifə və borcdur.

**a) Yaxşı ad:** Adlar uşaqlara xüsusi təsir bağışlayır. Yaxşı ad yaxşı, pis ad da pis əhval-ruhiyyə yaradır. Övlada yaxşı və münasib ad seçmək uşağın valideyn üzərindəki haqlarından biridir.

**b) Quran öyrətmək:** Səmavi kitabımız Allahın kəlamı olan Qurani-Kərimlə tanışlıq hər bir müsəlmana vacibdir və nə yaxşı olar ki, bu tanışlıq uşaqlıq çağlarından başlanılsın. Şübhəsiz, bunun insanın əsl düşməni olan şeytanla mübarizəsində müstəsna təsiri olacaqdır.

**c) İdman (xüsusilə ox atmaq və üzgüçülük):** İslamda insanın ruh və cismi sağlamlığı eyni mahiyyət daşıyır və hər birinin öz yeri var.

Qeyd edilən hər üç hüquqla əlaqədar, habelə övladın digər vəzifələri haqda bir neçə hədislə kifayətlənirik:

1. Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur: *"Övladlarınızı üç xislətlə tərbiyələndirin: Peyğəmbərinizə məhəbbətlə, Peyğəmbərin Əhli-beytinə məhəbbətlə və Quranı öyrətməklə."*[3]

2. Peyğəmbəri-Əkrəm (ə) buyurmuşdur: *"Övlad üçün ədəbdən qiymətli və üstün bir miras yoxdur."*[4]

---

*1.. "Vəsailüş-şiə", 14-cü cild, səh.29; "Müstədrəkül-vəsail", 14-cü cild, səh.174.*

*2.. "Hilyətül-müttəqin", səh.44-45.*

*3.. "Kənzül-ümmal", 16-cı cild, səh.456, hədis: 45409.*

*4.. "Ət-tibyan", 4-cü cild, səh.514; "Kənzül-ümmal", 16-cı cild, səh.45, hədis: 45411.*

Çoxları övladlarına ev, maşın, cehiz və s. almaqla böyük xidmət etdiyini təsəvvür edir. Halbuki yuxarıdakı rəvayətə əsasən, ən dəyərli miras düzgün tərbiyə və gözəl ədəb-ərkandır. Düzgün tərbiyə olmadıqda, deyilən bütün maddi imkanlar, tez bir zamanda hər hansı əxlaqi rəzalət və düşkünlük nəticəsində puç olub gedəcək və təəssüflənən isə yalnız yaxşı tərbiyə verə bilməyən valideyn olacaq.

### *EV, MƏKTƏB VƏ CƏMİYYƏT*

Övladın tərbiyəsi üçün üç mühit zəruridir:

1. Ata-ana qucağı – ailə ocağı;
2. Təhsil ocağı;
3. İctimai ocaq.

Övlad birinci və ikinci mühitdə məhdud təlim-tərbiyə görsə də, üçüncü mühit onun üzünə geniş üfüqlər açır və bu da onun inkişafı üçün böyük meydan sayılır. Müasir dövrdə küçə və xiyabanlarda baş verən yaramaz səhnələr, mətbuatda dərc olan əxlaqsız səhifələr, saxta eşq-məhəbbət və ehtirası artıran yazılar, haram şou yığıncaqları, pis dost və s. doğrudan da övladlarımızı hədələyir. Mühitlərin hansı biri korlanarsa, sözsüz, onların tərbiyəsi də bir o qədər problemlərlə üzləşir və o biri mühitlərin vəzifəsi ağırlaşır. Aydındır ki, onların arasında ailənin rolu hamısından ağır və mühümdür. Odur ki, müqəddəs İslam dinində övlad tərbiyəsi əsasən ata-ana ilə əlaqələndirilir və camaat da saleh, tərbiyəli, əxlaqlı bir cavanla üzləşdikdə, yaxud asayişi pozan əxlaqsız bir gənclə rastlaşdıqda, əvvəl onun valideynlərinə rəhmət və ya qarğış edir.

# 13

## MÜTTƏQİLƏRƏ BAŞÇILIQ

Rəhman Allahın həqiqi bəndələri o qədər özünütərbiyə, təqva və nəfslə mübarizə yolunu başa vurandan sonra mütəal Allahdan təqva əhlinə imam və öndər olmalarını istəyirlər. "Furqan" surəsinin 74-cü ayəsində buyurulur:

وَاجْعَلْنَا لِلْمُتَّقِينَ إِمَامًا

***"(Onlar) Bizi təqvalılara başçı et" – deyərlər.***

*BURADA NƏZƏRƏ ÇARPAN İNCƏLİKLƏR*

**1. Dua ilə əməlin birgəliyi:** İlahi bəndələr təqvalılara başçı və öndər olmağı yalnız dildə dua etmir, həm də bu yolda addımlayır, bütün qüvvəsini səfərbər edirlər. Onsuz bu bir zarafata bənzəyir! Qorxaq insanın fədakarlıq fikrinə düşməsi gülünc bir məsələdir. Özünütərbiyədən uzaq əxlaqsız və təqvasız kəs heç vaxt müttəqilərə rəhbərlik sevdasına düşməz! Demək olar, onlar qarşılarına qoyduqları hər hansı məqsədə nail olmaq üçün daim Allahım lütf və imdadına göz dikirlər. Buna əsasən, dua acizlik əlaməti yox, əzm və əməl üçün güclü stimuldur.

**2. "Müttəqilərə başçılıq" – böyük iftixar!:** Mədəniyyətdən uzaq, ilahi təlimlərdən xəbərsiz mürtəce və geridə qalan bir millət və cəmiyyətə rəhbərlik elə də fəxr hesab edilmir. Odur ki, onların özlərinə layiq rəhbər və başçısı olacaq. Amma pak, saleh, təqvalı və mədəni

insanlara rəhbərlik isə böyük iftixardır və Allahın həqiqi bəndələri də elə bunu arzu edirlər!

**3. Müttəqilərə başçılıq, yoxsa məğrurluq:**

Görəsən, bu istək və arzu İslamda məzəmmət edilən vəzifəpərəstlik deyilmi və ya təqva və təvazökarlıqla necə uzlaşır?

Həzrət Yusifin (ə) əhvalatında o həzrətin Allahdan belə bir istəyi diqqəti cəlb edir:

قَالَ اجْعَلْنِي عَلَى خَزَآئِنِ الأَرْضِ

***"Məni bu ölkənin (Misirin) xəzinələrinə (xəzinədar) təyin et."*[1]**

Sonra o, bu mühüm məqama layiq olduğunu belə açıqlayır:

إِنِّي حَفِيظٌ عَلِيمٌ

***"Çünki mən əmanətdar və biliciyəm."***

Məlum olduğu kimi, belə bir iş üçün zəkalı, uzaqgörən, agah və əmanətdar bir insan lazımdır. Görəsən, həzrət Yusifin (ə) istəyi və özünü tərifləməsi məğrurluq və özünü böyük görmə deyilmi? İmam Əli (ə) "Şiqşiqiyyə" xütbəsində buyurur: *"Allaha and olsun ki, Əbu Qühafənin oğlu (Əbu Bəkr) mənim xəlifəlik üçün eynilə dəyirmanın orta qütbü kimi (elmdə və əməldə kamillik baxımından) vəli olduğumu bildiyi halda, onu adi bir qumaş kimi əyninə keçirdi. Sinəmdən elm və maarif sel tək daşır, elm və bilik səmasında qanad çalanların heç biri zirvəmə qalxa bilməz."*[2]

Görəsən, bu ifadələrdə təkəbbürlük yoxdurmu?

Özünütəriflə qabiliyyət və istedadları tanıtdırmaqda

1.. *"Yusif" surəsi, ayə 55.*

2.. *"Nəhcül-bəlağə", xütbə: 3.*

fərq vardır. Qiymətli şeyin dəyərindən danışmaq tərif sayılmır. Hal-hazırda hər bir şeyin müəyyən ölçüsü, keyfiyyəti, funksiyası, növü və s. haqda dəqiq məlumat verilir və bütün bunlar məhsulu xarakterizə edən əlamətlərdir. Məsələn, həkimlərin iş yerləri və klinikalarında ixtisasları, harada təhsil aldıqları və titulları qeyd edilir ki, xəstə kimə müraciət edəcəyini bilsin və heç kim də bunu özünütərif hesab etmir.

İmam Əli (ə) və həzrət Yusif (ə) kimi ilahi bəndələrin özlərini xalqa tanıtdırmaları isə hər bir vacibdən də vacibdir.

**4. Böyük himmət:** İnsanın dəyəri himmətindən asılıdır və himməti böyük olanların dəyəri də artıqdır. Sözügedən ayədən ilahi bəndələrin böyük himmət sahibi olduqları açıq-aşkar başa düşülür. İslam rəvayətlərində bu haqda geniş məlumat verilir:

İmam Əli (ə) buyurur: *"İnsanın dəyəri himməti qədərdir."*[1] Himməti az olanın qədir-qiyməti də az olar.

*"İnsanın şərəfi əcdadının çürümüş sümükləri ilə yox, böyük himmətilədir."*[2] Ata-babalarla öyünmək insanın şərafət və şəxsiyyətini artırmır, şərafət böyük himmətlə ölçülür.

*"İnsanı himmət kimi ucaldan və ehtiras kimi alçaldan bir şey yoxdur."*[3]

*"Himməti böyük olanın qədir-qiyməti də böyük olar."*[4]

Hər bir işdə himmət xüsusi əhəmiyyət daşıyır və tərəqqi və inkişaf da böyük himmətin nəticəsidir. İlahi bəndələrin Allahdan belə istək və arzuları da

---

*1.. "Mizanul-hikmət", bölmə: 3962, hədis: 21325.*

*2.. "Mizanul-hikmət", bölmə: 3961, hədis: 21315.*

*3.. "Mizanul-hikmət", bölmə: 3962, hədis: 21327.*

*4.. "Mizanul-hikmət", bölmə: 3962, hədis: 21326.*

himmətlərindən irəli gəlir. Diqqəti cəlb edən odur ki, bu səciyyə onların spesifik xüsusiyyəti kimi, yalnız sözügedən ayədə qeyd edilir.

# 14

## SƏBİR VƏ TƏMKİN

Furqan" surəsinin 75-76-cı ayələrində rəhman Allahın həqiqi bəndələrinin on dördüncü səciyyəsi belə açıqlanır:

أُوْلَئِكَ يُجْزَوْنَ الْغُرْفَةَ بِمَا صَبَرُوا وَيُلَقَّوْنَ فِيهَا تَحِيَّةً وَسَلَامًا. خَالِدِينَ فِيهَا حَسُنَتْ مُسْتَقَرًّا وَمُقَامًا

***"Onlar (rəhman Allahın həqiqi bəndələri) səbirləri müqabilində (cənnətdə) yüksək dərəcələrlə mükafatlandırılar, orada (Allah və mələklər tərəfindən) xeyir-dua və salamla qarşılanarlar! (Onlar) orada əbədi qalacaqlar; (ora) gözəl yer və gözəl məskəndir."***

Bu iki ayədə ilahi bəndələrə verilən mükafat və nemətlərdən, onların axirət aləmindəki məqamlarından söz açılır. Bəli, varlığın Xaliqi ilə sıx rabitədən başlayıb böyük himmət, ailəyə nəzarət və səbrə sahib olanların mükafatı behişt hücrələridir. Yəni bu mükafat səbir və təmkin libasını geyinən şəxslərə məxsusdur. Onlar bəndəçilik qülləsini fəth etməklə elə məqama çatırlar ki, mələklərlə görüşür, salamlaşır və məqamlarınadək müşayiət olunurlar. İlahi bəndələr – bəndəçilik qülləsinin fatehləri səbir və dözümləri müqabilində misilsiz behişt saraylarında məskunlaşacaq və sağlamlıq evi adlanan həmin saraylarda əbədi qalacaqlar. Bu qısa şərhdən sonra yuxarıdakı iki ayənin bəzi ifadələrinin şərhinə başlayırıq:

**1. "Ğurfə" (yüksək dərəcələr):** Bu sözün əslində bir mənası olsa da, sonralar iki cür işlənib. Bir ovuc suya "ğurfə" deyilir. Talutla Calutun əhvalatından söz açılan "Bəqərə" surəsinin 249-cu ayəsində belə buyurulur:

فَلَمَّا فَصَلَ طَالُوتُ بِالْجُنُودِ قَالَ إِنَّ اللّهَ مُبْتَلِيكُم بِنَهَرٍ فَمَن شَرِبَ مِنْهُ فَلَيْسَ مِنِّي وَمَن لَّمْ يَطْعَمْهُ فَإِنَّهُ مِنِّي إِلاَّ مَنِ اغْتَرَفَ غُرْفَةً بِيَدِهِ فَشَرِبُواْ مِنْهُ إِلاَّ قَلِيلاً مِّنْهُمْ

***"Talut (Əmaliqə ilə döyüşmək üçün) qoşunla birgə (öz qərargahlarından) ayrılarkən dedi: "Həqiqətən, Allah sizi bir çayla sınağa çəkəcək. Bəs, ondan içən, məndən ayrı, içməyən isə məndəndir və əlinə bir ovuc su götürən də istisna edilər (güzəştə gedilər). Beləliklə, onların az bir hissəsi istisna olmaqla hamısı ondan içdilər...")***

Göründüyü kimi, bu ayədə "ğurfə" ilkin mənasında işlənib. Sonralar bu söz müəyyən bir baxışla evin üst mərtəbəsinə aid edilib. Diqqəti cəlb edən də odur ki, bu söz Quranın yalnız iki ayəsində – "Bəqərə" surəsində ilkin, "Furqan" surəsində isə ikinci mənada işlənmişdir.

**Sual:** Nə üçün behişt evləri "ğurfə" sözü ilə işlənmişdir?

**Cavab:** Allah-Taala bu mükafatın əhəmiyyətini aşılamaq istəyir. Çünki keçmişdə camaat arasında binanın üst mərtəbələri bəyənilirdi.

**2. "Bima səbəru" (səbirləri müqabilində):** Mələklərin pişvazı və salamı ilə Allahın həqiqi bəndələrinə verilən behiştin nur və mənəviyyatla dolu yüksək dərəcələri onların səbir və dözümlərinə görədir və bu da onun bütün səciyyələrdən üstün və dəyərli olduğunu göstərir. Demək, səbir qalan on üç xüsusiyyətə şərait yaradır və

onsuz bəndəliyin zirvəsinə qalxmaq qeyri-mümkündür. Odur ki, bu xüsusiyyət mənəvi yönlərdə müvəffəqiyyət rəmzi sayılır və insanın gündəlik işlərində də əzmini artırır. Nəhayət, ilahi bəndələrin cərgəsinə qoşulub behiştin yüksək dərəcələrində məskunlaşması səbir libası olmadan mümkün deyil.

**3. "Təhiyyət" və "salam":** "Təhiyyət"lə salam arasında fərq varmı?

Bir çox təfsirlərdə bu iki söz eyni cür mənalandırılır. Məsələn, "insan" və "bəşər" sözləri kimi. Lakin bizim nəzərimizcə, Qurani-Kərimdə sinonim sözlər azdır və hər biri müəyyən məna kəsb edir. "Təhiyyət" daha çox xeyir-dua mənasını ifadə edir. Misal üçün, iki nəfərin bir-birinə dediyi sözlərdən biri "sağ o!" – təşəkkürüdür. Bu özü bir növ xeyir-duadır. "Salam" sözünün əhatəsi isə nisbətən azdır və deyilən kəs tərəfindən yalnız qarşı tərəfin sağlamlığına müsbət mövqeni bildirir.

Deməli, mələklər səbrin sayəsində bir çox səciyyəvi xüsusiyyətlərə və behişt dərəcələrinə sahib olan Allahın həqiqi bəndələri üçün ali sağlam həyat diləyirlər.

**4. Behişt və əbədi həyat:** İnsanları daim nigaran edən fikirlərdən biri ömür və nemətlərin müvəqqəti olmasıdır. Sərvət, məqam, vəzifə, ictimai mövqe, maşın, ev, abır-həya və s. mümkündür, bir anda itirilsin. Odur ki, dini dünyanın ötəri nemətlərinə bağlanmağa dair xəbərdarlıqlar çoxdur. Bu fikir ağıllı insanlar tərəfindən də normal qarşılanır. Amma behiştin nemətləri barədə belə nigarançılıqlara yer yoxdur. Allah-Taala "xalidinə fiha" (orada əbədi qalacaqlar) ibarəsi ilə ardıcıl olaraq bəndələrini salam və xeyir-dua ilə birgə behiştin ali dərəcələrinə nail olacaqlarını müjdələyir.

**5. "Müstəqərr" və "muqam" (yer və məkan):** Bu iki sözün arasındakı fərq odur ki, "müstəqərr" yalnız yerləşməyi, "muqam" isə yerləşməklə yanaşı həmin yerin davamlı olduğunu ifadə edir. Demək, behiştin yüksək dərəcələri kirayə evləri kimi müvəqqəti yox, daimidir.

*SƏBRİN ƏHƏMİYYƏTİ*

Səbirdən söz açan ayə və hədislərdə bu xislət və səciyyəyə verilən əhəmiyyət barədə söz çoxdur. Məsələn, "Rəd" surəsinin 22-24-cü ayələrində səbrin nəticəsi və mükafatı haqda belə buyurulur:

وَالَّذِينَ صَبَرُواْ ابْتِغَاء وَجْهِ رَبِّهِمْ وَأَقَامُواْ الصَّلاَةَ وَأَنفَقُواْ مِمَّا رَزَقْنَاهُمْ سِرًّا وَعَلاَنِيَةً وَيَدْرَؤُونَ بِالْحَسَنَةِ السَّيِّئَةَ أُوْلَئِكَ لَهُمْ عُقْبَى الدَّارِ. جَنَّاتُ عَدْنٍ يَدْخُلُونَهَا وَمَنْ صَلَحَ مِنْ آبَائِهِمْ وَأَزْوَاجِهِمْ وَذُرِّيَّاتِهِمْ وَالمَلاَئِكَةُ يَدْخُلُونَ عَلَيْهِم مِّن كُلِّ بَابٍ. سَلاَمٌ عَلَيْكُم بِمَا صَبَرْتُمْ فَنِعْمَ عُقْبَى الدَّارِ

***"Rəbbinin razılığını cəlb etmək üçün (çətinliklərdə və öz vəzifələrini yerinə yetirməkdə) səbir edib, namaz qılan, onlara ruzi olaraq verdiklərimizdən (mal-dövlətdən) gizlində və aşkarda Allah yolunda xərcləyən və yaxşı əməlləri vasitəsilə pis işlərini aradan qaldıranları daimi diyar gözləyir. (Yəni) əbədi cənnətlərə daxil olarlar və onlara ataları, zövcələri və övladlarından (əqidə baxımından) layiq olanları da qatılar. Bu zaman mələklər hər bir qapıdan onların yanına daxil olaraq deyərlər: "Səbir və dözümlülüyünüzün müqabilində salam olsun sizə! O dünyanın sonu (olan bura) nə gözəldir!"***

Göründüyü kimi, mələklər behişt əhlini səbir və dözümlülüklərinə görə salamlayırlar. Demək, səbirsiz

həmin behişt də yoxdur.

İmam Əli (ə) "Nəhcül-bəlağə"nin 82-ci qısa kəlamında belə buyurur: *"Sizə beş şey tövsiyə edirəm ki, onları əldə etmək üçün (dabanlarınızla) dəvələrin qarnının altına vurmağınıza (sürətlə gedərək əzab-əziyyəti özünüzə rəva bilməyinizə) dəyər: (Birinci:) Rəbbinizdən qeyrisinə ümid bağlayın, (ikinci:) günahınızdan başqa şeydən qorxmayın, (üçüncü:) soruşulan bilmədiyiniz şeyi "bilmirəm" deməkdən utanmayın, (dördüncü:) bilmədiyiniz şeyi öyrənməkdən utanmayın. (beşinci:) səbirli və təmkinli olun ki, səbrin imana nisbəti, başın bədənə nisbəti kimidir və başsız bədəndə və səbirsiz imanda xeyir yoxdur."* Səbrin imana nisbəti başın bədənə nisbəti kimidir və onsuz imanın davamı mümkünsüzdür.

***SƏBRİN HƏQİQƏTİ***

Bəzilərinin səbrə baxışı yanlışdır və onu "əli əl üstə qoyub gözləmə" "fəaliyyət göstərməmə" kimi təsəvvür edir və ya "hər zülmə təslim olma" kimi yanlış mənalandırır! "Bəqərə" surəsinin 250-ci ayəsində buyurulur:

وَلَمَّا بَرَزُواْ لِجَالُوتَ وَجُنُودِهِ قَالُواْ رَبَّنَا أَفْرِغْ عَلَيْنَا صَبْرًا وَثَبِّتْ أَقْدَامَنَا وَانصُرْنَا عَلَى الْقَوْمِ الْكَافِرِينَ

***"Onlar Calut və onun qoşunu ilə vuruşmaq üçün qarşılaşdıqları zaman dedilər: "Ey Rəbbimiz, bizə (qəlblərimizə) səbir və dözüm nazil et, qədəmlərimizi möhkəmləndir və bizə kafir qövmə qarşı kömət et."***

Bu ayə əli əl üstə qoyub gözləmək və ya zülmə tabe olmqla tam ziddir. Talutla qoşunu Allah-Taaladan səbir və dözüm istəyir ki, təlaş və fəaliyyətlə zülmlə mübarizə

apararaq düşmənə qalib gəlsin və zülmün kökünü kəssinlər.

Səbrin növləri vardır ki, bu ayədə qeyd olunan onun biridir və günah və məsiyət müqabilində səbir, itaət və ibadət müqabilində səbir, ehtiras müqabilində səbir, haram mal müqabilində səbir, vəzifə müqabilində səbir, şeytani vəsvəsələr müqabilində səbir, nəfsin istəkləri müqabilində səbir və s. növlərə də rast gəlinir. Səbir və dözümü olmayan insanın zəhməti itər, həyatı boyu ağrı-acılarla ələ gətirdikləri əldən çıxar.

İlahi, bizim səbir və dözümümüzü artır! Bizi həqiqi səbir edənlər sırasına qat! Bizi səbir edənlərlə bir mükafatlandır! Elə et ki, daim Səndən razı qalaq və behiştin yüksək dərəcələrinə nail olaq! Amin!

*MÜNDƏRİCAT*

## İLAHİ BƏNDƏLƏRİN SƏCİYYƏLƏRİ


*GİRİŞ* . . . . . . . . . . 5
*RAMAZAN – TƏLİM-TƏRBİYƏ AYI* . . . . . . . . . . 5
*QURANİ-KƏRİMDƏ İSLAM ƏXLAQI* . . . . . . . . . . 5
*"FURQAN" SURƏSİNİN MƏZMUNU* . . . . . . . . . . 6
*İLAHİ BƏNDƏLƏRİN XÜSUSİYYƏTLƏRİNƏ QISA BİR BAXIŞ* . 7
*ALLAHIN BƏNDƏLƏRİ KİMLƏRDİR?* . . . . . . . . . . 7
*İSLAM – QƏDDARLIQ, YAXUD MƏRHƏMƏT* . . . . . . . . . . 11
*QURANİ-KƏRİMDƏ RƏHMƏT VƏ ŞƏFQƏT* . . . . . . . . . . 12
*HƏDİSLƏRDƏ RƏHMƏT VƏ ŞƏFQƏT* . . . . . . . . . . 17
*MƏSUM RƏHBƏRLƏRİN HƏYATINDA İSLAMIN RƏHMƏT VƏ ŞƏFQƏTİ* . . . . . . . . . . 22
*İRADLAR* . . . . . . . . . . 24
A) QİSAS QANUNU, YOXSA QƏDDARLIQ . . . . . . . . . . 24
B) İSLAMIN DİNİ RƏHMƏT VƏ ŞƏFQƏTLƏ UYĞUNSUZLUĞU . . 26
*MÜHARİBƏ VƏ İSLAMIN RƏHMƏT VƏ ŞƏFQƏTİ* . . . . . . . . . . 30
*"İBTİDAİ CİHAD" – QƏDDARLIQ QƏSDİ* . . . . . . . . . . 32
1. FITNƏ ATƏŞINI SÖNDÜRƏN CIHAD . . . . . . . . . . 35
2. AZĞINLAR VƏ TƏCAVÜZKARLARLA MÜBARIZƏ . . . . . . . . . . 36
3. İSLAMIN TƏBLIĞINDƏ AZADLIQ ÜÇÜN CIHAD . . . . . . . . . . 36
*İLAHİ BƏLA VƏ CƏZALAR DA RƏHMƏTDİR!* . . . . . . . . . . 37

## 1
## TƏVAZÖKARLIQ

*NƏ ÜÇÜN TƏVAZÖKARLIQ?* . . . . . . . . . . 42
*TƏKƏBBÜRÜN TƏSİRLƏRİ* . . . . . . . . . . 46
*TƏKƏBBÜRÜN NƏTİCƏLƏRİ* . . . . . . . . . . 47
*TƏKƏBBÜRÜN MÜALİCƏ ÜSULLARI*. . . . . . . . . . 51
*İMAM ƏLİNİN (Ə) TƏVAZÖKARLIĞINDAN BİR NÜMUNƏ* . . . . 54
*TƏKƏBBÜRÜN İCTİMAİ FORMASI* . . . . . . . . . . 56

## 2
## MÜLAYİM RƏFTAR

*MÜLAYİM RƏFTARA TOXUNAN AYƏLƏR*. . . . . . . . . . 60
*MƏSUMLARIN KƏLAMLARINDA MÜLAYİM RƏFTAR* . . . . . . . . 62
*HƏZRƏT NUH (Ə) VƏ HƏZRƏT YUNUSUN (Ə) YAXŞI RƏFTARI*63
*HƏMİN PEYĞƏMBƏRLƏRİN AQİBƏTİ NƏ OLDU?* . . . . . . . . . . . 64

## 3
## GECƏ İBADƏTLƏRİ

*GECƏ NAMAZI RƏVAYƏTLƏRDƏ* . . . . . . . . . . 73
*GECƏ NAMAZINDAKI HİKMƏT* . . . . . . . . . . 75

## 4
## CƏHƏNNƏM ATƏŞİNDƏN QORXU

*ƏZAB VƏ CƏZALARLA BAĞLI SUALLAR* . . . . . . . . . . 79
*İKİ QANAD – QORXU VƏ ÜMİD* . . . . . . . . . . 80
*ÜMİD, YOXSA XAM XƏYAL* . . . . . . . . . . 81
*CƏHƏNNƏMİN MAHİYYƏTİ* . . . . . . . . . . 82
*CƏHƏNNƏMİN YENİ TƏSVİRİ!*. . . . . . . . . . 83
*CƏHƏNNƏMİN QAPILARI*. . . . . . . . . . 84
*BEHİŞTİN QAPILARI* . . . . . . . . . . 87
*BEHİŞT VƏ CƏHƏNNƏMİN XİLQƏTİ*. . . . . . . . . . 88
*BEHİŞT VƏ CƏHƏNNƏM ƏMƏLLƏRİMİZLƏ FORMALAŞIR* . . 89
*ALLAHDAN QORXU*. . . . . . . . . . 92

*ALLAHDAN QORXMAĞIN TƏSİRLƏRİ* ...................... *94*

## 5

## İNFAQDA MÖTƏDİLLİK

*İNFAQIN İSLAMDA MÖVQEYİ*.............................. *99*
*İNFAQLA BAĞLI ƏSAS MƏSƏLƏLƏR*........................ *101*
1. NƏ İNFAQ EDƏK?...............................102
2. KİMLƏRƏ KÖMƏK EDƏK? .........................103
3. NƏ QƏDƏR KÖMƏK EDƏK?.........................103
4. NECƏ KÖMƏK EDƏK? (BAŞQALARINI MALIMIZA NECƏ ŞƏRİK EDƏK?) ..........................................103
*İNFAQIN TƏSİRLƏRİ* ....................................... *105*
*ORTA HƏDD* ............................................... *106*
*BAŞQA BİR NÜMUNƏ* ..................................... *106*
*İSRAFA DAİR RƏVAYƏTLƏR* ............................... *109*
*İMAM ƏLİ (Ə) VƏ İSRAFÇILAR*............................. *110*

## 6

## ŞİRKDƏN UZAQLIQ

*ŞİRK VƏ TÖVHİD*.......................................... *115*
ŞİRKİN QAYNAĞI ...................................115
QURANİ-KƏRİMDƏ ŞİRKLƏ MÜBARİZƏ .................117
TÖVHİDİN ƏHƏMİYYƏTİ............................118
*İMAM ƏLİNİN (Ə) NƏZƏRİNDƏ DÜNYA*.................... *118*
*GİZLİ ŞİRK*................................................ *120*
*İMAM ƏLİ (Ə) – TƏKALLAHÇILIĞIN KAMİL NÜMUNƏSİ* ..... *123*
1. İMAM ƏLI (Ə) VƏ GECƏ HƏDIYYƏSI..................124
2. QIZDIRILMIŞ DƏMIR............................125

## 7

## İNSAN QANINA EHTİRAM

*İNSAN QANINA EHTİRAMI* ................................ *134*

## 8
## İFFƏT VƏ SAFLIQ

*GİGİYENA DƏRMAN VƏ MÜALİCƏDƏN İRƏLİDİR* . . . . . . . . . . . 140
*İLAHİ BƏNDƏLƏR VƏ İFFƏT* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 142
*İSLAMIN İFFƏTSİZLƏ MÜBARİZƏSİ* . . . . . . . . . . . . . . . . . . . . . . . . . 143
*MÜASİR DÖVRDƏ İFFƏT VƏ SAFLIQ* . . . . . . . . . . . . . . . . . . . . . . . . 146
*İKİQAT ƏZAB NƏDİR?* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 147
*TÖVBƏ VƏ ALLAHA QAYIDIŞ* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 148
*TÖVBƏNİN QİSİMLƏRİ* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 149
*GÜNAHLARIN SAVAB VƏ İTAƏTƏ ÇEVRİLMƏSİ* . . . . . . . . . . . . . . 151

## 9
## YALANDAN ŞAHİDLİK ETMƏZLƏR!3

## 10
## BİHUDƏ İŞLƏRƏ ETİNASIZLIQ

*"LƏĞV" (BİHUDƏ İŞ) NƏDİR?* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 158

## 11
## EŞİDƏN QULAQ VƏ GÖRƏN GÖZ

*MƏNƏVİ HƏYAT* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 164

## 12
## HƏMİŞƏ DUA EDƏNLƏR

*DUA* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 169
*DUANIN ƏHƏMİYYƏTİ İLƏ BAĞLI MƏQAMLAR* . . . . . . . . . . . . . 169
*İSLAM VƏ ÖVLAD TƏRBİYƏSİ* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 172
*EV, MƏKTƏB VƏ CƏMİYYƏT* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 174

## 13
## MÜTTƏQİLƏRƏ BAŞÇILIQ

*BURADA NƏZƏRƏ ÇARPAN İNCƏLİKLƏR* . . . . . . . . . . . . . . . . . . 176

## 14
## SƏBİR VƏ TƏMKİN

*SƏBRİN ƏHƏMİYYƏTİ. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 184*
*SƏBRİN HƏQİQƏTİ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 185*
*MÜNDƏRİCAT . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 187*

# İBADUR RƏHMAN

*İLAHİ BƏNDƏLƏRİN SƏCİYYƏLƏRİ*

**Ustad**
**Əbülqasim Əliyannijadi**

**Tərcümə**
**Rza Şükürlü**

**Təhsil Texnologiyaları Mərkəzi**
**MƏTBƏƏSİ**

***Hazırlığa verilmişdir: 13.08.2013***
***Çapa imzalanmışdır: 12.09.2013***
***Nəşrin ölçüsü: 86x60. 1/8***
***Fiziki çap vərəqi: 24***
***Sayı: 500***